


# SOSİAL ELMLƏR VƏ PSİXOLOGİYA FAKÜLTƏSİ

SOSİAL ELMLƏR VƏ PSİXOLOGİYA FAKÜLTƏSİ

20

BAKI DÖVLƏT UNİVERSİTETİ

# SOSİAL ELMLƏR VƏ PSİXOLOGİYA FAKÜLTƏSİ

## 20

(BDU. Sosial elmlər və psixologiya fakültəsinin
20 illik yubileyinə həsr olunur)

BAKI – 2011



**BAKI DÖVLƏT UNİVERSİTETİ**
**AZƏRBAYCAN XALQININ MİLLİ SƏRVƏTİDİR**

HEYDƏR ƏLİYEV
Azərbaycan xalqının ümummilli lideri



**BİZ İQTİSADİ POTENSİALIMIZI İNTELLEKT KAPİTALINA ÇEVİRMƏLİYİK**

İLHAM ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

**Redaktorlar:** Vahidov Fazil Qulammirzə oğlu
Kosayev Arzuman İsrafil oğlu

**Kitabın hazırlanmasında iştirak edənlər:** B.H.Əliyev, H.R.İmanov,
İ.Ə.Rüstəmov, R.N.Aslanova,
Ə.C.Əhmədov, K.R.Əliyeva,
N.M.Muxtarova, R.F.İbrahimbəyova,
Q.Y.Abbasova, A.S.Rüstəmov,
Ü.A.Şəfiyev.

**Əlizadə Hikmət Əbdül oğlu, Vahidov Fazil Qulammirzə oğlu**
**"Sosial elmlər və psixologiya – 20".**
Bakı: Bakı Universiteti nəşriyyatı, 2011, 152 səh.

Kitabda Azərbaycanın ilk milli ali təhsil ocağı, respublika ali məktəblərinin flaqmanı olan Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin 20 ildə keçdiyi şərəfli tarixi yol zəngin faktlar əsasında işıqlandırılır, fakültənin müasir inkişaf nailiyyətləri, ayrı-ayrı kafedraları, laboratoriyaları, müəllimləri, məzunları və beynəlxalq əlaqələri haqqında ətraflı məlumat verilir.

Kitab təhsil və elm sahəsində çalışan ziyalılar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

$S\frac{0303040000}{M\text{-}658(07)} - 2011$

© Bakı Universiteti nəşriyyatı, 2011

# ÖN SÖZ



Ümummilli lider Heydər Əliyevin “Azərbaycan xalqının milli sərvəti” adlandırdığı Bakı Dövlət Universiteti Şərqin ilk dünyəvi ali məktəblərindən biri kimi mənəvi böyüklüyümüzün simvolu hesab edilir. Mövcud olduğu illər ərzində universitet respublikamızda ziyalı təbəqəsinin, elmin, milli özünüdərkin formalaşmasında, beynəlxalq nüfuzumuzun yüksəlməsində misilsiz xidmətlər göstərmişdir. Hər bir ölkənin iqtisadi, mədəni və intellektual səviyyəsinin barometri hesab edilən milli universitet missiyasını respublikamızda şərəflə həyata keçirən Bakı Dövlət Universitetində hazırda 18 mindən çox tələbə təhsil alır. Tələbələrin təlim-tərbiyəsi ilə 1500-ə yaxın professor-müəllim heyəti məşğul olur ki, onların da təxminən 100 nəfəri dövlətin ali orden və medalları ilə təltif edilmiş, 23 nəfəri AMEA-nın həqiqi və müxbir üzvü, 14 nəfəri Milli Məclisin deputatı, 4 nəfəri Dövlət

mükafatı laureatı, 50 nəfəri Əməkdar elm xadimi, 300 nəfərə qədəri professor, 800 nəfərdən çoxu isə elmlər namizədi, dosentdir.

Bakı Dövlət Universitetində 17 fakültə fəaliyyət göstərir. Bunların ən gənclərindən biri olan Sosial elmlər və psixologiya fakültəsinin bu günlərdə 20 yaşının tamam olması Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 20-ci ildönümü ilə eyni dövrə təsadüf edir. Bu fakültənin yaradılması müstəqil inkişafımızla şərtlənən tarixi zərurət idi. Totalitar cəmiyyətdən açıq cəmiyyətə istiqamət götürən ölkəmizdə xalqımızın taleyüklü problemlərinin həllində sosial elmlər sahəsində çalışan mütəxəssislərə böyük ehtiyac var idi. Sovet hakimiyyəti illərində sosial – siyasi elmlərin həm öyrənilməsi, həm də tədrisi, məlum olduğu kimi, ideoloji qadağalarla müşayiət olunurdu. Dövlət müstəqilliyinin əldə olunması bu elm sahələri üzrə ixtisaslı kadr hazırlığı zərurətini yaratdı və respublikamızda müasir tələblərə cavab verən, sosial-siyasi elm sahələri üzrə kadr hazırlığını həyata keçirən Sosial elmlər və psixologiya fakültəsinin təşkili müstəqil inkişafımızın real təlabatlarının ödənilməsinə layiqli töhfə oldu. Universitetin bütün fakültələrində fəlsəfə, psixologiya, politologiya, sosiologiya, pedaqogika, məntiq və s. fənləri tədris edən professor-müəllim heyəti tədricən bu fakültədə cəmləşdi. Ümummilli lider Heydər Əliyevin memarı olduğu müstəqillik tariximizlə həmyaşıd olan bu fakültə qısa zaman kəsiyində cəmiyyətimizin müxtəlif sahələrində uğurla çalışan kadrlar hazırlamış, dəyərli sosio-mühəndis layihələr reallaşdırmışdır.

Fakültə əməkdaşlarının beynəlxalq elmi arenaya çıxmaları, onların uğurlu beynəlxalq qrant layihələrini reallaşdırması hamı kimi, məni də çox fərəhləndirir. Ciddi nailiyyətlər qazanan fakültənin elmi potensialı böyükdür. Bu potensialı yaradan elmi məktəbləri olan böyük alimlərimizdir. Sosial elmlər və psixologiya fakültəsinin çox qısa zaman ərzində diqqət çəkən uğurlara nail olması inamla belə deməyə əsas verir ki, ümummilli lider Heydər Əliyevin siyasi kursunun davamçısı İlham Əliyevin “Sosial rifah dövləti” modelinin uğurlu inkişafında, iqtisadi kapitalı intellekt potensialına çevirmək siyasətinin reallaşmasında bu fakültənin də nəzərəçarpacaq töhfələri vardır. Əminəm ki, bu nailiyyətlər gələcəkdə daha əsaslı olacaqdır.

Elmin və təhsilin inkişafı üçün dövlət səviyyəsində qəbul edilmiş qərarlara və 2011-2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli strategiyaya uyğun olaraq, fakültədə yeni ixtisaslar üzrə kadr hazırlığının keyfiyyətinin artırılması istiqamətində xeyli işlər görülür. Bu baxımdan qeyd etmək yerinə düşər ki, fakültənin bütün kafedralarında müasir tələblərə cavab verən dərsliklərin, dərs vəsaitlərinin, proqramların, orijinal elmi əsərlərin, monoqrafiyaların nəşrinə xüsusi diqqət yetirilir. Fakültənin təcrübəli müəllimləri tərəfindən fəlsəfə, sosiologiya, pedaqogika, politologiya, psixologiya, fəlsəfə tarixi, məntiq və s. elm sahələri üzrə hazırlanmış dərsliklər universitetin bütün fakültələrində tədris olunur. Bu dərsliklər zəruri nəzəri – elmi və metodik tələblərə cavab verir və getdikcə təkmilləşdirilir.

Sosial elmlər və psixologiya fakültəsində hal-hazırda altı ixtisas üzrə kadr hazırlığı həyata keçirilir. Fakültəni bitirən gənclər respublikamızın müxtəlif idarə və müəssisələrində, dövlət qulluğu işlərində uğurla fəaliyyət göstərirlər.

Fakültənin fəaliyyətində tədrisin keyfiyyətinin yüksəldilməsi, eyni zamanda həyatımızın real təlabatları ilə şərtlənən yeni ixtisasların açılması daim diqqət mərkəzində olmuşdur. 2000-ci ildən magistratura pilləsində “Həyat fəaliyyətinin müxtəlif dairələrində sosial iş” ixtisaslaşması, 2008-ci ildən isə bakalavr pilləsində “Sosial iş” və 2011-ci ildən “Təhsil sistemində sosial-psixoloji xidmət” ixtisasları üzrə kadr hazırlığına başlanması buna əyani sübutdur.

2002-ci ildə “Gender və tətbiqi psixologiya”, 2010-cu ildə “Sosial və pedaqoji psixologiya” kafedralarının yaradılması və fəaliyyət göstərməsi də həmin ixtisaslar üzrə yüksək ixtisaslı kadr hazırlanması təlabatından irəli gəlmişdir. Bu, kadr hazırlığının keyfiyyətinin artırılması istiqamətində atılan uğurlu addımlardan biridir.

Cari ildən “Sosiologiya” ixtisası üzrə ingilisdilli bölmə yaradılmışdır. Belə bölmənin yaradılmasında əsas məqsəd tələbələrin təhsil aldıqları müddətdə Avropa və dünya elmini daha dərindən öyrənməsini təmin etməkdən və Avropa təhsil məkanına inteqrasiyanı gücləndirməkdən ibarətdir.

Fakültənin əməkdaşları ölkənin ictimai-siyasi həyatında fəal iştirak edirlər. Onlardan 4 nəfəri hazırda Azərbaycan Respublikası

Milli Məclisinin deputatlarıdır – Əli Cavad oğlu Əhmədov, Rəbiyyət Nurullah qızı Aslanova, Bəxtiyar Həmzə oğlu Əliyev, Gülər Mikayıl qızı Əhmədova. Onlar fakültədə təhsilin hərtərəfli inkişafına yaxından kömək göstərirlər.

Sosial elmlər və psixologiya fakültəsinin bir sıra alimləri respublikada və dünyanın bir çox ölkələrində keçirilən beynəlxalq forum, seminar, proqram və qrantlarda iştirak edir, mükafatlar alırlar. İnanıram ki, gələcəkdə də fakültənin işgüzar, zəhmətsevər, vətənpərvər professor-müəllim və işçi kollektivi elmi-tədqiqat sahəsində və kadr hazırlığında öz nailiyyətlərini artıracaq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında yeni inkişaf yoluna qədəm qoymuş Azərbaycan elminə və təhsilinə daha sanballı töhvələr verəcəklər. Mən bu yolda onlara böyük uğurlar arzulayıram.

**BDU-nun rektoru, millət vəkili,**
**akademik A.M.Məhərrəmov**

# TARİXİ ZƏRURƏTDƏN YARANAN FAKÜLTƏ

XX əsrin əvvəllərində Bakıda Universitetin yaranması Azərbaycan xalqının ictimai həyatında mühüm bir hadisəyə çevrildi. 1918-ci ildə müstəqil Azərbaycan Respublikasının və hökümətinin qərarı ilə Tiflis Universitetindən 3 şöbə ayrılaraq Bakıya köçürülmüş və burada Dövlət Universiteti təşkil olunmuşdur. Bakı Dövlət Universitetinin ilk rektoru vəzifəsinə görkəmli tibb alimi, ictimai xadim və maarifçi, əvvəllər Kazan, Saratov və Tiflis universitetlərinin rektoru olmuş Vasili İvanoviç Razumovski təyin edilmişdir. O, Tiflisdən Bakıya dəvət olunmuşdur.

V.İ.Razumovski ilk çıxışlarının birində demişdir: "Azərbaycan öz ali maarif ocağını yaratdı və bu türk xalqının tarixinə yeni parlaq səhifə verdi…. Sanki Avropa ilə Asiyanın qovuşuğunda yeni çıraq yandı".

1919-1920-ci tədris ilində Universitetə 887 nəfər tələbə, 217 nəfər isə azad dinləyici qəbul olunmuşdu. Universitetdə ilk tədris günü 15 noyabr 1919-cu ildə başlandı. Həmin vaxtdan bu günə qədər Bakı Dövlət Universiteti özünəməxsus inkişaf mərhələləri keçmişdir. İllər bir-birini əvəz etdikcə universitetdə yeni fakültələr, yeni kafedralar, yeni laboratoriyalar yaranmış, yeni ixtisaslar üzrə kadr hazırlığı həyata keçirilmiş, elmi-tədqiqat işlərinin səviyyəsi yüksəlmiş, universiteti respublikada və dünyada ləyaqətlə təmsil edən alimlər ordusu və elmi məktəblər yaranmış, ölkəmizin ictimai-siyasi həyatında önəmli rol oynayan kadrlar yetişmişdir.

1990-cı ildə Bakı Dövlət Universitetinin həyatında əlamətdar hadisə baş verdi. Tarix fakültəsinin tərkibində tarix – sosiologiya, tarix – psixologiya, tarix – sosial psixologiya və tarix – etnopsixologiya ixtisaslarına tələbə qəbulu keçirildi. Bir il sonra həmin ixtisasların – "Sosiologiya" və "Psixologiya" ixtisaslarının bazasında, habelə "Fəlsəfə" və "İqtisadi nəzəriyyə" ixtisaslarından ibarət yeni fakültə – Sosial elmlər və psixologiya fakültəsi yaradıldı. Beləliklə, fəaliyyətinin ilk günlərindən Sosial elmlər və psixologiya fakültə-

sində dörd ixtisas – psixologiya, sosiologiya, fəlsəfə və iqtisadi nəzəriyyə ixtisasları üzrə kadr hazırlığına başlanıldı.

80-ci illərin sonu 90-cı illərin əvvəllərində ölkəmizdə baş verən sosial-siyasi hadisələr "Sosial-siyasi münasibətlər nəzəriyyəsi" ixtisası üzrə kadr hazırlığına ehtiyac yaratmışdı. Həmin tələbatı ödəmək məqsədi ilə 1992-ci ildən Sosial elmlər və psixologiya fakültəsində "Sosial - siyasi münasibətlər nəzəriyyəsi" ixtisası (sonralar bu ixtisas "Politologiya" adlandırılmışdır) üzrə tələbə qəbulu keçirildi. Beləliklə, universitetdə beş yeni ixtisas üzrə kadr hazırlayan mürəkkəb tərkibli tədris – elm strukturu – Sosial elmlər və psixologiya fakültəsi təşəkkül tapdı.

Elə bir cəmiyyət yoxdur ki, orada ciddi sosial problemlərə malik təbəqələr olmasın. Cəmiyyətin bu təbəqələrinə professional səviyyədə qayğı göstərmək zəruridir. Zaman keçdikcə bu sahədə mövcud beynəlxalq təcrübəni öyrənmək, sosial xidmət ənənəsini institutlaşdırmaq zərurəti ortaya çıxmış, həmin istiqamətdə kadr hazırlığına da həyati zərurət yaranmışdır. Elə bu zərurətdən çıxış edərək BDU-nun Sosial elmlər və psixologiya fakültəsində əvvəlcə təhsilin magistratura, sonra isə bakalavr pilləsində "Sosial iş" ixtisası üzrə kadr hazırlığına başlanıldı.

Cəmiyyətin bütün sahələrində olduğu kimi, təhsil sektorunda da sosial-psixoloji xidmət zəruridir. Çünki təhsil sahəsində çalışanlar, istər müəllimlər, istərsə də təhsil alanlar bir tərəfdən cəmiyyətin bir üzvü kimi müəyyən sosial-psixoloji problemlərlə üzləşirlər, digər tərəfdən isə təhsil sistemində sosial-psixoloji iqlimi sağlamlaşdırmaq zəruri tələb kimi çıxış edir, həmin sektorda sosial-psixoloji və pedaqoji xidməti aktuallaşdırır. Elə bu zərurətin nəticəsidir ki, 2011-ci ildə fakültədə "Təhsildə sosial – psixoloji xidmət" ixtisası üzrə kadr hazırlığına başlanıldı.

Beləliklə, hal-hazırda Sosial elmlər və psixologiya fakültəsində altı ixtisas üzrə – fəlsəfə, psixologiya, sosiologiya, politologiya, sosial iş və təhsildə sosial-psixoloji xidmət ixtisasları üzrə kadr hazırlanır (2011-ci ildə universitetdə "Beynəlxalq münasibətlər və dünya iqtisadiyyatı" fakültəsinin yaranması ilə əlaqədar olaraq iqtisadi nəzəriyyə ixtisası üzrə kadr hazırlığı həmin fakültəyə həvalə edilmişdir).

Fakültənin yaradılmasında əməkdar elm xadimi, akademik Fuad Feyzulla oğlu Qasımzadənin, əməkdar elm xadimi, AMEA-nın müxbir üzvi, professor Teymur Süleyman oğlu Vəliyevin, əməkdar elm xadimi, professor Həsən İsmayıl oğlu Şirəliyevin, professor Məmmədəli Baba oğlu Zeynalovun, əməkdar elm xadimi, professor Həmid Rza oğlu İmanovun (adları qeyd olunan bu alimlər dünyalarını dəyişmişlər), əməkdar elm xadimi, professor Əkbər Salman oğlu Bayramovun xüsusi xidmətləri olmuşdur.

Psixologiya elmləri doktoru, əməkdar elm xadimi, professor Əkbər Salman oğlu Bayramov fakültənin ilk dekanı olmuş və 20 noyabr 1992-ci ilədək bu vəzifədə işləmişdir. Həmin vaxtdan 2006-cı ilin dekabr ayına qədər fakültəyə fəlsəfə elmləri namizədi, dosent Fazil Qulammirzə oğlu Vahidov rəhbərlik etmişdir (o zaman dekan müavinləri M.V.Vəliyev və R.Ə.Cavadov olmuşlar). 2006-cı ilin dekabr ayında pedaqoji elmlər doktoru, professor Hikmət Əbdül oğlu Əlizadə fakültə dekanı seçilmişdir. Hal-hazırda dosent Qızılgül Yasin qızı Abbasova elmi işlər üzrə dekan müavini, dosent Arif Sədi oğlu Rüstəmov bakalavr pilləsi üzrə dekan müavini, dosent Üzeyir Atamalı oğlu Şəfiyev humanitar işlər üzrə dekan müavini vəzifəsində çalışırlar.

Təhsildə aparılan islahatların tələblərinə, elmi fəaliyyətin müasir xüsusiyyətlərinə uyğun olaraq, fakültədə çalışan professor-müəllim heyəti son illərdə müəyyən irəliləyişlər əldə etmişlər:

fakültənin beynəlxalq imici artmaqdadır: burada təhsil alan əcnəbi tələbə və aspirantların sayı getdikcə çoxalır;

fakültənin beynəlxalq təşkilatlar, habelə qeyri-hökumət təşkilatları, ümumiyyətlə müxtəlif idarə və təşkilatlarla işgüzar əlaqələri genişlənməkdədir. Əlaqələr həm tədris, həm də elmi sahəni əhatə edir.

Fakültə yaradılarkən onun bilavasitə tabeliyində bir kafedra – "Fəlsəfə və sosiologiya" kafedrası olmuşdur. 1999-cu ilin iyununda fakültənin daha səmərəli işləməsi və təşkilati baxımdan möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır: Psixologiya, Pedaqogika, Politologiya və Sosiologiya, İqtisadiyyat, Fəlsəfə tarixi və mədəniyyətşünaslıq, Təbiət fakültələri üzrə Fəlsəfə, Humanitar

fakültələr üzrə Fəlsəfə kafedraları Sosial elmlər və psixologiya fakültəsinin tərkibinə daxil edilmişdir. 2002-ci ildə fakültədə "Gender və təbiqi psixologiya", 2010-cu ildə "Sosial və pedaqoji psixologiya" kafedraları yaradılmışdır. Hal-hazırda fakültədə **8** kafedra, **2** elmi-tədqiqat laboratoriyası, **1** elmi – praktik mərkəzi fəaliyyət göstərir.

**Professor-müəllim heyəti:** Fakültənin professor-müəllim heyəti **106** nəfərdən ibarətdir. Bunların müxtəlif kateqoriyalar üzrə statistikası belədir: AMEA-nın müxbir üzvü – **1** nəfər; elmlər doktoru, professor – **20** nəfər; elmlər namizədi, dosent – **56** nəfər; baş müəllim – 12 nəfər və müəllim – **17** nəfər.

**Tələbə kontingenti.** Sosial elmlər və psixologiya fakültəsinin müstəqil struktur kimi təşkil edildiyi 1991/92-ci tədris ilində cəmi iki kurs fəaliyyət göstərirdi və **117** nəfər tələbə (o cümlədən I kurs da – **72** nəfər, II kursda isə – **45** nəfər) təhsil alırdı. Sosial elmlər və psixologiya fakültəsinin ilk buraxılışı 1995-ci ildə iki ixtisas (sosiologiya və psixologiya) üzrə olmuş, **43** nəfəri əhatə etmişdir. Bunların **21** nəfəri sosiologiya ixtisasına, **22** nəfəri isə psixologiya ixtisasına yiyələnmişlər. Hazırda fakültədə fəlsəfə, psixologiya, sosiologiya, politologiya, sosial iş və təhsildə sosial-psixoloji xidmət ixtisasları üzrə **901** nəfər tələbə əyani şöbədə təhsil alır. Fakültədə təhsil alanların **122** nəfəri Türkiyə vətəndaşıdır.

Fakültədə qiyabi şöbə 1999-cu ildə fəaliyyətə başlamışdır. Hal-hazırda fakültədə **106** nəfər tələbə qiyabi şöbədə psixologiya və fəlsəfə ixtisasları üzrə təhsil alır.

**Magistratura**. Sosial elmlər və psixologiya fakültəsində magistratura pilləsi üzrə təhsil 1997-ci ildən başlanib və həmin ildə müxtəlif ixtisaslara **32** magistrant qəbul olunmuşdur. Qəbul yeddi ixtisaslaşma üzrə aparılmışdır. 2011-ci ildə isə magistratura pilləsində on beş ixtisaslaşma (Sosial psixologiya, Klinik psixologiya, Ümumi psixologiya, İnkişaf psixologiyası, Pedaqoji psixologiya, Hüquq psixologiyası, Uşaq və yaş psixologiyası, Milli təhlükəsizlik və siyasi strategiya, Azərbaycanda siyasi proseslər, Təbiətşünaslığın fəlsəfəsi, Fəlsəfə tarixi, Sosial fəlsəfə, Siyasətin sosiologiyası, İdarəetmənin sosiologiyası, Həyat fəaliyyətinin müxtəlif dairələrində sosial iş) üzrə **46** nəfər əyani, **51** nəfər qiyabi magistrant təhsil alır.

Fakültənin fəlsəfə proqramı üzrə doktorantura pilləsində **64** nəfər təhsil alır. Onlardan **40** nəfəri xarici ölkə vətəndaşıdır.

**Tədrisin təşkili və yüksək ixtisaslı kadr hazırlığı**. Fakültə tədris prosesinin təkmilləşdirilməsini, tələbələrin müstəqil işlə məşğul olmasını, mütəxəssis kadrların hazırlanmasında keyfiyyət göstəricilərinin yaxşılaşdırılmasını, tədris planlarında ixtisaslar üzrə elmin müasir sahələrinin və problemlərinin öz əksini tapmasını daim diqqət mərkəzində saxlayır. Bu cəhətdən təhsilin bakalavr və magistratura pilləsi üçün tədris planlarının hazırlanması və təkmilləşdirilməsi xüsusi qeyd olunmalıdır. Bu planların hazırlanmasında və təkmilləşdirilməsində Təhsil Nazirliyinin, Universitetin Tədris hissəsinin, Tədris-Metodiki Şurasının və müvafiq kafedraların təklifləri, rəyləri diqqətlə öyrənilmiş və nəzərə alınmışdır. Fakültənin Elmi Şurası və Tədris-Metodiki Şurası bu işdə mühüm rol oynamış, müxtəlif variantları hərtərəfli müzakirə etmiş, Avropa-Asiya Universitetləri Assosiasiyasının bir sıra sənədlərindən yaradıcılıqla bəhrələnmişlər. Fakültədə təhsil islahatlarının aparılmasına xüsusi əhəmiyyət verilir. Son beş il ərzində fakültədə aparılan təhsil islahatları aşağıdakı istiqamətləri əhatə edir:

bakalavr və magistratura pillələri üçün tədris planlarının hazırlanması və təkmilləşdirilməsi;

dünyadakı və respublikamızdakı reallıqların, o cümlədən təhsil və elm sahəsindəki nailiyyətlərin nəzərə alındığı dərsliklərin, dərs vəsaitlərinin, metodik göstərişlərin, proqramların hazırlanması;

elmi-tədqiqat işlərinin intensivləşdirilməsi və onların tədrislə əlaqəsinin gücləndirilməsi;

əməkdaşların, tələbələrin, magistrantların elmi-nəzəri və elmi-praktik konfranslarının keçirilməsi, konfrans materiallarından tədris prosesində istifadə olunması;

buraxılış işləri və magistr dissertasiyaları mövzularının müntəzəm surətdə təzələnməsi, tələbələrin və magistrantların arzu və təkliflərinin nəzərə alınması;

tələbələrin və magistrantların universitetin tədris və elmi həyatı ilə müntəzəm tanış olmasına kömək göstərilməsi, bu məqsədlə "Bakı Universiteti" qəzetinin imkanlarından maksimum istifadə edilməsi;

tədris planının, tədris-işçi planının yerinə yetirilməsi üzərində nəzarətin gücləndirilməsi;

təhsilin elmlə əlaqəsini möhkəmləndirmək istiqamətində ciddi addımların atılması.

Bu baxımdan müxtəlif illərdə fəaliyyətə başlamış elmi-tədqiqat strukturlarını xüsusi qeyd etmək lazımdır. Hal-hazırda fakültədə Sosioloji tədqiqatlar laboratoriyası, Eksperimental psixologiya elmi-tədqiqat laboratoriyası və İnkişaf elmi-praktik mərkəzi fəaliyyət göstərir. Bu elmi-tədqiqat laboratoriya və mərkəzlərində bir sıra aktual problemlərin, o cümlədən tədris və təhsillə bağlı xeyli məsələnin öyrənilməsi və təhlili sahəsində müəyyən uğurlar qazanılmışdır.

**Fakültənin elmi həyatı**. Sosial elmlər və psixologiya fakültəsinin professor-müəllim heyəti fəlsəfə, psixologiya, sosial iş, politologiya və sosiologiya elminin inkişafına dəyərli töhfələr vermiş, ciddi elmi araşdırmalar aparmış, maraqlı nəticələr əldə etmişdir. Texniki-köməkçi heyətin mütləq əksəriyyəti də elmi-tədqiqat işlərinə cəlb olunmuşdur.

Fakültədə aparılan elmi-tədqiqat işlərinin mənzərəsi geniş, zəngin və əhatəlidir. Bir sıra elmi istiqamətlər üzrə diqqətəlayiq nəticələri olan tədqiqatçılıq ənənələri təşəkkül tapmışdır. Məsələn, professor Ə.S.Bayramovun ümumi və sosial psixologiyaya, etnopsixologiyaya, Azərbaycan psixoloji fikir tarixinə, AMEA-nın müxbir üzvü, professor B.H.Əliyevin hüquq psixologiyasına, siyasi psixologiyaya, professor C.T.Əhmədlinin, professor V.M.Kərimovun, professor Ə.B.Məmmədovun ontologiya və qnoseologiya məsələlərinə, idrak nəzəriyyəsinə, professor H.R.İmanovun sosial fəlsəfəyə və Şərq fəlsəfəsinə, akad. F.F.Qasımzadənin, professor İ.Ə.Rüstəmovun Azərbaycanın fəlsəfi fikir tarixinə, habelə Şərq fəlsəfəsinə, professor H.Ə.Əlizadənin sosial pedaqogika və psixopedaqogika məsələlərinə, professor R.N.Aslanovanın mədəniyyət probleminə, professor Z.C.Hacıyevin cəmiyyətin sosial strukturuna, professor N.M.Muxtarovanın, professor L.N.Qasımovanın tərbiyə nəzəriyyəsinə, professor Ə.C.Əhmədovun və dos. M.M.Əfəndiyevin siyasi elmə, dosent R.M.Mahmudovanın ali

məktəb pedaqogikasına, professor F.Q.İsmayılovun Qərb fəlsəfəsinə, dosent F.Q.Vahidovun ümumi sosiologiya problemlərinə, professor M.A.İsmixanovun didaktikaya, dosent Ü.A.Şəfiyevin münaqişə, siyasi sosiallaşma problematikasına dair araşdırmaları məhz bu qəbildəndir. Tədris-elm strukturları olan kafedralar rəng-arəng və orijinal tədqiqatların müəyyən istiqamətlərdə ümumiləşdirilməsinə və birləşdirilməsinə xüsusi diqqət yetirirlər.

Ayrı-ayrı kafedralar üzrə **elmi tədqiqatların başlıca istiqamətləri** aşağıdakılardır:

– Fəlsəfə kafedrası – Fəlsəfədə varlıq problemi.

– Fəlsəfə tarixi və mədəniyyətünaslıq kafedrası – Şərq və Qərb xalqlarının fəlsəfi, dini və kulturoloji fikrinin inteqrasiyası;

– Psixologiya kafedrası – Şəxsiyyətin sosial fəallığının psixoloji problemləri;

– Sosial və pedaqoji psixologiya kafedrası – Şəxsiyyət və təhsil;

– Gender və tətbiqi psixologiya kafedrası – Gender problemlərinin psixologiyası;

– Pedaqogika kafedrası – Məktəbli və tələbə gənclərin təlim-tərbiyəsinin təkmilləşdirilməsi;

– Sosiologiya kafedrası – Müasir şəraitdə Azərbaycanda sosial siyasətin əsas istiqamətləri;

– Politologiya və sosiologiya kafedrası – Dövlət və cəmiyyət münasibətlərinin əsas cəhətləri;

– Eksperimental psixologiya elmi-tədqiqat laboratoriyası – şəxsiyyətin inkişafının aktual psixoloji problemləri ;

– Sosioloji tədqiqatlar elmi-tədqiqat laboratoriyası – Tətbiqi sosioloji tədqiqatlar;

– İnkişaf Elmi-Praktik Mərkəzi – Orta və ali məktəbdə metakoqnitiv bacarıqlarının təlim prosesində formalaşdırılması, Müasir təlim prosesinin keyfiyyətinin qiymətləndirilməsi üçün meyarların və qiymətləndirmə vasitələrin müəyyənləşdirilməsi.

Sosial elmlər və psixologiya fakültəsinin əməkdaşları son beş il ərzində ciddi uğurlar qazanmışlar. Bu baxımdan qeyd edə bilərik ki, fakültənin 8 nəfər əməkdaşı elmlər doktoru, 20 nəfər əməkdaşı isə elmlər namizədi elmi dərəcəsi almışdır.

Fakültənin tabeliyində olan 8 kafedranın 47 nəfər doktorantı var. Onlardan 25 nəfəri xarici ölkə vətəndaşıdır.

Fakültədə psixologiya elmləri üzrə FD. 02.014 Dissertasiya Şurası fəaliyyət göstərir.

Tələbələrin elmi işə cəlb olunması xeyli intensivləşmişdir. Fakültənin Tələbə elmi cəmiyyəti öz işini xeyli canlandıra bilmişdir. Tələbə elmi cəmiyyətinin üzvləri xüsusi bülleten buraxır və burada ən aktual məsələlərin işıqlandırılmasına səy göstərirlər. Bundan əlavə tələbə elmi cəmiyyəti xətti ilə keçirilən tədbirlərdə tələbələr elmi yaradıcılığa həvəsləndirilir, onların dünyagörüşünün inkişaf etdirilməsinə, öz fikirlərinin sərbəst və aydın ifadə edilməsinə şərait yaradılır, digər universitetlərdə təhsil alan tələbələrlə dəyirmi masa ətrafında görüşləri, müzakirələri təşkil edilir, müxtəlif intellektual oyunlar keçirilir.

Fakültəmizin tələbələri yalnız təhsil göstəriciləri ilə deyil, həm də universitetin ictimai həyatındakı fəaliyyətləri ilə də fərqlənirlər. Qeyd edək ki, 2005-ci ildə universitetdə yaradılan Tələbə-Gənclər Təşkilatının strukturunda aparıcı rolu məhz fakültəmizin tələbələri oynamışlar. Belə ki, təşkilatın ilk sədri Daşqın Rəcəbli sosiologiya ixtisasının məzunu olmuşdur. 2010-ci il sentyabr ayında keçirilən növbəti seçkilərdə fakültəmizin politologiya ixtisası üzrə I kurs magistrantı Məmmədbağır Məmmədov sədr, fəlsəfə ixtisası üzrə I kurs magistrantı Lamiyə Hüseynova isə sədr müavini seçilmişdir. Məmmədbağır Məmmədov "Avropa-Azərbaycan gənclərinin əməkdaşlığı Birliyi"nin sədri, müxtəlif beynəlxalq konfransların iştirakçısı olmuşdur.

Lamiyə Hüseynova akademik "Heydər Hüseynov" adına təqaüdə və Avrasiya Tədqiqatlar İnstitutunun təsis etdiyi "Mendeleyev" təqaüdünə layiq görülmüşdür. O, 2011-ci ildə Almaniyanın Saarland Universitetində DAAD proqramı çərçivəsində keçirilən "Konfliktlərin idarə olunması" adlı iki aylıq proqramın iştirakçısı olmuşdur.

Universitetimizin SİFE (Students in Free Enterprice – Tələbələr Azad Sahibkarlıq Fəaliyyətində) komandasının formalaşmasında da fakültə tələbələrinin çox böyük əməyi olmuşdur. Belə ki, üçüncü kurs tələbəsi, fakultəmizin Tələbə Gənclər Təşkilatının

sədri Rüstəmli Riyad 2011-ci ildə SİFE komandasının kapitanı olmuş və komanda “Ən yaxşı sosial layihə” nominasiyasina layiq görülmüşdür. Riyad universitetimizi Avropa ölkələrində layiqincə təmsil etmiş, qatıldığı bütün təlimlərdə yüksək fəallıq göstərmiş və sertifikatlar əldə etmişdir. O ölkəmiz üçün böyük əhəmiyyətli olan Eurovision-2012 müsabiqəsinin təşkilat komitəsində çalışır.

Komandaya bu il fakultəmizin 3-cü kurs tələbəsi Aysel Lazımbəyli rəhbərlik edir. Lazımbəyli Aysel həm də fakültəmizin Tələbə Gənclər Təşkilatının sədr müavinidir, fəaliyyətinə yeni başlamış həvəskar Fəlsəfə Akademiyasının Sosiologiya mərkəzinin sədr müavinidir. Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının Sosioloqlar işçi qrupunun idarə heyətinin üzvüdür.

Fakultəmizin fəlsəfə ixtisası üzrə 1572-ci qrup tələbələri Abbasov Emin, Quliyev Seyran, Abbaslı Tural, İsmayılov Tural, Ağayev Əligül, Xasıyev Elbrus, Hacıyev Vüqar, Qasımov Tural 2011-ci ildə həvəskar “Fəlsəfə Akademiyası” yaratmışdılar. Akademiyanın yaranmasında əsas məqsəd Azərbaycanda fəlsəfi fikrə, sosial elmlərə olan marağın artırılmasıdır. Akademiyanın yaranmasına fakultə kollektivinin böyük dəstəyi olmuşdur. Akademiyanın yaradıcılarından Seyran Quliyev 2009-2010-cu tədris ilində «İlin Tələbəsi» adını qazanmışdır. O, bir neçə elmi fəlsəfi məqalənin müəllifidir. Akademiyanın yaranmasında böyük əməyi olan Ağayev Əligül Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının Humanitar və sosial məsələlər üzrə departamentinin rəhbəridir, UNİCEF-in sağlam həyat tərzi üzrə təlimçisidir. 2011-2012– ci illərdə Avropa Gənclər Forumunun Qeyri-formal təhsildə keyfiyyətin təmin olunması üzrə işçi qrupunun üzvüdür.

Fakultəmizin tələbələri ədəbi-bədii yaradıcılıq sahəsində də uğurlar qazanmışlar. Məmmədova Gülnar Məmməd qızı yüksək təhsil göstəricilərlə yanaşı, gözəl şəkil çəkmək qabiliyyitinə malikdir. Onun dəfələrlə rəsm sərgiləri təşkil olunmuşdur. Sumqayıt şəhər İcra Hakimiyyətinin, Gənclər və idman Nazirliyinin diplomları, fəxri fərmanları ilə təltif olunubdur. Sosiologiya ixtisası üzrə tələbə Azər Namidər oğlü Səlimli Xəzər televiziyasında uğurla nümayiş etdirilən “Aramızda qalsın” və “Qayınana” teleseriallarının ssenari

müəlliflərindən biridir.O həmçinin BDU-nun Şən və hazırcavablar klubunun kapitanıdır. Psixologiya ixtisası üzrə təhsil alan Nəzrin Rauf qızı Kərimli BDU-nun rəqs qrupunun fəal üzvlərindən biridir. Politologiya ixtisası üzrə təhsil alan Hacıqulu Hacıəli oğlu Abbaszadə, Fərid Şahin oğlu Ramazanov, Üzeyir Azər oğlu Zeynalzadə BDU-nun xor ansamblının üzvləridir. Fərid Şahin oğlu Ramazanov, eyni zamanda Azad Azərbaycan telekanalında keçirilən "Yeni ulduz-2010" müsabiqəsinin iştirakçısı olmuşdur.

Respublikamızda idman sahəsinə xüsusi diqqət və qayğının nəticəsi olaraq fakültəmizin tələbələri bu sahədə də ciddi uğurlar qazanmışlar. Belə ki, Sadiqov Elmin 2008-ci ildə kinkboksing, Qaşqarov Kamran 2007-ci ildə sambo üzrə Azərbaycan çempionatında ikinci yeri tutmuşlar. Fakültəmizin bir qrup tələbəsi futbol, basketbol üzrə Universitetin yığma komandasının üzvləridir.

Fakültənin məzunları sırasında ali məktəb müəllimləri, elmi işçilər, respublikanın idarəetmə strukturlarında və digər sferalarda çalışanlar var. Məhz bu fakültəni bitirmiş fəlsəfə elmləri namizədi R.O.Məmmədova, sosiologiya elmləri namizədi Ü.A.Şəfiyev, psixolologiya elmləri namizədi R.V.Cabbarov, psixolologiya elmləri namizədi M.H.Mustafayev, psixolologiya elmləri namizədi Y.Ə.Vəliyeva, psixologiya elmləri namizədi, E.Ə. Əhmədova, psixologiya elmləri namizədi A.S.Səməndərova, psixologiya elmləri namizədi L.M.Cabbarova, psixologiya elmləri namizədi E.A.Piriyeva və başqaları hal-hazırda fakültənin nümunəvi müəllimlərindəndirlər. Fakültənin digər məzunları içərisində respublikamızın idarəetmə strukturlarında çalışanlar da az deyildir.

Fakültədə təhsil alan magistrant, aspirant və dissertantların elmi-tədqiqat işləri səmərəli təşkil edilir, onlar hər ilin sonunda elmi-tədqiqat işlərinin yekununa həsr olunmuş elmi-praktik konfranslarda fəal iştirak edirlər.

Fakültədə elmi-nəzəri və elmi-praktik konfransların, ən aktual problemlər üzrə disputların keçirilməsi ənənəyə çevrilmişdir. Bu konfranslarda və disputlarda həm professor-müəllim heyətinin nümayəndələri, həm də müxtəlif kursları təmsil edən magistrantlar və tələbələr ciddi elmi maraq doğuran məruzələrlə çıxış edirlər.

Respublika gününə, "Əsrin müqaviləsi"nə, "Müstəqillik günü"nə və s. həsr olunmuş konfransları xüsusi qeyd etmək olar. Əməkdaşların beynəlxalq elmi-nəzəri konfranslarda və simpoziumlarda iştirakı, məruzələrlə çıxışı da diqqəti cəlb edir. Tələbə gənclərin asudə vaxtının təşkili də fakültə rəhbərliyi və gənclər təşkilatlarının diqqət mərkəzindədir. Universitet tərəfindən keçirilən müxtəlif idman yarışlarında, bədii özfəaliyyət dərnəklərində fakültənin gəncləri müəyyən uğurlar qazanmış, öz istedadlarını nümayiş etdirmişlər.

**Fakültənin əlaqələri**. Fakültənin respublikadaxili və respublikadan kənar elmi əlaqələri xeyli genişlənmişdir.

Fakültənin kafedraları müvafiq ixtisaslar üzrə respublikada aparıcı kafedralar olduğundan onlar digər ali məktəblər və kolleclər, habelə bir sıra idarə və müəssisələr üçün kadrlar hazırlanmasında fəal iştirak edirlər. Digər ali məktəblərin uyğun ixtisaslar üzrə bir çox əməkdaşı məhz bu kafedralarda ixtisasartırma kurslarında olurlar. Fakültənin professor, dosent və baş müəllimləri digər ali məktəblərin tədris-elm işinə səmərəli kömək göstərir.

Fakültənin professor-müəllim və tələbə heyəti beynəlxalq elmi konfranslarda, bütövlükdə layihələrdə yaxından iştirak edir, xaricə ezam olunaraq, elmi-pedaqoji fəaliyyətini orada davam etdirirlər.

Fakültə kollektivi tədris, elm və ideya-siyasi tərbiyə işində yeni müvəffəqiyyətlərə doğru inamla addımlayır. Müstəqil Azərbaycan dövlətinin qarşıya qoyduğu məsul vəzifələri yerinə yetirmək, kamil mütəxəssislər hazırlanmaq və onların tərbiyəsi işinə layiqli töhfə vermək, ən aktual məsələlər üzrə tədqiqatları genişləndirmək sahəsində fakültə kollektivinin uğurları getdikcə artır.

# SOSİAL ELMLƏR VƏ PSİXOLOGİYA FAKÜLTƏSİNİN DEKANLIĞI

2006-cı ildə Hikmət Əbdül oğlu Əlizadə Sosial elmlər və psixologiya fakültəsinin dekanı seçilmişdir. Həmin il Qızılgül Yasin qızı Abbasova elmi işlər üzrə dekan müavini, Arzuman İsrafil oğlu Kosayev bakalavr pilləsi üzrə dekan müavini, Üzeyir Atamalı oğlu Şəfiyev humanitar işlər üzrə dekan müavini vəzifəsinə təyin olundular. 2008-ci ildə Arzuman İsrafil oğlu Kosayevin başqa işə keçməsi ilə əlaqədar Arif Sədi oğlu Rüstəmov bakalavr pilləsi üzrə dekan müavini vəzifəsinə təyin edildi.

**HİKMƏT ƏBDÜL oğlu ƏLİZADƏ –** Pedaqoji elmlər doktoru, professor, dekan.



H.Ə.Əlizadə 1956-cı ildə Bakı şəhərində anadan olubdur. 1978-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki N. Tusi adına ADPU) fərqlənmə diplomu ilə bitirmişdir. Həmin ilin sentyabr ayindan 9 saylı internat məktəbində əmək fəaliyyətinə başlamışdır. 1979-80-ci illərdə hərbi xidmətdə olmuşdur. 1980-1983-cü illərdə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun (indiki ADDU) pedaqogika kafedrasında əyani aspirant olmuşdur. 1985-ci ildə Tbilisi şəhərində "Şagirdlərin təlimə məsuliyyətli münasibətinin formalaşmasına demoqrafik amillərin neqativ təsirinin korrektə edilməsi" mövzusunda namizədlik, 1996– cı ildə isə "Tərbiyənin demoqrafik problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1984-cü ildən

BDU-nun pedaqogika kafedrasında müəllim, dosent, professor vəzifəsində işləmişdir. 2006-cı ildən fakültənin dekanıdır.

O, sosial pedaqogika və psixopedaqogika sahəsində tədqiqatlar aparmış, müxtəlif demoqrafik amillərin şagirdin sosiallaşmasına təsirini öyrənmiş, neqativ demoqrafik təsirlərin pedaqoji nəticələrini araşdırıb, onların aradan qaldırılması yollarını tədqiq etmişdir. Onun rəhbərliyi ilə beş nəfər pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. Hazırda beş nəfər doktoranta elmi rəhbərlik edir. 2000 – 2007-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasında pedaqogika üzrə ekspert olmuşdur. Müxtəlif dövrlərdə dissertasiya şuralarının üzvü olubdur. Hal-hazırda psixologiya elmləri üzrə Dissertasiya Şurasının həmsədridir. 2009-cu ildə BDU-nun 90 illik yubileyi ilə əlaqədar "Tərəqqi" medalı ilə təltif olunmuşdur. 2011-ci ildə BDU-da "İlin dekanı" seçilmişdir. 10 kitabın, 2 dərs vəsaitinin, 6 proqramın, 4 metodik tövsiyənin, 100-dən artıq elmi əsərin müəllifidir.

**QIZILGÜL YASİN qızı ABBASOVA –** Fəlsəfə elmlər namizədi, dosent, dekan müavini



Q.Y.Abbasova 1949-cu ildə Xaçmaz rayonunda anadan olmuşdur. 1973-cü ildə BDU-nun filologiya fakültəsini bitirmişdir. 1973-1977-ci illərdə BDU-nun əyani aspirantı olmuşdur.

1973-1974-cü illərdə Bakı Dövlət Universitetinin Komsomol komitəsinin katibi, 1974-1975-ci illərdə isə Oktyabr (indiki Yasamal) rayon komsomol komitəsinin birinci katibi olmuşdur. 1981-1997-ci illərdə Bakı Dövlət Universitetinin Humanitar fakultələr uzrə fəlsəfə kafedrasında müəllim, baş müəllim, dosent vəzifəsində işləmişdir. 1981-ci ildə namizədlik dis-

sertasiyası, 2011-ci ildə "Fəlsəfə müasir mədəniyyət sistemində" mövzusunda doktorluq işini müdafiə etmişdir. 10-a yaxın kitabın, 80-a yaxın elmi məqalənin müəllifi, 25 proqramın tərtibatçısıdır. Q.Y.Abbasova "Вектор науки" (Tolyatti Dövlət Universitetinin xəbərləri) jurnalının redaksiya heyətinin üzvüdür. Fakültə Elmi-Metodik şurasının sədr müavinidir.

**ARİF SƏDİ oğlu RÜSTƏMOV** – fəlsəfə elmləri namizədi, dosent, dekan müavini.



A.S.Rüstəmov 1959-cu ildə Qazax rayonunda anadan olmuşdur. 1982-ci ildə BDU-nun tarix fakültəsini müvəffəqiyyətlə bitirərək, Şamaxı rayon məktəblərində əmək fəaliyyətinə başlamışdır. 1990-cı ildə "Məişətin maddi əsaslarının möhkəmləndirilməsi" (Azərbaycan Respublikası materialları əsasında) mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1985-ci ildən BDU-nun "Politologiya və sosiologiya" kafedrasında işləyir. 2008-ci ilin oktyabrında dekan müavini vəzifəsinə təyin olunmuşdur. İnsanların maddi rifah halının yüksəlməsi və siyasi sabitliyin qarşılıqlı təsiri problemi üzrə elmi-tədqiqat işi aparır. 1 kitabın, 30-dan artıq elmi məqalənin, 2 tədris proqramının müəllifi, 4 dərsliyin həmmüəllifidir. 1 nəfər elmlər namizədi yetişdirmişdir.

**ÜZEYİR ATAMALI oğlu ŞƏFİYEV –** sosiologiya elmləri namizədi, dosent, dekan müavini.

Ü.A.Şəfiyev 1972-ci il dekabr ayının 27-də Azərbaycan Respublikası Lerik rayonunda ziyalı ailəsində anadan olmuşdur. 1996-ci ildə Bakı Dövлət Universitetində Sosial elmlər və psixologiya fakültəsinin Sosiologiya ixtisasını fərqlənmə diplomu ilə bitirmişdir.



Həmin ildə BDU-nun Sosiologiya kafedrasında sosiologiya ixtisası üzrə aspiranturaya daxil olmuşdur. "Sosial konfliktlər və onların həlli yolları" adlı namizədlik dissertasiyası müdafiə etmişdir. "Siyasi sosiallaşma cəmiyyət-dövlət münasibətləri sistemində" mövzusunda doktorluq dissertasiyası üzərində işləyir. 1 monoqrafiyanın, 1 dərs vəsaitinin, 40-a qədər elmi məqalənin, 4 tədris proqramının, 1 metodik vəsaitin müəllifidir.

**Tyutorlar.** Boloniya prosesində kredit sistemi ilə təhsil alan tələbələrə köməklik göstərmək məqsədilə ali təhsil müəssisələrində akademik məsləhətçilər (tyutorlar) xidməti təşkil olunmuşdur. Tyutor xidməti fakültə dekanlıqlarının nəzdində yaradılır. Tyutorlar tələbələrin akademik maraqlarını qoruyur və müdafiə edir, il ərzində müntəzəm olaraq akademik məsləhətlər təşkil edir, lazımi məlumatları və sənədləri vaxtında hazırlayır, tələbələrin fərdi və işçi planlarının tərtibi üçün onlara qrup və fərdi məsləhətlər verirlər. Lazım olduqda tələbələrin fərdi tədris planlarında dəyişikliklər olunmasına yardım edir, təhsil almaq üçün lazım olan bütün metodik materialların vaxtında hazırlanmasına və mövcudluğuna nəzarət edərək, "Elektron universitet" vasitələri ilə tələbələrə çatdırırlar. Fakültədə hal-hazırda dörd tyutor fəaliyyət göstərir.



**AYNURƏ RAMİL qızı SƏFƏROVA** – fakültənin tyutoru

A.R.Səfərova 1982-ci ildə Ağdam şəhərində anadan olubdur. 2004-cü ildə Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin Sosiologiya ixtisası üzrə bakalavr pilləsini, 2006-cı ildə isə Siyasətin

sosiologiyası ixtisaslaşması üzrə magistr pilləsini fərqlənmə diplomu ilə bitirmişdir. Bu illər ərzində onun 2 məqaləsi, 1 tezisi çap olunubdur. 2007-2011-cı illərdə BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin Sosiologiya kafedrasında baş laborant vəzifəsində çalışmışdır. 2008-ci ildə Bakı Dövlət Universitetinin Elektron Tədris Mərkəzində fəaliyyət göstərən tyutor kursunu müvəffəqiyyətlə bitirib, 2011-ci ilin may ayından Sosial elmlər və psixologiya fakültəsinin tyutoru vəzifəsində çalışır.

**SAMİRƏ ADIGÖZƏL qızı HÜSEYNOVA –** fakültənin tyutoru



S.A.Hüseynova 1985-ci ildə Baki şəhərində anadan olmuşdur. 2007-ci ildə Bakı Dövlət Universitetinin Sosial elmlər və Psixologiya fakültəsində Psixologiya ixtisası üzrə bakalavr pilləsini, 2009-cu ildə isə magistr pilləsini bitirmişdir. Bu illər ərzində onun 1 məqaləsi, 1 tezisi çap olunubdur. 2006 və 2008-ci illərdə İctimai Psixoloji Mərkəzdə yaşlılarla psixolog-volontor kimi iştirak edibdir. 2008-ci ildən Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında xüsusi qabiliyyət müsabiqəsində psixolog vəzifəsində çalışıbdır. 2010-2011-ci illərdə Sosial Xidmətlər təşkilatında deinstitutlaşma proqramında psixoloq kimi fəaliyyət göstərmişdir. 2010-cu ildə Bakı Dövlət Universitetinin Elektron Tədris Mərkəzində fəaliyyət göstərən tyutor kursunu müvəffəqiyyətlə bitirərək, fakültədə tyutor vəzifəsində çalışır.

**VÜSALƏ KƏRƏM qızı MUSAYEVA –** fakültənin tyutoru



V.K.Musayeva 1983-cü ildə Bakı şəhərində anadan olmuşdur. Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin Fəlsəfə ixtisası üzrə bakalavr və magistratura pilləsində təhsil alıbdır. Hal-hazırda Sosial elmlər və psi-

xologiya fakültəsinin Fəlsəfə ixtisası üzrə dissertantıdır. 2007-ci ildə Sosial elmlər və psixologiya fakültəsinin nəzdində metodist vəzifəsinə qəbul edilmişdir. 2009-cu ildə Bakı Dövlət Universitetinin Elektron Tədris Mərkəzində fəaliyyət göstərən tyutor kursunu fərqlənmə diplomu ilə bitirərək, 2010-cu ildən tyutor vəzifəsində çalışır. 1 məqalə, 3 tezisin müəllifidir. İki beynəlxalq forumun iştirakçısıdır.

**AYGÜN SƏFƏR qızı MURADOVA–** fakültənin tyutoru.



A.S.Muradova 1979-cu ildə Xankəndi şəhərində anadan olmuşdur. 2001-ci ildə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq və biblioqrafiya fakültəsini bitirmişdir. 2008-ci ildə Bakı Dövlət Universitetinin Elektron Tədris Mərkəzində fəalliyyət göstərən tyutor kursunu fərqlənmə diplomu ilə bitirmişdir. 2008-cı ildən Sosial elmlər və psixologiya fakültəsinin tyutoru vəzifəsində çalışır.

**DAXİL CAHANGİR oğlu VƏLİYEV–** fakültənin metodisti



D.C.Vəliyev 1980-ci ildə Ermənistan Respublikasının Basarkeçər rayonunda anadan olmuşdur. 2003-cu ildə BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin fəlsəfə ixtisası üzrə bakalavr pilləsini, 2005-ci ildə Sosial fəlsəfə ixtisası üzrə magistratura pilləsini bitirmişdir. 2006-cı ildən BDU-da çalışır. 2005-ci ildən qiyabi aspirpantdır. "Əli Şəriətinin dini-fəlsəfi görüşləri" mövzusunda dissertasiya işini bitirmişdir. 2007-ci ildən fakültənin metodisti vəzifəsində çalışır.

**AYTƏN AĞAVERDİ qızı ƏLİYEVA**– fakültənin iş icraçısı.



1976-cı ildə Bakı şəhərində anadan olmuşdur. 1998-ci ildə 2 saylı Tibb Texnikumunda təhsil almışdır. 2006-cı ildən BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin iş icraçısı vəzifəsində çalışır.



**Fakültənin elmi-metodik şurası** fakültədə çalışan müəllimlərin elmi və tədris-metodiki işlərini nizamlayan strukturlardan biridir. Onun fəaliyyəti əvvəlcədən işlənib hazırlaniış plana əsaslanır. Nəzərdə tutulmuş tədris - metodik iş planlarının yerinə yetirilməsində, tədrisin keyfiyyət və səmərəliliyinin artırılmasında, tədris sənədlərinin sahmana salınmasında, elmi-metodik şura mühüm rol oynayır. Son dövrdə fakültədə bu istiqamətdə müəyyən işlər görülmüşdür: müntəzəm olaraq təqvim – tematik planlar yoxlanılır, tədris proqramlarının və dərs vəsaitlərinin hazırlanması işinin sürətləndirilməsinə nəzarət edilir, açıq dərslər keçirilir. Cari ildən etibarən doktorantların mövzularının seçilməsində də elmi – metodik şura yaxından iştirak edir. Fakültə elmi metodik şurasının sədri, Pedaqogika kafedrasının professoru Ləzifə Nağı qızı Qasımovadır.



**Fakültənin həmkarlar təşkilatı** öz fəaliyyətini əmək qanunvericiliyinin tələblərinə əməl olunması, iş şəraitinin yaxşılaşdırılması və əmək intizamının möhkəmləndirilməsi istiqamətində təşkil edir. Fakültə həmkarlar təşkilatı fakültə əməkdaşlarına maddi yardım göstərilməsində, müəllimlərin müalicə və istirahəti məqsədi ilə göndərişlərlə təmin olunmasında yaxından iştirak edir. Fakültə həm-

karlar təşkilatının sədri, Sosiologiya kafedrasının dosenti Hörmət Qəmbərəli qızı Cavadovadır.



**Fakültə tələbə gənclər təşkilatı**nın əsas məqsədi tələbələrin asudə vaxtının səmərəli təşkil olunması, respublika daxilində və xaricində keçirilən müsabiqələrdə, olimpiadalarda, sərgilərdə və festifallarda istedadlı və yaradıcı tələbələrin iştirakının təmin edilməsidir. Riyad Arif oğlu Rüstəmli fakültə tələbə gənclər təşkilatının sədri, Zəfər İlham oğlu Məmmədov, Aysel Eynulla qızı Lazımbəyli, Təhminə Fuad qızı Məmmədova, Ayğün Salman qızı Şirinova sədr müavinləridir.



**Fakültə tələbə həmkarlar təşkilatı** öz fəaliyyətində tələbələrin hüquqlarının, onların universitetin ictimai həyatında iştirakının təmin edilməsi, imkansız tələbələrə yardım olunması kimi vəzifələri uğurla yerinə yetirir. Məhəmməd Həsənxan oğlu Osmanov fakültə azad tələbə həmkarlar ittifaqının sədri, Turan Aydın oğlu Babazadə və Zülfüqar Nuruş oğlu Nuriyev sədr müavinləridir.



**Tələbə elmi cəmiyyəti:** Fakültənin tələbə elmi cəmiyyəti öz işini xeyli canlandıra bilmişdir. Tələbələrin elmi işə cəlb olunması xeyli intensivləşmişdir. Nəticədə tələbə elmi cəmiyyətinin üzvləri xüsusi bülleten buraxır və burada ən aktual məsələlərin işıqlandırıl-

masına səy göstərirlər. Bundan əlavə, tələbə elmi cəmiyyəti xətti ilə keçirilən tədbirlərdə tələbələr elmi yaradıcılığa həvəsləndirilir, onların dünyagörüşünün inkişaf etdirilməsinə, öz fikirlərinin sərbəst və aydın ifadə edilməsinə şərait yaradılır, digər universitetlərdə təhsil alan tələbələrlə dəyirmi masa ətrafında görüşlər, müzakirələr təşkil edilir, müxtəlif intellektual oyunlar keçirilir. Fərhad Elxan oğlu Vahidzadə fakültə tələbə elmi cəmiyyətinin sədri, Rüfət Eldar oğlu Qüdrətli, Ay Sənəm Oruc qızı Müslümova və Aydan Mahir qızı Xasməmmədzadə sədr müavinləridir.

Fakültə tələbə gənclər təşkilatının, tələbə həmkarlar təşkilatının və tələbə elmi cəmiyyətinin üzvləri bir – biri ilə qarşılıqla əməkdaşlıq şəraitində fəaliyyət göstərərək, fakültənin bütün tələbələrini öz ətraflarında sıx birləşdirmişlər.



Fakültə tələbələri ümummilli leder Heydər Əliyevin
həyat və fəaliyyətini əks etdirən guşədə

# FAKÜLTƏNİN KAFEDRALARI

Hazırda fakültədə 8 kafedra fəaliyyət göstərir. Onların fəaliyyətində tədris-metodiki işin təşkili və təkmilləşdirilməsi, elmi tədqiqatların aparılması, elmi-pedaqoji kadrların hazırlanması, ictimai-tərbiyəvi xarakterli tədbirlərin keçirilməsi mühüm yer tutur. Ayrı-ayrı kafedraların qısa xarakteristikası onların haqqında aydın təsəvvür yaradır:

# FƏLSƏFƏ KAFEDRASI



Universitetdə fəlsəfə kafedrası 1945-ci ildə yaradılmışdır. Burada respublikanın görkəmli alimlərindən akademik A.O.Makovelski, akademik H.N.Hüseynov, professor M.M.Qasımov işləmişlər. 1976-cı ildən Fəlsəfə kafedrası dialektik materializm və tarixi materializm kafedraları kimi fəaliyyət göstərmişdir. 1988-ci ildə təbiət və humanitar fakültələrin spesifikası nəzərə alınaraq, dialektik materializm kafedrasının bazasında Təbiət fakültələri üzrə fəlsəfə kafedrası, tarixi materializm kafedrasının bazasında isə Humanitar fakültələr üzrə fəlsəfə kafedrası təşkil edilmişdir. 1988-ci ildən müstəqil kafedra kimi fəaliyyət göstərən Təbiət fakültələri üzrə fəlsəfə kafedrasının müdiri, fəlsəfə elmləri doktoru, əməkdar elm xadimi, akademik Fuad Feyzulla oğlu Qasımzadə olmuşdur.

F.F.Qasımzadə 1929-cı ildə Bakı şəhərində anadan olmuşdur. O, 1952-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix



fakültəsi nəzdindəki fəlsəfə şöbəsini fərqlənmə diplomu ilə bitirmiş və aspiranturada saxlanılmışdır. 1955-ci ildə “Müharibələr haqqında marksizm təlimi” mövzusunda namizədlik, 1966-cı ildə isə “Fizulinin dünyagörüşü” mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1966-cı ildən fəlsəfə elmləri üzrə Dissertasiya Şurasına rəhbərlik etmişdir. Bu müddət ərzində burada çoxlu sayda doktorluq, 250-dən çox namizədlik dissertasiyası müdafiə olunmuşdur.

Akademik F.F. Qasımzadə 12 nəfər elmlər doktoru, 109 nəfər elmlər namizədi yetişdirmişdir. Onun yetişdirmələri sırasında müxtəlif ölkə vətəndaşları olmuşdur.

Fuad Qasımzadə 3 dərsliyin, 15 monoqrafiyanın, 350 məqalənin, 600-dən artıq publisist məqalənin müəllifi, 30-dan çox kollektiv əsərin həmmüəlliflərindən biridir. Bunlar Azərbaycandan başqa bir çox xarici ölkələrdə də çap olunmuşdur. Onun xidmətləri keçmiş SSRİ-nin orden və medalları ilə, habelə müxtəlif Fəxri fərmanlarla qeyd olunub. 1989-cu ildə AMEA-nın müxbir üzvü, 2001-ci ildə isə həqiqi üzvü seçilmişdir. 1979-cu ildə ona “Əməkdar elm xadimi” fəxri adı verilib, 2000-ci ildə “Şöhrət” ordeni ilə təltif olunubdur. 1990-1995-ci illərdə Ali Sovetin (Milli Məclisin) və dəfələrlə Bakı Sovetinin deputatı olubdur. Dəfələrlə rəsmi Dövlət komissiyalarının üzvü kimi fəaliyyət göstərmiş, uzun müddət fəlsəfə kafedrasına rəhbərlik etmişdir. Azərbaycan fəlsəfə və ictimai fikir tarixi, sosial fəlsəfə, ontologiya və idrak nəzəriyyəsi, estetika üzrə elmi tədqiqat işləri aparmışdır. 2009-cu ildə BDU-nun 90 illik yubileyi ilə əlaqədar təhsil və elm sahəsində uğurlarına görə “İstiqlal” ordeninə layiq görülmüşdür. 2010-cu ildə dünyasını dəyişmişdir. Onun xatirəsi həmişə hörmətlə yad edilir.

2011-ci ildə təbiət fakültələri üzrə fəlsəfə kafedrası və humanitar fakültələr üzrə fəlsəfə kafedrası birləşdirilərək fəlsəfə kafedrası kimi fəaliyyət göstərməyə başlamışdır. Bu kafedraya fəlsəfə elmləri doktoru, professor Həmid Rza oğlu İmanov rəhbərlik edir.

Hal-hazırda kafedrada 7 nəfər professor (Həmid Rza oğlu İmanov, Fərman Qəhrəman oğlu İsmayılov, Vahid Məcid oğlu Kərimov, Əziz Bəşir oğlu Məmmədov, Zeynəddin Camal oğlu Hacıyev, Fikrət Məmməd oğlu Əfəndiyev, Bəhruz Seyfəddin oğlu Qəndilov), 11 nəfər dosent (Arif İslam oğlu Tağıyev, Hüseyn Qaraxan oğlu Məmmədov, Gülnarə Kamran qızı Qasımova, Rəcəb Məqsəd oğlu Səttarov, Zümrüd Kəraməddin qızı Beydulova, Bilal Xudabaxış oğlu Əlizadə, Pərvin Əhməd qızı Həsənova, Elmira Əli qəzı Əhmədova, Aybala Firudin qızı Namazova, İslam Əhməd ağa oğlu İslamov, Kəmalə Həsən qızı Pənahova), 3 nəfər baş müəllim (Azər Muxtar oğlu Allahverdiyev, Gülnarə Yusif qızı Yusifova, Nərminə Eldar qızı Mikayılova), 2 nəfər müəllim (Nəzakət İsfəndiyar qızı Kərimova, Oqtay Hüseyn oğlu Hüseynli), 1 nəfər kabinet müdiri (Ruxsarə Muxtar qızı Səmədova), 3 nəfər metodist (İbadət Aslan oğlu İbrahimov, Zeynəb Gülverdi qızı Paşayeva, Vəfa Zəkrulla qızı Alimova) vəzifəsində çalışır.

Geniş fəaliyyət istiqamətlərinə malik bu kafedra BDU-nun bütün fakültələrində fəlsəfə fənnini tədris edir, eyni zamanda Sosial elmlər və psixologiya fakültəsində fəlsəfə ixtisası üzrə kadr hazırlığı ilə məşğul olur, fəlsəfə fənninin tələbələrə mənimsədilməsində mühüm rol oynayır.

## KAFEDRANIN ƏMƏKDAŞLARI HAQQINDA QISA BİBLİOQRAFİK MƏLUMAT

**HƏMİD RZA oğlı İMANOV** – Fəlsəfə elmləri doktoru, professor, əməkdar elm xadimi, fəlsəfə kafedrasının müdiri.

H.R.İmanov 1932-ci ildə Gədəbəy rayonunda anadan olmuşdur. 1948-ci ildə orta məktəbi bitirdikdən sonra BDU-nun Tarix fakültəsinin fəlsəfə şöbəsinə daxil olmuşdur. 1953-cü ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. Həmin il AMEA-nın Fəlsəfə bölməsində aspiranturaya qəbul olunmuş, 1956-1958-ci illərdə həmin bömədə kiçik elmi işçi vəzifəsində çalışmışdır. 1958-ci ildə “Kolxozçu – kəndli sinfinin sosial simasının dəyişilməsi” mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. Həmin ildə BDU-

nun fəlsəfə kafedrasında dosent vəzifəsini tutmuşdur. 1971-ci ildə isə "Kommunizm quruculuğu dövründə Azərbaycanın sosial-sinfi strukturunun dəyişməsi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1976-cı ildən kafedra müdiri vəzifəsində çalışır.

H.R.İmanov "Dünya sosializm sistemi", "Azərbaycan kəndinin mənəvi simasının dəyişilməsi", "Kommunist ictimai münasibətlərinin formalaşması", "İnkişaf etmiş sosializm cəmiyyətinin sosial-sinfi strukturu", "Məntiq", "Orta əsr İslam şərqində fəlsəfi fikir", "Etnik və dünya dinləri", "Xalq kütlələrinin və şəxsiyyətin tarixdə rolu", "Fəlsəfə", "Fəlsəfənin əsasları", "Orta əsrlərdə ərəb-müsəlman fəlsəfi fikri" adlı əsərlərin müəllifidir. Onun 2011-ci ildə Almaniyada "Orta əsrdə islam şərqində fəlsəfi fikir" adlı kitabı nəşr olunmuşdur.

Uzun illər ərzindəki elmi-pedaqoji fəaliyyətinə görə professor H.R.İmanov ÜİLKGİ-nin və Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin Fəxri fərmanları, SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin "İşdəki yüksək nailiyyətlərinə görə" döş nişanı ilə, SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin gümüş və bürünc medalları ilə, nəhayət, Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin fərmanı ilə "Şöhrət" ordeni ilə təltif edilmişdir. "Əməkdar elm xadimi" adına layiq görülmüşdür. (Kitab nəşr edilərkən professor Həmid İmanov qəflətən vəfat etmişdir. Allah ona rəhmət eləsin.)

**FƏRMAN QƏHRƏMAN oğlu İSMAYILOV** – fəlsəfə elmləri doktoru, professor.

F.Q.İsmayılov 1936-cı ildə Şəki rayonunda anadan olmuşdur. 1956-cı M.F.Axundov adına Dillər İnstitutunun ingilis dili fakültəsinə daxil olmuş, 1962-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1962-1966– ci illərdə İngilis dili kafedrasında müəllim, baş müəllim işləmişdir. 1970-1974-ci illərdə M.F.Axundov adına Dillər İnstitutunun fəlsəfə kafedrasında dosent vəzifəsində çalışmış, partiya işində işləmiş, iki dəfə Nəsimi rayon sovetinə deputat seçilmişdir. 1970-cı ildə "Adi dil və fəlsəfə" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.1974-1976-ci illərdə baş elmi işçi kimi Moskvaya ezam edilmişdir. 1977-1991-ci illərdə BDU-nun fəlsəfə kafedrasında

dosent vəzifəsində çalışmışdır. 1991-2001-ci illərdə BDU-nun Şəki filialının direktoru işləmişdir. 1996-cı ildə "İdrak nəzəriyyəsi və linqvistik analiz" movzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1997-ci ildən professordur. Hal-hazırda da həmin vəzifədə çalışır, 14 monoqrafiyanın, 30 məqalənin müəllifidir. 2011-ci ildə onun altı cildlik "Seçilmiş əsərləri" nəşr olunmuşdur.

**VAHİD MƏCİD oğlu KƏRİMOV –** fəlsəfə elmləri doktoru, professor.

V.M.Kərimov 1933-cü ildə Ağdaş şəhərində anadan olmuşdur. 1950-1955-ci illərdə BDU-nun tarix fakültəsinin fəlsəfə şöbəsini bitirmişdir. 1963-cü ildə "Fiziki idealizmin Lenin tənqidinin müasir fizikada idealizmə qarşı mübarizədə əhəmiyyəti" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, 1976-cı ildə "Materiyanın Lenin konsepsiyası və müasir fizikanın bəzi fəlsəfi problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1955-1959-cu illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda işləmişdir. 1959-cu ildən Azərbaycan Dövlət Universitetinin fəlsəfə kafedrasında müəllim vəzifəsində işləməyə başlamışdır. 1981-ci ildən bu günə qədər fəlsəfə kafedrasında professor vəzifəsində işləyir. 12 kitab və 100-ə yaxın məqalənin müəllifidir. 4 elmlər namizədi və 1 elmlər doktoru yetişdirmişdir.

**ƏZİZ BƏŞİR oğlu MƏMMƏDOV –** fəlsəfə elmləri doktoru, professor.

Ə.B.Məmmədov 1938-ci ildə Şamaxı şəhərində anadan olmuşdur. 1955-ci ildə ADU-nun fizika fakültəsinə qəbul olmuş, 1960-cı ildə oranı bitirmişdir. 1962-1965-ci illərdə BDU-nun fəlsəfə kafedrasında aspiranturanın əyani şöbəsində təhsilini davam etdirmişdir. 1967-ci ildə "Dialektik materializm və müasir fizikada məkan-zaman problemi" mövzusunda namizədlik dissertasiyası, 1994-cü ildə isə "Dialektik idrak və ümumi elmi tədqiqat metodları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1965-ci ildən fəlsəfə kafedrasının müəllim vəzifəsində çalışır, Hal-hazırda kafedranın professorudur. O, Rusiya Fəlsəfə cəmiyyətinin üzvüdür,

bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla sıx əlaqə saxlayır. 250 elmi məqalə və 35 kitab, monoqrafiya müəllifidir. Xarici jurnallarda 20 məqaləsi dərc olunubdur.

**ZEYNƏDDİN CAMAL oğlu HACIYEV** – fəlsəfə elmləri doktoru, professor.

Z.C.Hacıyev 1941-ci ildə Balakən rayonunun Tülü kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra, 1958-1960-cı illərdə kolxozda sıravi kolxozçu işləmişdir. 1960-cı ildə ADU-nun tarix fakültəsinə qəbul olunmuş, 1965-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1965-1969-cu illərdə ADU-nun Fəlsəfə kafedrasında əyani aspirant olmuşdur. 1966-cı ildə ordu sıralarında qulluq etmişdir. 1969-cu ildə "Siyasət ilə əxlaqın qarşılıqlı münasibətləri" mövzusunda namizədlik, 1993-cü ildə "Elmi-texniki tərəqqi ilə sosial dəyişikliklərin dialektikası" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1969-1981-ci illərdə ADU-da müəllim, baş müəllim və dosent vəzifələrində işləmişdir. 1982-1987-ci illərdə Kirovabadda (indiki Gəncə) Azərbaycan Texnologiya İnstitutunda Fəlsəfə kafedrasının müdiri olmuşdur. 1988-ci ildən hal-hazıra qədər BDU-da fəlsəfə kafedrasında çalışır. Fəlsəfə elmləri üzrə 5 namizədlik dissertasiyasına elmi rəhbər olmuşdur. 4 dərsliyin, 4 monoqrafiyanın, 40 məqalənin müəllifidir.

**FİKRƏT MƏMMƏD oğlu ƏFƏNDİYEV–** fəlsəfə elmləri doktoru, professor.

Fikrət Məmməd oğlu Əfəndiyev 1945-ci ildə Bakı şəhərində anadan olmuşdur. Bakı Dövlət Universitetinin fizika fakültəsini bitirdikdən sonra, SSRİ Elmlər Akademiyasının Fəlsəfə İnstitutunda aspirant olmuş və 1972-ci ildə namizədlik dissertasiyası müdafiə etmişdir. 1986-cı ildə həmin İnstitutda "Müasir elmdə elementarizm konsepsiyası (cisim, hadisə, təzahür, vəziyyət, müsbət, proses)" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək fəlsəfə elmləri doktoru alimlik dərəcəsi almışdır.1989-cu ildən professordur. Dörd ümumdünya fəlsəfə konqresinin iştirakçısı olmuşdur. 6 monoqrafiyanın və 160-dan çox elmi məqalə və tezisin müəllifidir.

90 məqaləsi xarici ölkələrdə çap olunmuşdur. 2010-cu ildən Bakı Dövlət Universitetinin Fəlsəfə kafedrasının professorudur.

**BƏHRUZ SEYFƏDDIN oğlu QƏNDILOV –** fəlsəfə elmləri doktoru, professor.

B.S.Qəndilov 1958-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1975-ci ildə orta məktəbi bitirərək Moskva şəhərindəki Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun iqtisadiyyat fakültəsində təhsil almışdır. 1979-1981-ci illərdə ordu sıralarında xidmət etmişdir. Bəhruz Seyfəddin oğlu Qəndilov 1982-1985-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun "Sosial fəlsəfə" ixtisası üzrə əyani aspiranturasını bitirərək 1985-ci ildə namizədlik dissertasiyası müdafiə etmişdir. O, eyni zamanda geniş ictimai-siyasi fəaliyyətlə məşğul olmuş, müxtəlif vaxtlarda Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiya üzvü, Azərbaycan Respublikasının Milli Məclisinin deputatı olmuşdur. Hal-hazırda Bakı Dövlət Universitetinin fəlsəfə kafedrasının professoru vəzifəsini icra edir. 2008-ci ildə "Tarixi prosesin obyektiv və subyektiv əsasları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1 monoqrafiyanın, 52 elmi məqalənin (onlardan altısı xarici ölkələrdə çap olunubdur), 4 elmi-metodiki xarakterli vəsaitin, 2 tədris proqramının müəllifidir.

**ARİF İSLAM oğlu TAĞIYEV** – fəlsəfə elmləri namizədi, dosent.

A.İ.Tağıyev 1940-cı ildə Ordubad rayonunda anadan olmuşdur. 1958-ci ildə orta məktəbi bitirib, Bakı şəhərində Kənd Təsərrüfatı Texnikumuna daxil olmuş və oranı fərqlənmə diplomu ilə bitirdikdən sonra Bakı Dövlət Universitetinin (o zaman ADU adlanırdı) biologiya fakültəsinə daxil olmuşdur. 1970-ci ildə o, fakültəni əla qiymətlərlə bitirmişdir.1971-ci ildə BDU-nun fəlsəfə kafedrasının dissertantı olmuş. 1975-ci ildə "Dialektik inkişaf prinsipi və müasir biologiyada nəzəri sintez" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1971-ci ildən fəlsəfə kafedrasında kabinet müdiri, 1973-cü ildən müəllim, 1975-ci ildən 1978-ci ilədək baş müəllim, 1978-ci

ildən indiyədək həmin kafedrada dosent işləyir. 7 monoqrafiyanın, 1 dərsliyin, 40-a yaxın elmi məqalənin müəllifidir. Bundan əlavə, A. Tağıyev Platonun "Dövlət", Aristotelin "Politika" və "Metafizika", Hegelin "Ruh fəlsəfəsi", "Məntiq elmi" və "Hüquq fəlsəfəsi" əsərlərini Azərbaycan dilinə çevirərək, nəşr etdirmişdir.

**HÜSEYN QARAXAN oğlu MƏMMƏDOV –** fəlsəfə elmləri namizədi, dosent.

H.Q.Məmmədov 1959-cu ildə Saatlı rayonunda anadan olmuşdur. 1977-ci ildə ADU-nun Tarix fakultəsinə daxil olmuş, 1982-ci ildə oranı bitirmişdir. 1983-1986-cı illərdə ADU-nun tarix materializm kafedrasının əyani aspirantı olmuşdur. 1987-ci ildən ADU-da çalışır, 1987-ci ildə "Sosial eksperiment və onun idrakda rolu" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 3 nəfər elmlər namizədinin elmi rəhbəri olmuşdur. 35 elmi məqalənin müəllifidir.

**GÜLNARƏ KAMRAN qızı QASIMOVA –** fəlsəfə elmləri namizədi, dosent.

G.K.Qasımova 1951-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1975-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını fərqlənmə diplomu ilə bitirmişdir. 1977-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin fəlsəfə fakültəsinin aspiranturasına daxil olmuşdur. 1982-ci ildə MDU-da "İfaçılıq sənətinin fəlsəfi-estetik problemləri" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1981-ci ildən Azərbaycan Dövlət Universitetinin etika və estetika kafedrasında müəllim, 1984-cü ildən baş müəllim, 1996-cı ildən indiyə qədər fəlsəfə kafedrasında dosent vəzifəsində işləyir. 1 monoqrafiyanın, 80-ə yaxın elmi məqalənin müəllifidir.

**RƏCƏB MƏQSƏD oğlu SƏTTAROV –** fəlsəfə elmləri namizədi, dosent.

R.M.Səttarov 1957-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1979-cu ildə Moskva Dövlət Universitetinin fəlsəfə fakültəsini bitirmişdir. 1981-ci ildə Azərbaycan Dövlət Universitetinin fəlsə-

fə ixtisası üzrə aspiranturasına daxil olmuş, 1985-ci ildə "İctimai şüurun ahəngdar inkişafının sosial və qnoseoloji əsasları" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.1979-cu ildə Azərbaycan İnşaat Mühəndislər İnstitutunun fəlsəfə kafedrasında müəllim vəzifəsində işə başlamışdı. 1985-ci ildə Bakı Dövlət Universitetinin humanitar fakültələr üzrə fəlsəfə kafedrasının baş müəllimi seçilmişdir. 2002-ci ildən Sosial Tədqiqatlar üzrə Beynəlxalq Mərkəzin müdiridir. Fəlsəfə elmləri üzrə 5 namizədlik dissertasiyasına elmi rəhbər olmuşdur. Çoxlu sayda beynəlxalq konfrans və simpozimlarda iştirak etmişdir. 1 broşuranın, 35 məqalənin, 1 metodik vəsaitin müəllifidir.

**ZÜMRÜD KƏRAMƏDDİN qızı BEYDULOVA –** fəlsəfə elmləri namizədi, dosent.

Z.K.Beydulova 1953-cü ildə Şəki şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1970-1974-cü illər ərzində müxtəlif idarələrdə çalışmışdır. 1971-ci ildə BDU-nun biologiya fakültəsinə qəbul olunmuş və 1978-ci ildə oranı bitirmişdir. 1981-1983-cü illərdə Bakı Kardioloji İnstitutunda işləmişdir. 1983-cü ildən BDU-nun tarixi materializm kafedrasının aspirantı olmuş, 1987-ci ildə namizədlik dissertasiyası müdafiə etmişdir. Həmin ildə bir neçə ay Sosioloji tədqiqatlar laboratoriyasında kiçik elmi işçi vəzifəsində çalışdıqdan sonra, Humanitar fakultələlər üzrə fəlsəfə kafedrasında müəllim vəzifəsinə qəbul olunmuşdur. Hal-hazırda fəlsəfə kafedrasında dosent vəzifəsində işləyir. 40-a yaxın elmi məqalənin, 4 metodik vəsaitin və 2 proqramın müəllifidir.

**BİLAL XUDABAXIŞ oğlu ƏLİZADƏ –** fəlsəfə elmləri namizədi, dosent.

B.X.Əlizadə 1958-ci ildə Cəlilabad rayonu Allar kəndində anadan olmuşdur. 1980-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix fakültəsini bitirmişdir.

1980-1987-ci illərdə Cəlilabad rayonundakı Allar kənd orta məktəbində tarix müəllimi işləmişdir. 1987-1990-cı illərdə BDU-nun aspirantı olmuşdur. 1990-cı ildə "İstehsal kollektivinin peşə-ixtisas

strukturunun təkmilləşdirilməsinin ziddiyyətləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Həmin ildən BDU-nun fəlsəfə kafedrasında işləyir. 15-ə yaxın elmi məqalənin, 2 metodik vəsaitin, 2 tədris proqramının müəllifidir. "Tarixi prosesin fəlsəfi təhlili" mövzusunda doktorluq dissertasiyası üzərində çalışır.

**PƏRVİN ƏHMƏD qızı HƏSƏNOVA –** fəlsəfə elmləri namizədi, dosent.

P.Ə.Həsənova 1939– cu ildə Şəki şəhərində anadan olmuşdur. 1963-cü ildə BDU-nun Kitabxanaçılıq fakültəsini bitirmişdir. 1966-cı ildən ADU-da çalışır. 1975-1978-ci illərdə BDU-nun "Estetika və etika" kafedrasında aspiranturanın əyani şöbəsində təhsil almışdır. 1978-ci ildən 1981-dək "Estetika və etika" kafedrasında baş laborant işləmişdir. 1986-cı ildə "Sosializm realizmi incəsənətində xəlqilik və partiyalılıq problemi" mövzusunda dissertasiya müdafiə etmişdir. 1981-ci ildə "Estetika və etika" kafedrasında baş müəllim, 1996-cı ildən bu gunə qədər fəlsəfə kafedrasında dosent vəzifəsində çalışır. 20 məqalənin, 2 metodiki vəsaitin müəllifidir.

**ELMİRA ƏLİ qızı ƏHMƏDOVA –** fəlsəfə elmləri namizədi, dosent.

E.Ə.Əhmədova 1939-cu ildə Kürdəmir rayonunda anadan olmuşdur. 1968-ci ildə ADU-nun tarix fakültəsini bitirmişdir. 1988-ci ildə "Sosializmin inkişafı prosesində Sovet qadının sosial fəallığının yüksəlməsi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1976-cı ildən Fəlsəfə kafedrasında kabinə müdiri, 1982-ci ildən isə müəllim vəzifəsində işləyir. Hal-hazırda dosent vəzifəsində çalışır. 2 metodik vəsaitin, 3 proqramın, 30 məqalənin müəllifidir.

**AYBALA FİRUDDIN qızı NAMAZOVA –** fəlsəfə elmləri namizədi, dosent.

A.F.Namazova 1952-ci ildə Gəncə şəhərində anadan olmuşdur. 1969-1974-cü illərdə – Kabardin-Balkar Dövlət Universitetinin Mühəndis Texniki fakültəsini bitirmişdir. 1974-1978-ci illərdə – Qorki adına Ədəbiyyat Institutunun Poeziya və Ədəbi tənqid fak-

ültəsini bitirmişdir. 1981-1987-ci illərdə BDU-nun Rus Dili və Ədəbiyyat fakültəsini bitirmişdir. 1997-ci ildə “K.Kuliyevin poeziyasında etika məsələsi” mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1991-ci ildə Azərbaycan Radio-Televiziya Komitəsində redaktor işləmişdir. 1991-2002-ci illərdə Baki Sosial İdarəetmə və Politologiya İnstitutunda baş müəllim işləmişdir. 2002–ci ildən BDU-nun fəlsəfə kafedrasında işləyir. 3 kitabçanın, 1 metodik vəsaitin, 1 programın, çoxlu sayda məqalənin müəllifidir.

**İSLAM ƏHMƏDAĞA oğlu İSLAMOV –** fəlsəfə elmləri namizədi, dosent.

İ.Ə. İslamov 1963-cu ildə Saatlı rayonunun Mollavaizli kəndində anadan olmuşdur, 1979-cu ildə Gəncə Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuş, 1983-cu ildə oranı bitirmişdir. 1983-cu ildə Saatlı rayonunun 2 sayli orta məktəbində tarix müəllimi işləmişdir. 1983-1985-ci illərdə ordu sıralarında həqiqi hərbi xidmətdə olmuş, 1986-1988-ci illərdə Bakı Dövlət Universitetinin Humanitar fakültələr üzrə fəlsəfə kafedrasının dissertantı olmuş, 1988-ci ildə “Şəxsiyyətin tələbatlarinin yüksəlməsi və sərvət yönümlərinin formalaşması” mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1989-cu ildən Bakı Dövlət Universitetində çalışır. 1 monoqrafiyanın, 2 metodik vəsaitin, 20-ə yaxın məqalənin müəllifidir.

**KƏMALƏ HƏSƏN qızı PƏNAHOVA –** fəlsəfə elmləri namizədi, dosent.

K.H.Pənahova 1962-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1979-cü ildə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə daxil olmuşdur. 1984-cü ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1984-1992-ci illərdə AMEA-nın Əlyazmalar İnstitutunda işləmişdir. 1992-ci ildən Bakı Dövlət Universitetində Humanitar fakültələr üzrə fəlsəfə kafedrasında işləyir. 2001-ci ildə “Əsirəddin Əbhərinin fəlsəfi görüşləri” mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Hal-hazırda dosent vəzifəsində çalışır. 22 elmi məqalənin, 14 tezisin, 1 metodik vəsaitin müəllifi, 2 fənn proqramının tərtibatçısıdır.

**AZƏR MUXTAR oğlu ALLAHVERDİYEV –** Fəlsəfə kafedrasının baş müəllimi.

A.M.Allahverdiyev 1958-ci ildə Ağdam rayonunun Qaradağlı kəndində anadan olmuşdur. 1980-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin fəlsəfə fakültəsini bitirmiş və həmin ildən Bakı Dövlət Universitetində işləyir. “Məntiq”, “Arqumentasiya nəzəriyəsi” fənlərini tədris edir və bu elm sahələri üzrə elmi-tədqiqat işi aparır. Sosial elmlər və psixologiya fakültəsinin elmi şurasının elmi katibidir. 2 metodik vəsaitin, 20-yə qədər elmi məqalə və tezisin müəllifidir. Bir neçə beynəlxalq konfransda iştirak etmişdir.

**GÜLNARƏ YUSİF qızı YUSİFOVA –** fəlsəfə elmləri namizədi, baş müəllim.

G.Y.Yusifova 1965-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1988-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. 1995-ci ildə “Kütləvi şüurun sosial-tarixi təbiəti” mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1988-ci ildən indəyədək Bakı Dövlət Universitetində çalışır. Hal-hazırda fəlsəfə kafedrasında baş müəllim vəzifəsində işləyir. 15-ə yaxın məqalənin, 1 dərsliyin, 1 metodik vəsaitin müəllifidir.

**NƏRMİNƏ ELDAR qızı MİKAYILOVA –** fəlsəfə elmləri namizədi, baş müəllim.

N.E.Mikayılova 1959-cu ildə Bakı şəhərində anadan olmuşdur. 1977-ci ildə Bül-Bül adına orta musiqi ixtisas məktəbini bitirmişdir. 1977-1982-ci illərdə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında təhsil almışdır. 1985-1993-cü illərdə Azərbaycan Dövlət Konservatoriyasında işləmişdir. 1987-ci ildə AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun “Etika və estetika” şöbəsinin dissertantı olmuşdur. 1994-cü ildə “Estetik tələbat və incəsənət” mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1993-1997-ci illərdə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda əvvəl “Mədəniyyətşünaslıq”, sonra “Sosiologiya” kafedrasında baş müəllim işləmişdir. 1997-ci ildən Bakı Dövlət

Universitetinin "Fəlsəfə" kafedrasında baş müəllim işləyir. 20-yə qədər məqalənin müəllifidir.

**NƏZAKƏT İSFƏNDİYAR qızı KƏRİMOVA –** fəlsəfə elmləri namizədi, müəllim.

N.İ.Kərimova 1972-ci ildə Bərdə şəhərində anadan olmuşdur. 1993-cü ildə Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin Fəlsəfə ixtisasına daxil olmuş, 1997-ci ildə bakalavr pilləsini, 1999-cu ildə isə magistratura pilləsini fərqlənmə diplomu ilə bitirmişdir. 1999-cu ildə Fəlsəfə kafedrasında müəllim vəzifəsində çalışır. 2010-cu ildə "Azərbaycanda ekoloji vəziyyət və onun sosial nəticələri" mövzusunda namizədlik dissertasiyanı müdafiə etmişdir. 14 elmi məqalənin, bir metodik vəsaitin müəllifi, iki proqramın tərtibatçısıdır.

**OQTAY HÜSEYN oğlu HÜSEYNLİ –** fəlsəfə elmləri namizədi, müəllim.

O.H.Hüseynli 1972-ci ildə Gədəbəy rayonunun Şınıx kəndində anadan olmuşdur. Ali məktəbə qəbul olunana qədər müxtəlif idarələrdə işləmişdir. 1990-ci ildə Azərbaycan Politexnik İnstitutunun (İndiki Texniki Universitet) elektrotexnika fakültəsinə qəbul olmuşdur.1999-2003-cü illərdə Bakı Dövlət Universitetinin hüquq fakültəsində təhsil almış, 2004-cü ildə BDU-nun fəlsəfə kafedrasının dissertantı olmuş və 2007-ci ildə "Fəlsəfədə özgələşmə problemi" mövzusunda namizədlik dissertasiyasini müdafiə etmişdir. 2005-ci ildən BDU-nun Fəlsəfə kafedrasının müəllimidir. 1 dərsliyin, 8 məqalənin müəllifi və 1 proqramın tərtibatçısıdır. 2003-cü ildə "Qızıl qələm " media mükafatı almışdır.

**RÜXSARƏ MUXTAR qızı SƏMƏDOVA** – kabinet müdiri

1956-cı ildə Bakı şəhərində anadan olmuşdur. 1975-ci ildə Bakı Dövlət Universitetinin Kimya fakültəsinə qəbul olmuş, 1981-ci ildə oranı bitirmişdir. 1975-ci ildən Bakı Dövlət Universitetində əmək fəaliyyətinə başlamışdır.

9 elmi məqalənin müəllifidir. Hal-hazırda BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin Fəlsəfə kafedrasında kabinet müdiri vəzifəsində çalışır. Universitetin ictimai işlərində fəal iştirak edir.

**İBADƏT ASLAN oğlu İBRAHİMOV –** fəlsəfə elmləri namizədi, baş metodist.

İ.A.İbrahimov 1961-ci ildə Ağdam rayonunun Suma kəndində anadan olmuşdur. 1980-1982-ci illərdə hərbi xidmətdə olmuşdur. 1983-1988-ci illərdə Bakı Dövlət Universitetinin fizika fakültəsində təhsil almışdır. 1989-1990-cı illərdə fizika fakültəsində, 1990-1992-ci illərdə pedaqogika və psixologiya kafedrasında, 1992-ci ildən hazırkı dövrə qədər fəlsəfə kafedrasında baş laborant vəzifəsində çalışır. 2001-ci ildə "Müasir elmi idrak və insan problemi" mövzusunda dissertasiya işi müdafiə etmişdir. 1 monoqrafiyanın, 10 elmi məqalənin müəllifidir.

**ZEYNƏB GÜLVERDİ qızı PAŞAYEVA –** baş metodist.

Z.G.Paşayeva 1952-ci ildə Neftçala rayonunda anadan olmuşdur. 1971-ci ildən Bakı Dövlət Universitetində əmək fəaliyyətinə başlamışdır. 1989-cu ildə BDU-nun filologiya fakültəsini bitirmişdir. 1971-76-cı illərdə Universitetin tədris və elmi hissəsində katibə-makinaçı vəzifəsində işləmişdir. 1984-cü ildən indiyə kimi fəlsəfə kafedrasında baş laborant vəzifəsində işləyir. 2 məqalənin müəllifidir.

**VƏFA ZƏKRULLA qızı ALİMOVA –** baş metodist.

V.Z.Alimova 1981-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1988-ci ildə Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin "Sosiologiya" ixtisasına daxil olmuş, 2002-ci ildə bakalavr pilləsini, 2004-cü ildə isə magistratura pilləsini fərqlənmə diplomu ilə bitirmişdir. 8 məqalənin müəllifidir.

# FƏLSƏFƏ TARİXİ VƏ MƏDƏNİYYƏTŞÜNASLIQ KAFEDRASI



Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının əsası 1971-ci ildə qoyulmuşdur. İlk dəfə "Elmi ateizm" kafedrası yaradılmış, sonradan ona "Elmi ateizm tarixi və nəzəriyyəsi" adı verilmişdir. 1990-cı ildə bu kafedra "Fəlsəfə, din və ateizm tarixi" kafedrası adını daşımışdır. Tədris planlarına dinşünaslıq kursunun daxil edilməsi ilə əlaqədar olaraq onun adı yenidən dəyişdirilərək, "Fəlsəfə tarixi və dinşünaslıq" kafedrası adlandırılmışdır. Dinşünaslıq fənninin respublikanın ali məktəblərinin tədris planlarından çıxarılması və onun mədəniyyətşünaslıq kursu ilə əvəz edilməsi ilə əlaqədar olaraq, kafedranın adı yenidən dəyişdirilmişdir: 1997-ci ildən ona "Fəlsəfə tarixi və mədəniyyətşünaslıq" kafedrası adı verilmişdir.

Kafedra 1999-cu ilin iyunundan fakültənin tabeliyinə keçirilmişdir. Kafedraya 2007-ci ilin sonuna qədər fəlsəfə elmləri



doktoru, professor Məmmədəli Baba oğlu Zeynalov rəhbərlik etmişdir. O, 1971-ci ildə elmlər doktoru alimlik dərəcəsini almışdır. 1973-cü ildən ADU-da professor və kafedra müdiri vəzifəsində çalışmışdır. İşlədiyi müddətdə 40-a qədər dərslik, dərs vəsaiti, monoqrafiya, tədris proqramı və çoxlu məqalələri çap olunmuşdur. Professor M.Zeynalovun elmi kadrların hazırlanmasında da xüsusi xidməti olmuşdur. Onun rəhbrliyi ilə iyirmiyə qədər elmlər namizədi və elmlər doktoru hazırlanmışdır.

Məmmədəli Zeynalovun xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, “Almaniya üzərində qələbə”, “Əmək igidliyinə görə” medalları, “Xalq təhsili əlaçısı” nişanı ilə təltif olunmuş, “Şöhrət” ordeninə layiq görülmüşdür. 2007-ci ilin sonunda dünyasını dəyişmişdir. Onun xatirəsi hörmətlə yad edilir.

Kafedraya hal-hazırda fəlsəfə elmləri doktoru, professor Rəbiyyət Nurullah qızı Aslanova rəhbərlik edir. O, 1978-ci ildən ADU-da (indiki BDU) işləyir. Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasında hazırda bir nəfər professor (Rəbiyyət Nurullah qızı Aslanova), iki nəfər dosent ( Qəmər Cəfər qızı Mürşüdlü, Fidan Fərid qızı Fərəcova), bir nəfər baş müəllim (Nəriman Salman oğlu Süleymanov), üç nəfər müəllim (Ülviyyə Rizvan qızı Ağabəyova, Samirə Məlik qızı Veysova, Səbirə Ələsgər qızı Nemətzadə), iki nəfər metodist (Aynur Laçın qızı Səfərəliyeva, Sevinc Zakir qızı Misirxanova) vəzifəsində çalışır.

Qərb-Şərq, xüsusilə Azərbaycan fəlsəfi fikir tarixinin araşdırılması sahəsində diqqət çəkən uğurlar qazanmış bu kafedra öz fəaliyyət spektri etibarilə demək olar ki, bütün fakültələrdə fəlsəfə tarixi və mədəniyyətşünaslıq fənninin tədrisini həyata keçirir. Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının professor-müəllim heyəti “Şərq və Qərb xalqlarının fəlsəfi, dini və kulturoloji fikrinin inteqrasiyası” probleminə uyğun olaraq bir sıra istiqamətlərdə elmi-tədqiqat işləri aparır.

## KAFEDRANIN ƏMƏKDAŞLARI HAQQINDA QISA BİBLİOQRAFİK MƏLUMAT

**RƏBİYYƏT NURULLAH qızı ASLANOVA** – fəlsəfə elmləri doktoru, professor.

Aslanova Rəbiyyət Nurullah qızı 1951-ci ildə Kəlbəcər rayonunda anadan olmuşdur. Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirikdən sonra, 1973-1976-cı illərdə universitetin aspiranturasında oxumuş, 1977-1978-ci illərdə Bakı Dövlət Universitetində asistent olmuşdur. 1981-ci ildə namizədlik dissertasiyası müdafiə etmişdir. 1988-ci ildən baş müəllim, dosent vəzifələrində çalışmışdır. 2004-cü ildə "İslam mədəniyyət sistemində" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Həmin ildən Bakı Dövlət Universitetinin Fəlsəfə tarixi və mədənityyətşünaslıq kafedrasının professorudur. 2009-cu ildən həmin kafedraya rəhbərlik edir. Aslanova Rəbiyyət bir çox gənc alimin elmi rəhbəri olmuşdur və hazırda da gənc kadrlar onun rəhbərliyi ilə magistr, namizədlik və doktorluq dissertasiyaları müdafiə edirlər.

O, 6 kitabın, 100-ə yaxın məqalənin müəllifidir. Rəbiyyət Aslanova fəlsəfə tarixi və mədəniyyətşünaslığın müvafiq istiqamətləri sahəsində Azərbaycanda tanınmış alimlərdəndir. Onun elmi yaradıcılığının ana xəttini Qərb və Şərq mədəni ənənələrinin sintezi, bir alim və ictimai xadim, elm təşkilatçısı kimi, həm də milli mənəvi dəyərləri qiymətləndirməyi bacaran gənc nəslin təlim-tərbiyəsi təşkil edir.

Professor R. Aslanova Azərbaycan xalqının əsrlər boyu təşəkkül tapmış fəlsəfə tarixinin, islam mədəniyyətinin, yüksək milli-mənəvi dəyərlərinin qorunması, müasir dövrdə elimizin adət-ənənələrinin yaşadılması, dinlərarası və mədəniyyətlərarası dialoq məsələlərinin tədqiqində 40 ilə yaxındır ki, yorulmadan yazıb-yaratmış, çoxsaylı əsərləri ilə fəlsəfə elminin inkişafına qiymətli töhfələr vermişdir. Azərbaycan fəlsəfə və din tarixinin ayrı-ayrı dövrlərində baş vermiş hadisələr, tarixdə böyük iz qoymuş şəxsiyyətlərin parlaq simaları Rəbiyyət Aslanovanın həmişə diqqət mərkəzindədir.

"İslam və mədəniyyət", "İnsan hüquqları və müasirlik", "Qloballaşma və mədəni müxtəliflik", "XXI əsr: Yeni mədəniyyət məkanına inteqrasiya", "İslam mənəvi irsi və müasirlik", "İslam mədəniyyətinə baxış", "Yeni zaman və humanitar düşüncə mədəniyyəti", "Müasir dövlət və dövlətşünaslıq elmi" kimi əsərlərin müəllifidir. Bu əsərlər xalqın milli sərvəti olan dəyərlərin qorunması, inkişaf etdirilməsi və yeni dünyada daim təbliğ olunması kimi müasir həyatdan götürülmüş aktual mövzulara alimin münasibətini təqdim edir.

Tariximizin müxtəlif mərhələlərinin fəlsəfi-tarixi təhlili verilən bu əsərlərlə yanaşı, alimin müasir dövrdə cəmiyyət həyatının ən aktual problemlərinə, ümummilli lider Heydər Əliyevin zəngin irsinə, yeni elita, ənənə və innovasiyalara, bəşəriyyətin yeni düşüncə tərzinə keçidinə və gəncliyə həsr olunmuş çoxsaylı məqalələri Azərbaycan oxucusu tərəfindən daim rəğbətlə qarşılanır.

Onun elmi məqalələri Türkiyədə, Kanadada, Ukraynada, Rusiyada, Misirdə, İordaniyada və başqa ölkələrdə mötəbər elmi jurnallarda nəşr olunmuşdur.

R.Aslanova BDU Elmi Şurasının, Azərbaycan Fəlsəfə və Sosial Siyasi Elmlər Assosiasiyasının, Respublika Elmi Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurasının nəzdində Fəlsəfə, politologiya, sosiologiya, mədəniyyətşünaslıq və psixologiya elmləri üzrə Problem Şurasının, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin nəzdində Ekspert Şurasının, Milli Kitab Müsabiqəsinin münsiflər heyətinin üzvüdür. KİV-lərdə, televiziya verilişlərində və qəzet səhifələrində daim cəmiyyət üçün aktual olan mövzuların gündəmə gətirilməsi və müzakirəsi təşəbbüsü ilə fərqlənir.

Beynəlxalq səviyyədə Azərbaycan elmini dəfələrlə təmsil etmiş, çoxsaylı konfrans və simpoziumların iştirakçısı olmuşdur. Avrasiyanın siyasi, mədəni, iqtisadi, sosial, elmi və s. inkişaf problemləri ilə məşğul olan məşhur Türkiyə Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Mərkəzinin üzvüdür. MDB Parlamentlər- arası Assambleyasının Elm və Təhsil Komissiyasının sədr müavinidir. Türkiyənin İstanbul şəhərində Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Mərkəzinin təşkil etdiyi "Avrasiya İqtisadi Zirvəsi-2010" XIII zirvə forumunda etdiyi məruzə böyük əks-səda doğurmuşdur.

Nüfuzlu Dialoq Avrasiya Forumunun və onun nəşr etdiyi beynəlxalq jurnalın redaksiya şurasının üzvüdür. Türkiyənin, Rusiyanın, Avropanın müxtəlif universitetlərində və strateji araşdırma mərkəzlərində, ABŞ-da, Suriyada və Qazaxıstanda keçirilən çoxsaylı konfranslarda elmi məruzələrlə çıxış etmişdir.

Azərbaycanı dünyanın hesablaşdığı müstəqil, qüdrətli dövlətə çevirməyə nail olmuş bir siyasi partiyanın – Yeni Azərbaycan Partiyasının üzvüdür. 109 saylı Balakən seçki dairəsindən ikinci və üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisin deputatı olmuşdur. Hal-hazırda Milli Məclisdə İnsan hüquqları daimi komissiyasının sədri vəzifəsində fəaliyyət göstərir.

**QƏMƏR CƏFƏR qızı MÜRŞÜDLÜ** – fəlsəfə elmləri namizədi, dosent.

Q.C.Mürşüdlü 1950-ci ildə Tovuz rayonunun Aşağıquşçu kəndində anadan olmuşdur. O, 1971-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Təhsilini Azərbaycan Dövlət Universitetinin elmi ateizm tarixi və nəzəriyyəsi kafedrası üzrə əyani aspiranturasında davam etdirmişdir. 1975-ci ildən həmin kafedrada müəllim, baş müəllim və dosent vəzifələrində işləmişdir. “C. Əfqaninin sosial-siyasi irsi və müasir dövr” mövzusunda doktorluq dissertasiyası üzərində işləyir. Elmi rəhbər və məslhətçi kimi dörd doktorantın dissertsiya işinə rəhbərlik edir. Üç kitabın (birində həmmüəllif), səkkiz fənn proqramının, əlliyə qədər elmi məqalənin müəllifidir. C. Əfqaninin bir sıra məqalələrini dilimizə tərcümə etmişdir. Çoxsaylı beynəlxalq konfrans və simpoziumda iştirak və çıxış etmişdir. Uluslararası Avrasiya Təhsil İşçiləri Federasiyası (Türkiyə) İdarə Heyətinin üzvüdür. Azad Müəllimlər Birliyi İdarə Heyətinin üzvü, “Ziya” diskussiya klubunun rəhbəridir. Çoxsaylı qrant layihələrinin hazırlanmasında və gerçəkləşməsində iştirak edir.

**FİDAN FƏRİD qızı FƏRƏCOVA** – fəlsəfə elmləri namizədi, dosent.

F.F.Fərəcova 1963-cü ildə Bakıda anadan olubdur. 1985-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin fəlsəfə

fakültəsini bitirmişdir. 1985-ci ildə Azərbaycan Dövlət Universitetinin Fəlsəfə kafedrasının baş laborantı vəzifəsinə, 1991-ci ildə Bakı Dövlət Universitetinin Fəlsəfə kafedrasının müəllimi vəzifəsinə təyin olunmuşdur. 1994-cü ildən fəaliyyətini Fəlsəfə tarixi və dinşünaslıq kafedrasında davam etdirir. 1997-ci ildə "Orta əsr Şərq fəlsəfəsində substansiya kateqoriyası haqqında təlim (islam regionu, X-XIII əsrlər)" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 2006-cı ildən "Sosiomədəni dəyərlərin gender münasibətlərinin inkişafına təsiri" adlı doktorluq dissertasiyası üzərində işləyir. Hal-hazırda kafedranın dosenti vəzifəsində çalışır. 2 dərs vəsaiti, 2 metodik vəsait, 6 tədris proqramı, 32 elmi məqalənin müəllifidir. Qərb Universitetinin nəzdindəki Gender Araşdırmaları Mərkəzinin idarə heyətinin və Azərbaycan mədəniyyətinin "Simurq" Assosiasiyasının "Qadın və gender tədqiqatları" departamentinin idarə heyətinin üzvüdür.

**NƏRİMAN SALMAN oğlu SÜLEYMANOV –** fəlsəfə elmləri namizədi, baş müəllim.

N.S.Süleymanov 1967-ci ildə İsmayıllı şəhərində anadan olmuşdur. 1990-1995-ci illərdə Bakı Dövlət Universitetinin Filologiya fakültəsində təhsil almışdır. 1995-2008-ci illərdə Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətində çalışmışdır. 2007-ci ildə "İslam mədəniyyətində sufizm" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 2007-ci ildən BDU-nun Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının baş müəllimi vəzifəsində işləyir. "Fəlsəfə tarixi", "Xarici ölkələrin fəlsəfə tarixi", "Azərbaycan fəlsəfə tarixi", "İslam mədəniyyəti tarixi və müasirlik", "Mədəniyyətşünaslıq" fənnlərini tədris edir. 2 kitabın, 5 monoqrafiyanın və 6 elmi məqalənin müəllifidir.

**ÜLVİYYƏ RİZVAN qızı AĞABƏYOVA** – Fəlsəfə elmləri namizədi, müəllim.

Ü.R.Ağabəyova1965-ci ildə Bakı şəhərində anadan olmuşdur. O, 1989-cu ildə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq (ərəb filologiyası şöbəsi) fakültəsini bitirmişdir. 1989-1992-ci illər-

də AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun əyani aspirantı olmuşdur. 1992-1998-ci illərdə AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun elmi işçisi olmuşdur. 1996-cı ildə "Yusif Qarabağinin fəlsəfi dünyagörüşü" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1999-2000-ci illərdə Bakıda Amerika Universitetində əməkdaş kimi işləmişdir. 2001-ci ildən BDU-da Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının müəllimi vəzifəsində çalışır. 16 elmi məqalənin və 4 tədris proqramının müəllifidir.

**SAMİRƏ MƏLİK qızı VEYİSOVA –** fəlsəfə elmləri namizədi, müəllim.

S.M.Veyisova 1967-ci ildə Şamaxı şəhərində anadan olmuşdur. 1992-ci ildə Kiyev Universitetinin fəlsəfə fakültəsini bitirmişdir. Eyni zamanda 1990-1993-cü illərdə Bakı Dövlət Universitetinin hüquq fakültəsində təhsilini davam etdirmişdır. 2000-ci ilin may ayında "Avestanın fəlsəfi-dünyagörüşü" adlı namizədlik dissertasiyasını müdafiə etmişdir. 1992-2002-ci illərdə Azərbaycan Dövlət Neft Akademiyasının Politologiya kafedrasında baş laborant vəzifəsində işləmişdir. 2002-ci ilin dekabr ayında Bakı Dövlət Universitetinin Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasında müəllim vəzifəsində çalışır. 17 elmi məqalənin, 2 tədris proqramının müəllifidir.

**SƏBİRƏ ƏLƏSGƏR qızı NEMƏTZADƏ –** müəllim

S.Ə.Nemətzadə 1969-cu il Bakı şəhərində anadan olmuşdur. 1998-ci ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. 2010-cu ildə "Seyid İmdadəddin Nəsiminin dünyagörüşü fəlsəfə tarixinin obyekti kimi" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 2000-ci ildən Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının müəllimidir, 1 kitabın, 19 məqalənin və 2 tədris proqramının müəllifidir.

# PSİXOLOGİYA KAFEDRASI



Psixologiya kafedrasının yaranma tarixi Azərbaycan Dövlət Universitetinin yarandığı dövrlərə təsadüf edir. Belə ki, 1920-ci ildən başlayaraq universitetdə psixologiya fənni tədris edilir. Elə həmin ilin sonundan Psixologiya kafedrası yaradılır və akademik Aleksandr Osipoviç Makovelski (1884-1969) həmin kafedranın müdiri təyin edilir. 1947-48-ci illərdə Universitetin filologiya fakültəsinin nəzdində məntiq və psixologiya şöbəsi açılır. Bu zaman psixologiya kafedrasının bazasında yeni Məntiq və psixologiya kafedrası yaradılır və akademik A.O.Makovelski həmin kafedranın müdiri seçilir. Qısa müddət fəaliyyət göstərməsinə baxmayaraq (artıq 1953-cü ildə qəbul dayandırılır), həmin şöbənin respublikada psixologiya elminin inkişafında, psixologiya üzrə mütəxəssislərin hazırlanmasında mühüm rolu olmuşdur. Bu şöbənin məzunlarının əksəriyyəti məhsuldar elmi və pedaqoji fəaliyyətlərini bu günə qədər davam etdirirlər. 1960-cı ildə akademik

A.O.Makovelskinin Elmlər Akademiyasında işə keçməsi ilə əlaqədar olaraq professor Məmmədəli Cavad oğlu Məhərrəmov (1909-1970) Məntiq və psixologiya kafedrasının müdiri seçilir.

Filologiya fakültəsinin nəzdində Məntiq və psixologiya şöbəsi bağlandıqdan sonra Universitetin Məntiq və psixologiya kafedrası ayrılır və 1960-cı ildə universitetdə Pedaqogika və psixologiya kafedrası yaradılır. 1971-ci ilə qədər həmin kafedraya professor Məmmədəli Cavad oğlu Məhərrəmov rəhbərlik etmişdir.

1971-ci ildə psixologiya elmlər doktoru, professor Əkbər Salman oğlu Bayramov pedaqogika və psixologiya kafedrasının müdiri seçilir. 1991-ci ildə pedaqogika və psixologiya kafedrası bölündükdən sonra, onlar müstəqil kafedralar kimi fəaliyyət gös tərir. Psixologiya kafedrasına 1997-ci ilə qədər əməkdar elm xadimi, professor Əkbər Salman oğlu Bayramov rəhbərlik etmişdir. Kafedranın inkişafında onun mühüm xidmətləri olmuşdur. 1997-ci ildən bu günə qədər psixologiya kafedrasına AMEA-nın müxbir üzvü, psixologiya elmləri doktoru, professor Bəxtiyar Həmzə oğlu Əliyev rəhbərlik edir. O, fəaliyyətində sələflərinin qoyduğu ənənələrə sadiq qalaraq kafedranın daha da inkişafına nail ola bilmişdir:-kafedranın elmi-pedaqoji potensialı artmış, xarici əlaqələri genişlənmiş, kafedra müəllimlərinin tədris etdikləri dərslərin və apardıqları tədqiqat işlərinin keyfiyyəti yüksəlmişdır.

Hal-hazırda kafedrada bir nəfər AMEA-nın müxbir üzvü, professor (Bəxtiyar Həmzə oğlu Əliyev), iki nəfər professor (Əkbər Salman oğlu Bayramov, Nadir Vedan oğlu İsmayılov), iki nəfər elmlər doktoru, dosent (Rəna Həmid qızı Qədirova, Elnarə İbrahim qızı Şəfiyeva), yeddi nəfər elmlər namizədi, dosent (Cəmilə Abasqulu qızı Təhmasib, Mirələm Vəli oğlu Vəliyev, İmdad Mustafa oğlu Bayramov, Taliyə Məhəmməd qızı Musayeva, Təranə Tofiq qızı Babayeva, Sevinc Ağavəli qızı Allahyarova, Aydan Firudin qızı Səməndərova), dörd nəfər elmlər namizədi, baş müəllim (Azər Məhəmməd oğlu Mustafayev, Gülər Mikayıl qızı Əhmədova, Kamilə Qinyaz qızı Kazımova, Yamən Əziz qızı Vəliyeva), iki nəfər müəllim (Svetlana İdris qızı Verdiyeva, Fidan Vaqif qızı Fətiyeva), beş nəfər metodist (Faiqə Məhəmməd qızı Nəsirova, Xatirə

Məhiyəddin qızı Musayeva, Mahirə Mirsail qızı Zeynalova, Validə İbad qızı Vəliyeva, Aida Kazım qızı Musayeva) öz elmi və pedaqoji fəaliyyətlərini davam etdirirlər.

Kafedranın əməkdaşları əksər fakültələrdə psixologiya fənnini, sosial elmlər və psixologiya fakültəsində isə ixtisas kafedrası kimi sahə psixologiyalarını tədris edir.

## KAFEDRANIN ƏMƏKDAŞLARI HAQQINDA QISA BİBLİOQRAFİK MƏLUMAT

**BƏXTİYAR HƏMZƏ oğlu ƏLİYEV** – BDU-nun psixologiya kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, psixologiya elmləri doktoru, professor.

B.H. Əliyev 1961-ci ildə Ağdam şəhərində anadan olmuşdur. 1979-cu ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin psixologiya fakültəsinə daxil olmuşdur. 1983-ci ildə həmin fakültəni bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin (indiki BDU) "Psixologiya və pedaqogika" kafedrasında təyinatla əmək fəaliyyətinə başlamışdır. 1989-cu ildə fəlsəfə sahəsində "Millətlərarası ünsiyyət sosial-psixoloji təhlilin obyekti kimi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almışdır. 1998-ci ildə psixologiya elmləri üzrə "Cinayət və mülki prosesdə məhkəmə-psixoloji ekspertizası problemləri" adlı doktorluq dissertasiyasını müdafiə edərək psixologiya elmləri doktoru elmi dərəcəsi, 2000-ci ildən psixologiya elmləri üzrə professor elmi adı almışdır. O, keçmiş SSRİ-də məhkəmə-psixoloji ekspertizasının ümumi nəzəriyyəsini işləyib hazırlayan ilk tədqiqatçı alimlərdən biridir. O, həmin nəzəriyyəyə söykənərək ilk dəfə olaraq, fizioloji affektin müəyyən edilməsinin yeni metodikasını və psixoloji me-yarlarını, həmçinin məhkəmə-psixoloji ekspertizasının növlərinin təsnifat sistemini müəyyənləşdirmişdir. Əldə edilmiş nəticələr hüquq praktikasında istifadə edilərək, cəzanın fərdiləşdirilməsində və obйektiv araşdırılmasında istifadə edilir. Zəruri əhəmiyyət daşıyan "fizioloji affektin" məhkəmə ekspertizasının təşkili və keçirilməsi prinsiplərini, ekspert – psixoloqun rəyini

sübutun bir növü kimi qiymətləndirilməsinin elmi-hüquqi əsaslarını müəyyənləşdirmişdir. Bu məsələyə dair elmi məruzələrlə beynəlxalq və respublika elmi konfranslarında çıxışlar etmişdir.

Bununla yanaşı B.H.Əliyev şəxsiyyətə yeni baxış nəzəriyyəsi ilə şəxsiyyətin formalaşması və inkişafı haqqında yeni konseptual model yaratmış, təlim prosesində mənimsəmənin effektivliyini artırmaq üçün öyrənmənin dərketmə modelini irəli sürmüşdür. Bu model Türkiyə Respublikasında keçirilən beynəlxalq konfransda müzakirə edilmiş və aprobasiyadan keçmişdir. Eləcə də öyrənmənin dərketmə modeli ən mühüm nəticə kimi AMEA-nın hesabatlarına daxil edilmişdir.

Professor B.H.Əliyevin elmi fəaliyyətində siyasi psixologiyanın müxtəlif problemlərinin tədqiqi öncül yerlərdən birini tutur. O, beynəlxalq səviyyədə siyasi psixologiyanın aktual məsələlərinə həsr olunmuş çoxsaylı məqalələrin müəllifidir. 1997-ci ildən bu günə qədər psixologiya kafedrasına rəhbərlik edir. B.H.Əliyev 2007-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir. 2000-ci ildən hazırkı dövrə qədər psixologiya elmləri üzrə Dissertasiya şurasının sədridir. Elmi fəaliyyətinə görə 1999-cu ildə Beynəlxalq Kadrlar Akademiyasının həqiqi üzvü seçilmişdir.

Azərbaycanda ilk dəfə olaraq, Bakı Dövlət Universitetində “Eksperimental psixologiya” elmi-tədqiqat laboratoriyasını yaradaraq idrak prosesləri, şəxsiyyət psixologiyası sahəsində elmi araşdırmalara rəhbərlik edir.

Professor B.H.Əliyevin rəhbərliyi altında 23 namizədlik, 5 doktorluq dissertasiyası müdafiə olunmuşdur. O, 6 monoqrafiyanın, 15 dərslik və dərs vəsaitinin, 29 proqram və metodiki tövsiyənin, 150 elmi məqalə və tezisin müəllifidir, xarici ölkələrdə 15 elmi əsəri çap edilmişdir.

Respublikamızda ilk dəfə olaraq 1999-cu ildə “Psixologiya jurnalı”nı təsis etmiş və elə həmin dövrdən hal-hazıra kimi onun baş redaktorudur. Jurnal qısa müddətdə respublikada və xarici ölkələrdə diqqəti cəlb etmiş, elmin inkişafında böyük rol oynamışdır.

B.H.Əliyev elmi-pedaqoji fəaliyyətlə yanaşı, ictimai-siyasi fəaliyyətlə də məşğuldur. Azərbaycan Respublikası Milli Məclisinin II

çağırışının (2000-2005-ci illər), III çağırışının (2005-2010) deputatı seçilmişdır. Hazırda Milli Məclisin IV çağırış deputatıdır. Avropa Şurası Parlament Assambleyasının üzvü kimi “Elm və təhsil məsələləri komitəsinin”, “Monitorinq komitəsinin” üzvü və “Geniş miqyaslı miqrantlar və köçkünlərlə iş üzrə” alt komitənin sədri olmuşdur. 2005-ci ildən hal-hazıra kimi Azərbaycan Respublikası Milli Məclisinin “Elm və təhsil komitəsinin” sədr müavinidir.

O, həmçinin Azərbaycan Respublikası Prezidenti yanında “Əfv məsələləri üzrə komissiya”nın və “Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə komissiya”nın üzvüdür. BMT-nin “Korrupsiyaya qarşı” konvensiyasının işçi orqanı olan Konfransın İndoneziyada keçirdiyi II Beynəlxalq Konfransda və İAACA-nın Bakıda keçirdiyi Beynəlxalq Konfransda və müxtəlif konfranslarda iştirak etmişdir.

**ƏKBƏR SALMAN oğlu BAYRAMOV –** Psixologiya elmləri doktoru, professor, əməkdar elm xadimi.

Ə.S.Bayramov 1930-cu ildə Ağdam rayonunun Əlimədətli kəndində anadan olmuşdur. O, 1949-cu ildə Ağdam Pedaqoji Texnikumunu və 1954-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsinin məntiq-psixologiya şöbəsini əla qiymətlərlə bitirmiş, Universitetin Böyük Elmi Şurasının qərarı ilə psixologiya ixtisası üzrə aspiranturaya tövsiyə edilmişdir. 1954-1957-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunda (indiki APDU) psixologiya ixtisası üzrə aspiranturada təhsil almışdır. Ə.S.Bayramov 1957-1958-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunda aspirantura şöbəsinin müdiri, 1958-1960-cı illərdə isə elmi işlər üzrə prorektorun köməkçisi işləmişdir

O, 1959-cu ildə “Təfəkkürün müstəqillik və tənqidiliyinə görə III-IV sinif şagirdlərinin fərdi xüsusiyyətləri” mövzusunda namizədlik, 1969-cu ildə “Kiçik məktəb yaşlı şagirdlərdə təfəkkürün müstəqillik və tənqidiliyinin inkişaf dinamikası” mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1960-1970-ci illərdə APİ-nin psixologiya kafedrasında baş müəllim, dosent, professor vəzifələrində işləmişdir. 1971-1992-ci illərdə isə ADU-da pedaqogika və psixologiya

kafedrasının müdiri, 1992-ci ildən BDU-da psixologiya kafedrasının müdiri olmuşdur, 1999-cu ildən həmin kafedrada professor işləyir.

Prof. Ə.S.Bayramov psixologiya nəzəriyyəçisi və tarixçisi kimi özünə layiqli yer tutmuşdur. Onun çoxlu sayda monoqrafiya, dərslik, dərs vəsaiti, metodik göstərişləri, proqram və məqalələri nəinki ölkəmizdə, həmçinin xarici ölkələrdə böyük rəğbət qazanmışdır. Əkbər Bayramov uzun illər ərzində psixologiyanın ümumi nəzəri məsələlərinə, Azərbaycanda psixologiyanın inkişaf tarixinə, təfəkkür probleminə, şəxsiyyət psixologiyasına aid xüsusi əhəmiyyət kəsb edən əsərlər yazmışdır. O, sanballı elmi əsərləri ilə Azərbaycan psixologiya elminin inkişafında mühüm rol oynamışdır.

O, X cildlik Azərbaycan Sovet Ensiklopediyası, Kitabi Dədə-Qorqud Ensiklopediyası üçün psixologiya elminin müxtəlif problemlərinə aid 58-dən artıq məqalə yazmışdır. Eyni zamanda o, X cildlik Azərbaycan Sovet Ensiklopediyasının və 3 cildlik Uşaq Ensiklopediyasının redaksiya–nəşriyyat şürasının üzvü olmuşdur. O, nəinki respublika, eləcə də digər ölkələr (Tacikistan, Qırğızıstan, İran İslam Respublikası və b.) üçün psixologiya üzrə yüksək ixtisaslı elmi kadrlar hazırlanmasında yaxından iştirak etmişdir. Onun elmi rəhbərliyi ilə psixologiya elmi üzrə 35-dən artıq elmlər namizədi və elmlər doktoru hazırlanmış, sovetlər məkanında 10-dan artıq namizədlik və doktorluq dissertasiyalarının rəsmi opponenti olmuşdur.

Ə.S.Bayramov “Şərəf nişanı” ordeni (1976), “SSRİ maarif əlaçısı” (1977) və Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə elm və təhsil sahələrində xidmətlərinə görə “Şöhrət ordeni” (2000), eləcə də bir neçə dəfə Azərbaycan Təhsil Nazirliyinin fəxri fərmanları ilə təltif edilmişdir. 1981-ci ildə ona Əməkdar elm xadimi fəxri adı verilmişdir. Prezident təqaüdçüsüdür.

**NADİR VEDAN oğlu İSMAYILOV –** Tibb elmləri doktoru, professor.

N.V.ismayılov 1937-ci ildə Cəbrayıl rayonunda anadan olmuşdur. O, 1968-ci ildə Azərbaycan Dövlət Tibbi Universitetinin müacilə-profilaktika fakültəsini bitirmişdir. 1973-cü ildə namizəd-

lik, 1983-cü ildə isə doktorluq dissertasiyalarını müdafiə etmişdir. Çap olunmuş 160 elmi əsərin, 6 kitabın, o cümlədən Bakıda və İstanbulda çap olunmuş "Psixiatriya" dərsliyinin müəllifidir. Dünyanın bir çox ölkələrində (Almaniya, Hollandiya İspaniya, Yaponiya, İsveçrə, Türkiyə, Misir, Bolqarıstan, Cexiya, Rusiya və s.) keçirilən konqress və konfranslarda iştirak etmiş, elmi məruzələrlə çıxış etmişdir. On nəfər elmlər namizədi dissertasiyasının elmi rəhbəridir. Psixoterapiya sahəsində bir sıra orijinal metodlar (kütləvi hipnosuqqestiv terapiya, qısamüddətli Autogen məşq və Autoanalitik psixoterapiya) təklif etmişdir. Bu yeniliklər ixtira kimi qəbul edilərək patent almışdır. 2001-ci ildə Beynəlxalq Psixoterapiya Akademiyasının (ABŞ) həqiqi üzvü və Akademiyanın məsləhət Şurasının üzvü seçilmişdir. 1993-cü ildən Psixiatriya üzrə Beynəlxalq "Cenevrə təşəbbüsü" təşkilatının, 2000-ci ildən Avropa Psixiatriya Assosiasiyasının üzvü, 2002-ci ildə Yaponiyada keçiriləcək XII Ümumdünya Psixiatriya Konqresinin hazırlıq komitəsinin üzvüdür. 1984-93-cü illərdə Azərbaycanın Baş psixiatrı olmuş, 1985-ci ildən SN həkim-psixiatr, narkoloq və psixoterapevtlərin Attestasiya komissiyasının sədri, 1996-cı ildən Azərbaycan Psixiatrlar Assosiasiyasının direktorudur. 2003-cü ildə ona ümumi psixiatriya və məhkəmə psixiatriyası üzrə Beynəlxalq ekspert dərəcəsi verilmişdir. 2001-ci ildə Beynəlxalq Bioqrafiya Mərkəzinin (İngiltərə) və ABŞ Bioqrafiya İnstitutununun "XX əsrin tanınmış alimi" medalına və qızıl heykəl mükafatına layiq görülmüşdür. Hazırda Azərbaycan Tibb Universitetinin professorudur, 2003-cü ildən həm də BDU-nun psixologiya kafedrasının professorudur.

**CƏMİLƏ ABASQULU qızı TƏHMASİB –** Psixologiya elmləri namizədi, dosent.

C.A.Təhmasib 1925-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. 1943-cü ildə ADU-nun (indiki BDU) Şərqşünaslıq fakültəsinə daxil olmuşdur. 1948-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirdikdən sonra Universitetin Məntiq və psixologiya kafedrasında aspiranturaya qəbul olunmuşdur. 1948-ci ildə Psixologiya kafedrasına müəllim vəzifəsinə təyin olunmuşdur. 1971-ci

ildən hazırkı dövrə qədər kafedranın dosenti vəzifəsində çalışır. 1966-cı ildə "Sovet hakimiyyəti illərində Azərbaycan qadınlarının mənəvi simasını səciyyələndirmiş yeni keyfiyyətlərin təşəkkülünə dair" mövzusunda psixologiya elmləri üzrə namizədlik dissertasiyasını müdafiə etmişdir. O, həmin ildə XVIII beynəlxalq psixoloji konqresdə məruzə ilə çıxış etmişdir. 4 tədris vəsaiti, 3 proqram, 50 elmi məqalə və məruzə tezisinin müəllifidir. 2000-ci ildə Azərbaycan Respublikası əməkdar müəllimi fəxri adına layiq görülmüşdür. Ümumi psixologiya və sosial psixologiya üzrə elmi-tədqiqat işləri aparır.

**RƏNA HƏMİD qızı QƏDİROVA** – Psixologiya elmləri doktoru, dosent.

R.H.Qədirova 1953-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1974 -ci ildə APİ-nin biologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1980-ci ildə BDU-nun psixologiya kafedrasının müəllimidir. 1999-ci ildə BDU-nun psixologiya kafedrasının dosenti seçilmişdir.

O, 1994-cü ildə "Bədii mətnlərin mütaliəsi psixoloji təhlilin predmeti kimi" mövzusunda namizədlik dissertasiyası, 2009-cu ildə "Azərbaycanlı uşaq və yeniyetmələrin milli identikliyinin inkişafının sosial-psixoloji problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Bir sıra beynəlxalq seminar və konfranslarda iştirak etmişdir. 3 beynəlxalq elmi tədqiqat layihəsinin iştirakçısı olmuşdur. 2 monoqrafiyanın, 45 elmi məqalənin, 5 kitabın müəllifidir.

**ELNARƏ İBRAHİM qızı ŞƏFİYEVA –** Psixologiya elmləri doktoru, dosent.

E.İ.Şəfiyeva 1962-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1979-cu ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin psixologiya fakültəsinə qəbul olunmuşdur. 1984-ci ildə həmin fakültəni psixologiya ixtisası üzrə bitirmişdir. 1984-93-cü illərdə Azərbaycan Respublikası Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunda kiçik elmi işçi vəzifəsində çalışmışdır. 1993-97-ci illərdə BDU-nun psixologiya kafedrasında baş müəllim işləmiş, 1997-ci ildən dosent vəzifəsində çalışır. 1990-cı ildə

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin psixologiya fakultəsinin nəzdində fəaliyyət göstərən ixtisaslaşmış Elmi Şurada "Beyinin lokal zədəsi olan xəstələrin emosional-şəxsiyyət sferasının pozulması" mövzusunda namizədlik, 2008-ci ildə "Zabit hazırlığının sosial-psixoloji problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 9 kitabın, 23 proqramın, 90 elmi məqalənin müəllifidir.

**MİRƏLƏM VƏLİ oğlu VƏLİYEV –** Psixologiya elmləri namizədi, dosent.

M.V.Vəliyev 1947-ci ildə Ağdam rayonunun Mərzili kəndində anadan olub, 1970-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) pedaqoji fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1970-ci ildən Xankəndi Pedaqoji İnstitutunda psixologiya müəllimi, dosent və ibtidai təhsil pedaqogikası və metodikası fakültəsinin dekanı vəzifəsində işləmişdir. DQMV və onun ətrafında baş verən hadisələrlə əlaqədar olaraq köçürülmə yolu ilə Gəncə Dövlət Pedaqoji İnstitutunda dosent vəzifəsində çalışmışdır. M.V.Vəliyev köçürülmə yolu ilə APİ-nun Şuşa filialında dosent, kafedra müdiri vəzifəsində çalışmışdır. O, 1992-ci ildən fəaliyyətini BDU-nun psixologiya kafedrasında davam etdirir. Dos. M.V.Vəliyev 1999-2006-cı illərdə BDU-nun sosial elmlər və psixologiya fakültəsinin magistratura və elmi işlər üzrə dekan müavini vəzifəsində çalışmışdır.

1984-cü ildə "Pedaqoji institut tələbələrində müəllim peşəsi üçün zəruri olan sərvət meyli və mənəvi idealların təşəkkülü" mövzusunda Tbilisi Dövlət Universitetində namizədlik dissertasiyası müdafiə etmişdir. Rusiya, Zaqafqaziya psixoloqlarının ali məktəblərarası elmi-praktik konfranslarında, Respublika səviyyəli, habelə Universitet və fakültədaxili konfranslarda iştirak etmişdir. 3 metodik vəsaitin, 11 tədris proqramının, 77 elmi məqalənin və məruzə tezislərinin müəllifidir. Azərbaycanda psixoloji fikir tarixinə dair araşdırmalar aparır.

**İMDAD MUSTAFA oğlu BAYRAMOV –** psixologiya elmləri namizədi, dosent.

İ.M.Bayramov 1963-cu ildə Ağdam rayonunun Mərzili kəndində anadan olmusdur. Orta məktəbi bitirdikdən sonra Mərzili kəndində fəhlə işləmişdi.1981-1983-cu illərdə hərbi xidmətdə olmuşdur. 1983-cu ildə Leninqrad (indiki Sankt-Peterburq) Dövlət Universitetinin psixologiya fakultəsinə daxil olmuş, 1988-ci ildə həmin fakultəni bitirmişdir. 1988-ci ildə Baki Dövlət Universitetinin Psixologiya kafedrasina baş laborant vəzifəsinə qəbul olunmuşdur. 1991-ci ildən müəllim, 1993-cu ildən baş müəllim işləmişdir. 1996-ci ildə "Kitabi-Dədə Qorqud dastanlarinda Azərbaycan xalqının etnik-psixoloji xususiyyətlərinin inikasi" mövzusunda namizədlik dissertasiyasi müdafiə edərək psixologiya elmləri namizədi alimlik dərəcəsi adını almışdır. 2006-cı ildən həmin kafedranın dosentidir. 2008-cı ildən kafedranın doktorantıdır. Separatizm problematikası üzrə elmi-tədqiqat işi aparır. 1 monoqrafiyanın, 48 məqalənin və bir neçə proqramın müəllifidir.

**TALİYƏ MƏHƏMMƏD qızı MUSAYEVA –** psixologiya elmləri namizədi, dosent.

T.M.Musayeva 1963-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1980-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə qəbul olmuş, 1985-ci ildə isə oranı müvəffəqiyyətlə bitirmişdir. 1987-ci ildə Azərbaycan Dövlət Universitetinin psixologiya və pedaqogika kafedrasında baş laborant kimi əmək fəaliyyətinə başlamışdır. 1993-cü ildən 2005-ci ilədək BDU-nun psixologiya kafedrasında müəllim vəzifəsində çalışmışdır. 1997-ci ildə "M.Ə.Sabir irsində etnik-psixoloji xüsusiyyətlərin inikası problemi" mövzusunda dissertasiya işini müdafiə etmişdir. 2005-ci ildən bu günədək BDU-nun psixologiya kafedrasında dosent vəzifəsində çalışır. 3 proqramın, 15-ə yaxın məqalənin müəllifidir. Bir sıra Beynəlxalq seminar, simpozium və konfranslarda iştirak etmişdir: Thinking moving forward: actions and directions. Presentation: 'Family life in displaced communities of Azerbaijan'. Georgia, Tbilisi, OSI-HESP, 2006. Seminar on issues of Social Work from International Perspectives Presentation: Gerontology issues from Azerbaijan perspective, USA, New Brunswick, NASW, 2008. "The Art of Social

Work". Annual Continuing Education Conference. Presentation: "Contemporary social problems of Azerbaijan". USA, Atlantic City, 2008. "BDU-da Sosial iş üzrə magistr proqramı", ACİ-AF və BTTM, 2003-2005. "Sumqayıt və Gəncə Dövlət Universitetlərində Sosial iş ixtisası üzrə tədris proqramlarının hazırlanması", ACİ-AF, 2005-2006 "Azərbaycanın Sosial Müdafiə Sistemində İslahatlar", AI TACIS, 2006-2007. "Yetkinlik yaşına çatmayanların ədalət mühakiməsində alternativ komponent" ("Uşaqların Mudafiəsində İslahatlar"), UNİCEF, 2007. JFDP, ABŞ Dövlət Departamentinin Təhsil və Mədəni Məsələlər üzrə Bürosu, 2007-2008.

**TƏRANƏ TOFİQ qızı BABAYEVA –** psixologiya elmlər namizədi, dosent.

1963-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1985-ci ildə ADU-nun şərqşünaslıq fakültəsini bitirmişdir. 1987-1988-ci illərdə Nərimanov rayonundakı 37 saylı orta məktəbdə dil-ədəbiyyat müəllimi işləmişdir. 1989-cu ildən BDU-nun psixologiya kafedrasında çalışır. 1995-ci ildə "Nizami Gəncəvinin yaradıcılığında şəxsiyyət problemi" adlı namizədlik dissertasiyası müdafiə etmişdir. 1 kitabın, 28 məqalənin, 9 proqramın, 1 metodik vəsaitin və 1 dərs vəsaitinin müəllifidir.

**SEVİNC AĞAVƏLİ qızı ALLAHYAROVA –** pedaqoji elmlər namizədi, dosent.

S.A.Allahyarova 1968-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1990-cı ildə BDU-nun Biologiya fakültəsini bitirmişdir. 1990-cı ildə 150 saylı orta məktəbdə biologiya və kimya müəllimi işləmişdir. 1994-1999-cu illərdə BDU-nun pedaqogika kafedrasında baş laborant işləmişdir. 1999-cu ildən psixologiya kafedrasında müəllim vəzifəsində çalışır. 2003-cü ildə "Demoqrafik amilləri nəzərə almaqla təlimdə geridə qalmanın aradan qaldırılması yolları" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 32 məqalə, tezis və metodik vəsaitin müəllifidir.

**AYDAN FİRUDİN qızı SƏMƏNDƏROVA** – psixologiya elmləri namizədi, dosent.

A.F.Səməndərova 1977-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1998-ci ildə BDU-nun Sosial elmlər və psixologiya fakultəsinin psixologiya ixtisasının bakalavr pilləsini, 2000-ci ildə isə "Ümumi psixologiya" ixtisaslaşması üzrə magistraturanı fərqlənmə diplomu ilə bitirmişdir. 2000-ci ildən BDU-nun psixologiya kafedrasında müəllim vəzifəsinə təyin edilmişdir. 2005-ci ildə "Cəzanın sosial-psixoloji məsələləri" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək, psixologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 2007-2009-cu illərdə BDU-nun psixologiya kafedrasında baş müəllim vəzifəsində çalışmışdır. 2010-cu ildən həmin kafedrada dosent vəzifəsində işləyir. A.F.Səməndərova 1 dərs vəsaitinin, 1 metodik göstərişin, 1 tədris proqramının və 22 elmi məqalənin müəllifidir.

**AZƏR MƏHƏMMƏD oğlu MUSTAFAYEV –** psixologiya elmləri namizədi, baş müəllim.

A.M.Mustafayev 1960-cı ildə Şamaxı şəhərində anadan olmuşdur. O, 1983-cü ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin psixologiya fakültəsini bitirmişdir. A.M.Mustafayev 1983-cü ildən Azərbaycan Dövlət Universitetinin pedaqoqika və psixologiya kafedrasında baş laborant vəzifəsində çalışmışdır. O, 1990-1994-cü illərdə BDU-nun Humanitar fakültələr üzrə fəlsəfə kafedrasında müəllim, 1994-1998-cu illərdə Asiya Universitetində, Diplomatiya Universitetində, Azərbaycan Beynəlxalq Universitetində müəllim, 1998-1999-cu illərdə isə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında baş müəllim vəzifəsində işləmişdir. Hazırda BDU-nun psixologiya kafedrasının baş müəllimidir. Sosial psixologiya, ümumi psixologiya, birgə fəaliyyət şəraitində şəxsiyyətlərarası davranışın dinamikası sahələrində araşdırmalar aparır. 20 məqalə və tezisin, 8 tədris proqramın müəllifidir.

**GÜLƏR MİKAYIL qızı ƏHMƏDOVA –** psixologiya elmlər namizədi, baş müəllim.

G.M.Əhmədova 1965-ci ildə Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Psixologiya elmləri namizədidir. 1986-cı ildən Bakıda Texniki peşə məktəbində müəllim, orta məkəbdə müəllim, direktor müavini vəzifələrində çalışmışdır. 1994-cü ildən Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin baş təlimatçısı, şöbə müdiri, idarə rəisi, 1996-cı ildən Azərbaycan Respublikası Uşaq Təşkilatının sədridir. Hazırda Bakı Dövlət Universitetinin psixologiya kafedrasının müəllimidir.

G.M.Əhmədova Azərbaycan Respublikası Milli Məclisinin dördüncü çağırış seçkilərində Bakı şəhərinin Xətai rayonundan deputatlığa namizədliyini irəli sürmüş və üçüncü dəfə deputat seçilmişdir. Milli məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvüdür. Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Çexiya-Rusiya, Azərbaycan-Səudiyyə Ərəbistanı, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür. Avropa İttifaqı – Azərbaycan parlament əməkdaşlığı komitəsinin üzvüdür.

**KAMİLƏ QİNYAZ qızı KAZIMOVA** -psixologiya elmlər namizədi, baş müəllim.

K.Q.Kazımova 1968-ci ildə Tovuz rayonunda Çobansığnaq kəndində anadan olmuşdur.1995-ci ildə BDU-nun Sosial elmlər və psixologiya fakultəsinin psixologiya ixtisasını bitirmişdir.1998-2000-ci illərdə BDU-nun psixologiya kafedrasında baş laborant işləmişdir. 2000-2001-ci illərdə Bakı Ali Hərbi Birləşmiş Komandanlıq məktəbində baş müəllim işləmişdir. 2001-ci ildə Psixologiya kafedrasına müəllim vəzifəsinə təyin edilmişdir. 2010-cu ildən Psixologiya kafedrasında baş müəllim vəzifəsində çalışır. 1 kitab (müştərək), 1 proqram, 26 elmi məqalə və məruzə tezislərinin müəllifidir.

**YAMƏN ƏZİZ qızı VƏLİYEVA –** psixologiya üzrə fəlsəfə doktoru, baş müəllim.

Y.Ə.Vəliyeva 1969-cu ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda anadan olmuşdur. 1997-ci ildə BDU-nun Sosial

elmlər və psixologiya fakultəsinin psixologiya ixtisasının bakalavr, 1999-cu ildə isə "Ümumi psixologiya" ixtisaslaşması üzrə magistratura pilləsini bitirmişdir. 2006-cı ildə "İbtidai istintaqda dindirmənin psixoloji məsələləri" mövzusunda dissertasiya müdafiə edərək, psixologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almışdır. 2010-cu ildən BDU-nun psixologiya kafedrasında baş müəllim vəzifəsində çalışır. 32 məqalənin, bir neçə proqramın müəllifidir.

**SVETLANA İDRİS qızı VERDİYEVA –** psixologiya kafedrasının müəllimi.

S.İ.Verdiyeva 1941-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1961-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olmuş, 1966-cı ildə oranı bitirmişdir. "Maarif" nəşriyyatında, "Orbita servis" – RJB-də işləmişdir. 1983-cü ildən BDU-nun Psixologiya kafedrasında çalışır. "Dini identikliyin inkişafı" adlı elmi tədqiqat işi üzərində işləyir. 10-dan artıq məqalə və tezisin müəllifidir.

**FİDAN VAQİF qızı ƏZİMLİ –** psixologiya kafedrasının müəllimi.

F.V.Əzimli 1976-cı ildə Bakı şəhərində anadan olmuşdur. 1992-ci ildə BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin psixologiya şöbəsinə daxil olmuşdur. 1997-ci ildə həmin fakültəni bitirmişdir. 2001-ci ildən Bakı Dövlət Universitetinin psixologiya kafedrasında müəllim vəzifəsində çalışır. 2003-cü ildən kafedranın dissertantıdır.

**FAİQƏ MƏHƏMMƏD qızı NƏSİROVA –** psixologiya kafedrasının baş metodisti.

F.M.Nəsirova 1941-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1960-cı ildə APİ-nin İbtidai təhsil, pedaqogika və metodika fakültəsinə daxil olmuş və 1968-ci ildə həmin fakültəni bitirmişdir. 1977-ci ildə BDU-nun Pedaqogika və psixologiya kafedrasında baş laborant vəzifəsinə təyin olunmuşdur. 1992-ci ildən isə Psixologiya kafedrasında baş metodist vəzifəsində çalışır. 10 məqalə və tezisin müəllifidir.

**XATİRƏ MƏHYƏDDİN qızı MUSAYEVA –** psixologiya kafedrasının baş metodisti.

X.M.Musayeva 1949-ci ildə Yevlax rayonunun Qaramanlı kəndində anadan olmuşdur. 1974 -cü ildə ADU-nun Kimya fakültəsini bitirmişdir. 1975-1990-cı illərdə BDU-nun “Qeyri-üzvi kimya” və “Kimyanın tədrisi metodikası” kafedralarında baş laborant vəzifəsində çalışmışdır. 1990-cı ildən hazırkı dövrə kimi BDU-nun Psixologiya kafedrasında baş metodist vəzifəsində çalışır. 15 məqalə və tezisin müəllifidir.

**MAHİRƏ RAİL qızı ZEYNALOVA –** psixologiya kafedrasının baş metodisti.

M.R.Zeynalova 1971-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1994-cü ildə BDU-nun filologiya fakultəsini bitirmişdir. 1996-cı ildən BDU-nun psixologiya kafedrasında baş metodist vəzifəsində işləyir.

**AİDA KAZIM qızı MUSAYEVA –** psixologiya kafedrasının baş metodisti.

A.K.Musayeva 1975-ci ildə Gürcüstan Respublikasının Dmanisi rayonunda anadan olmuşdur. 1992-ci ildə BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin psixologiya şöbəsinə daxil olmuşdur. 1997-ci ildə həmin fakültəni bitirdikdən sonra, Bakı Dövlət Universitetinin psixologiya kafedrasında laborant, 2007-ci ildən isə baş metodist vəzifəsinə təyin olunmuşdur. 2010-cu ildə “Müasir Azərbaycan qadınının sərvət dəyərlərinin psixoloji xüsusiyyətləri”” mövzusunda dissertasiya işini müdafiə etmişdir. 10 elmi məqalə və məruzə tezisinin müəllifidir.

**VALİDƏ İBAD qızı VƏLİYEVA –** psixologiya kafedrasının metodisti.

V.İ.Vəliyeva 1971-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1995-ci ildə BDU-nun biologiya fakültəsini bitirmişdir. 1990-1992-ci illərdə BDU-nun ümumi şöbəsində karkuzar, 1992 -2003-cü illərdə BDU-nun Biologiya fakültəsinin Onurğasızlar zoologiyası kafedrasında laborant, 2003-cü ildən hazırkı vaxta qədər BDU-nun psixologiya kafedrasında metodist vəzifəsində işləyir. 5 məqalə və tezisin müəllifidir.

# SOSİAL VƏ PEDAQOJİ PSİXOLOGİYA KAFEDRASI



BDU-nun rektoru, akademik A.M.Məhərrəmovun 06.02.2010 tarixli R-04 saylı əmri ilə Sosial elmlər və psixologiya fakültəsinin nəzdində Sosial və pedaqoji psixologiya kafedrası yaradıldı. Bu kafedranın yaradılması bir tərəfdən psixologiyada tətbiqi tədqiqatların genişlənməsi, digər tərəfdən sosial və təhsil sferasında psixoloji xidmətin təşkilinin optimallaşdırılması təlabatından irəli gəlirdi. Yeni yaradılmış Sosial və pedaqoji psixologiya kafedrasına rəhbərlik psixologiya elmlər doktoru, professor Kamilə Ramiz qızı Əliyevaya həvalə edilmişdir.

Fəaliyyət göstərdiyi qısa müddət ərzində kafedra elmi-metodiki və pedaqoji fəaliyyətində bir sıra diqqət çəkən göstəricilər əldə etmişlər. Son bir il ərzində kafedra əməkdaşları tərəfindən bir kitab, bir dərs vəsaiti, beş proqram və onlarla elmi məqalə nəşr edilmişdir. Hal-hazırda kafedrada iki nəfər professor (Kamilə Ramiz qızı Əliyeva, Sədi Şəfaqət oğlu Nuriyev), iki nəfər dosent (Gülnarə Qulu qızı Hüseynova, Lalə Məhəmməd qızı Cabbarova), dörd nəfər müəllim (psixologiya elmləri namizədi Elnarə Abbas qızı Piriyeva, İranə Mə-

həmməd qızı Məmmədli, Turanə Əlvan qızı Əliyeva, Kamilə Vaqif qızı Qasımova), iki nəfər metodist (Pərvanə Teymur qızı İsayeva, Şahnaz Rəcəb qızı Qurbanova) vəzifəsində çalışır.

Kafedra əməkdaşları Universitetin əksər fakültələrində psixologiya fənnini, hüquq fakültəsində hüquq psixologiyası fənnini, sosial elmlər və psixologiya fakültəsində isə ixtisas kafedrası kimi sahə psixologiyalarını – sosial psixologiya, siyasi psixologiya, menecment psixologiyası, pedaqoji psixologiya, yaradıcılıq psixologiyası, etnopsixologiya, psixopedaqogika, təlim psixologiyası fənlərini tədris edirlər.

K.R.Əliyeva rəhbərlik etdiyi kafedranın beynəlxalq əlaqələrinin genişləndirilməsi məqsədilə xarici ölkə universitetlərinin elmi təcrübəsindən fəal şəkildə istifadə edir. Müəllimlərin xaricdə təşkil olunan beynəlxalq konfrans və seminarlarda, qrant layihələrində mütəmadi iştirakına xüsusi diqqət yetirir. Kafedranın uğurlarından biri də professor K.R.Əliyevanın rəhbərliyi ilə kafedra əməkdaşlarının psixoloji terminlər lüğəti hazırlamasıdır.

## KAFEDRANIN ƏMƏKDAŞLARI HAQQINDA QISA BİBLİOQRAFİK MƏLUMAT

**KAMİLƏ RAMİZ qızı ƏLİYEVA –** psixologiya elmləri doktoru, professor, Sosial və pedaqoji psixologiya kafedrasının müdiri.

K.R.Əliyeva 1970-ci ildə Moskva şəhərində anadan olmuşdur. 1987-ci ildə BDU-nun biologiya fakültəsinə daxil olmuş, 1992-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirərək, Zoologiya İnstitutunda əmək fəaliyyətinə başlamışdır. 1998-2002-ci illərdə BDU-nun psixologiya kafedrasının dissertantı olmuşdur. 2002-ci ildə “Yaradıcılıq şəxsiyyətin inkişaf amili kimi” mövzusunda namizədlik dissertasiyasını, 2009-cu ildə isə “Şəxsiyyətin yaradıcı potensialının formalaşmasının psixoloji problemləri” mövzusunda psixologiya elmləri üzrə doktorluq dissertasiyasını müdafiə etmişdir.

K.R.Əliyeva 1999-cu ildən psixologiya kafedrasında müəllim, 2004-cü ildən dosent vəzifəsində çalışır. 2010-cu ildən kafedranın professorudur. Həmin ildən Sosial və pedaqoji psixologiya kafedrasının müdiri vəzifəsində çalışır.

Universitetdə işlədiyi müddətdə professor K.R.Əliyeva öz səmərəli və peşəkar fəaliyyəti ilə seçilibdir. Belə ki, 2009-cu ildə BDU-nun Elmi Şurası tərəfindən ilin müəllimi adına layiq görülüb, həmin ildə yüksək ixtisaslı kadrların hazırlanmasında uzun müddət səmərəli elmi-pedaqoji fəaliyyətinə görə və universitetin 90 illik yubileyi münasibətilə Təhsil Nazirliyinin fəxri fərmanı ilə təltif edilmişdir. Bununla yanaşı 2010-2011-ci illərdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə səmərəli əməkdaşlığa görə komitə tərəfindən diplomla mükafatlandırılmışdır.

Əliyeva Kamilə bir çox treninq proqramlarında, beynəlxalq seminarlarda iştirak etməklə yanaşı, sosial siyasət və təhsil problemləri ilə bağlı seminarlarda çıxış etmişdir. İki monoqrafiyanın, bir dərs vəsaitinin, 40-dan artıq elmi əsərin, bir neçə proqramın müəllifidir. K.R.Əliyeva üç nəfər doktoranta elmi rəhbərlik edir. Dəfələrlə dissertasiya işlərinin opponenti olmuşdur. O, milli qiymətləndirmə sistemi və təhsil standartlarının qarşılıqlı asılılığı – Beynəlxalq Qiymətləndirmə Assossiasiyasının (Bakı, 2007), Uşaqların kreativ keyfiyyətlərinin qiymətləndirilməsi və testləşdirilməsi (Kembric, 2009), Beynəlxalq Siyasi Psixoloqların 33-cü elmi (San-Fransisko, Koliforniya, ABŞ, 2010) konfransların iştirakçısı olmuş, məruzə ilə çıxış etmişdir.

**SƏDİ ŞƏVAQƏT oğlu NURİYEV** – filologiya elmləri doktoru, professor.

S.Ş.Nuriyev 1951-ci ildə Bərdə rayonunun Hacallı kəndində anadan olmuşdur. 1980-ci ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunu (indiki Slavyan Universiteti) fərqlənmə diplomu ilə bitirmişdir. 1980-1982-ci illərdə Hacallı kənd səkkizillik məktəbində müəllim işləmiş, 1982-1985-ci illərdə APRDƏİ-nin əyani aspiranturasında təhsilini davam etdirmişdir.1987-ci ildə “F.M.Dostoyevskinin “Oxşar” povestinin poetikası” mövzusunda namizədlik, 1991-ci ildə isə “F.M.Dostoyevskinin 1840-cı illər yaradıcılığının poetikası” mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Ədəbiyyatşünaslığın müxtəlif problemlərinə dair onlarla məqalə və tezisin, tədris-metodiki vəsaitlərin, monoqrafiyaların, kitabın müəllifidir.

1985-1993-cü illərdə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunda müəllim, baş müəllim, dosent və professor vəzifələrində, 1993-cü ildən Azərbaycan Respublikası Dövlət Elm və Texnika Komitəsində “Elm və Elmi-texniki Siyasət İdarəsi”nin rəisi, 1994-2000-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında “Dövlət Attestasiya Müfəttişliyi”, “Humanitar və ictimai elmlər”, “Dissertasiya şuraları, Kadr, Diplom və Attestatlar”, “İnformasiya və Mətbuat xidməti” şöbələrinin rəisi vəzifələrində işləmişdir. 2000-ci ildən 2004-cü ilədək Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda “Elmi nəticələrin nəşri və yayımı”, 2006-2008-ci illərdə Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin “Beynəlxalq əlaqələr və informasiya təminatı” şöbələrinə rəhbərlik etmişdir. 2009-2010-cu illərdə AMEA-nın Folklor İnstitutunda böyük elmi işçi kimi fəaliyyət göstərmişdir. Hazırda “Abituriyent” jurnalının məsul katibi və BDU-nun Sosial və pedaqoji psixologiya kafedrasının professorudur. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

**GÜLNARƏ QULU qızı HÜSEYNOVA** – psixologiya elmləri namizədi, dosent.

G.Q.Hüseynova 1960-cı ildə Bakı şəhərində anadan olmuşdur. 1982-ci ildə ADU-nun mexanika-riyaziyyat fakültəsini bitirmişdir. 1982-1991-ci illərdə 2 saylı Xırdalan orta məktəbində riyaziyyat müəllimi işləmişdir. 1991-ci ildə BDU-da psixologiya fakültəsinin aspiranturasına qəbul olmuşdur. 1995-ci ildə “Erkən gənclik qruplarında sosial persepsiyanın etnopsixoloji xüsusiyyətləri” mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1994-cü ildən BDU-nun psixologiya kafedrasında assistent, baş müəllim, hal-hazırda isə Sosial və pedaqoji psixologiya kafedrasında dosent vəzifəsində çalışır. Bir neçə tədris vəsaitinin, 6-dan çox proqramın və 30-yə yaxın elmi məqalənin müəllifidir. G.Q.Hüseynovanın elmi rəhbərliyi altında bir çox magistrant uğurla dissertasiya müdafiə etmişdir.

**LALƏ MƏHƏMMƏD qızı CABBAROVA –** psixologiya elmləri namizədi, dosent.

L.M.Cabbarova 1975-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1997-ci ildə BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin psixologiya ixtisasını fərqlənmə diplomu ilə bitirdikdən sonra, Bakı Dövlət Universitetinin psixologiya kafedrasında müəllim vəzifəsinə təyin olunmuşdur. 1998-2002-ci illərdə BDU-nun psixologiya kafedrasının dissertantı olmuş və 2002-ci ildə "Müasir şəraitdə tənhallığın sosial-psixoloji problemləri" mövzusunda psixologiya elmləri üzrə namizədlik dissertasiyası müdafiə etmişdir. Bir sıra beynəlxalq layihələrdə, treninq proqramlarında iştirak etmişdir. 2010-cu ildən Sosial və pedaqoji psixologiya kafedrasının dosentidir. 1 monoqrafiyanın, 9 proqram və metodik tövsiyənin, 20-yə yaxın elmi məqalə və tezisin müəllifidir.

**ELNARƏ ABBAS qızı PİRİYEVA –** psixologiya elmləri namizədi, müəllim.

E.A.Piriyeva 1973-cü ildə Gədəbəy rayonunda anadan olmuşdur. 1990-1995-ci illərdə BDU-nun Sosial elmlər və psixologiya fakültəsində təhsil almışdır. 1995-ci ildə BDU-nun politologiya və sosiologiya kafedrasında baş laborant işləmişdir.1999-cu ildən psixologiya kafedrasında müəllim vəzifəsinə təyin olunmuşdur. 2006-ci ildə "Siyasi proseslərdə milli psixologiya amili" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 2010-cu ildən Sosial və pedaqoji psixologiya kafedrasında müəllim vəzifəsində çalışır. İyirmiyə qədər elmi məqalənin, metodik tövsiyənin və proqramın müəllifidir.

**İRANƏ MƏHƏMMƏD qızı MƏMMƏDLI –** Sosial və pedaqoji psixologiya kafedrasının müəllimi.

İ.M.Məmmədli 1977-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1997-2001-ci illərdə BDU-nun Sosial elmlər və psixologiya fakültəsində təhsil almışdır. 2001-ci ildə Sosial elmlər və psixologiya fakültəsinin Sosial psixologiya ixtisası üzrə magistratura pilləsinə daxil olmuş, 2003-cü ildə həmin ixtisası fərqlənmə diplomu ilə bitirmişdir. 2004-cü ildən BDU-nun "Eksperimental psixologiya" elmi-tədqiqat laboratoriyasında kiçik elmi işçi vəzifəsində çalışmışdır. 2007-ci ildən BDU-nun psixologiya kafedrasında müəllim vəzifəsinə təyin olunmuşdur. Hal-hazırda Sosial və pedaqoji psixologiya kafedrasın-

da müəllim vəzifəsində çalışır. 2005-ci ildən BDU-nun Psixologiya kafedrasının dissertantıdır. Beynəlxalq layihələrdə, konfranslarda iştirak etmişdir. 20 məqalə, tezis və proqramın müəllifidir.

**TURANƏ ƏLVAN qızı ƏLİYEVA –** Sosial və pedaqoji psixologiya kafedrasının müəllimi.

T.Ə.Əliyeva 1979-cu ildə Gəncə şəhərində anadan olmuşdur. 1998-ci ildə Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin psixologiya ixtisasının bakalavr pilləsinə qəbul olunmuşdur. 2002-ci ildə bakalavr pilləsini fərqlənmə diplomu ilə bitirib, klinik psixologiya ixtisaslaşması üzrə magistraturaya qəbul olunmuşdur. 2004-cü ildə magistraturanı fərqlənmə diplomu ilə bitirmişdir. 2004-2007-ci illərdə əlilliyi olan uşaqlar üçün Reabilitasiya Mərkəzində psixoloq və proqram rəhbəri kimi fəaliyyət göstərmişdir. 2007-ci ildə ABŞ-da Vaşinqton Universitetinin sosial iş departamentinin sosial iş ixtisası üzrə magistraturasına qəbul olunmuş və 2009-ci ildə magistraturanı yüksək göstəricilərlə bitirmişdir. 2009-2010-cu illərdə Azərbaycan Universitetində sosial iş üzrə Proqram rəhbəri vəzifəsində çalışıbdır. 2010-cu ildə Bakı Dövlət Universitetinin Sosial və pedaqoji psixologiya kafedrasında müəllim vəzifəsinə qəbul edilibdır. 1 metodik vəsaitin, 10-a yaxın məqalə və tezisin müəllifidir.

**KAMİLƏ VAQİF qızı QASIMOVA –** Sosial və pedaqoji psixologiya kafedrasının müəllimi.

K.V.Qasımova 1988-ci ildə Bakı şəhərində anadan olmuşdur. 2004-2008-ci illərdə Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin psixologiya istiqaməti üzrə bakalavr pilləsində təhsil almışdır.

Almaniyanın Yena şəhərinin Fridrix-Şiller adına Universitetinin Germanistika fənni üzrə diplomuna layiq görülmüşdür. Dəfələrlə psixologiya ixtisası üzrə treninqlərdə iştirak etmişdir.

2009-cu ildə Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin İnkişaf psixologiyası ixtisaslaşması üzrə magistr pilləsinə qəbul olunmuşdur. “Yeniyetməlik yaş dövründə kreativliyin inkişafı” mövzusunda magistr dissertasiyasını uğur-

la müdafiə etmiş və 2011-ci ildə magistratura pilləsini fərqlənmə diplomu ilə bitirərək, Sosial və pedaqoji psixologiya kafedrasında əvvəlcə laborant, hal-hazırda isə müəllim vəzifəsində çalışır.

**PƏRVANƏ TEYMUR qızı İSAYEVA –** Sosial və pedaqoji psixologiya kafedrasının metodisti.

P.T.İsayeva 1987-ci ildə Bakı şəhərində anadan olmuşdur. 2005-ci ildə Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin psixologiya ixtisasının bakalavr pilləsinə qəbul olunmuşdur. 2009-cu ildə bakalavr pilləsini bitirib, sosial psixologiya ixtisaslaşması üzrə magistraturaya qəbul olunmuşdur. 2011-ci ildə magistraturanı fərqlənmə diplomu ilə bitirmişdir. 2010-cu ildən etibarən Bakı Dövlət Universitetinin Sosial və pedaqoji psixologiya kafedrasında metodistvəzifəsində çalışır.

Pərvanə İsayeva elmi-tədqiqat fəaliyyətini uğurla davam etdirir. 2005-ci ildən etibarən o, bir çox treninq proqramlarında, beynəlxalq konfranslarda iştirak edir. BDU-da fəaliyyəti dövründə elmi işə böyük maraq nümayiş etdirmişdir. 9 məqalə və məruzə tezisinin müəllifidir. Bundan əlavə, SOS Uşaq kəndləri Azərbaycan-Bakı Assosiasiyasında 2009-cu ildən könüllü kimi, 2011-ci ildən həmin assosiasiyanın “Şən avtobus” layihəsində psixoloq kimi fəaliyyət göstərir.

**ŞAHNAZ RƏCƏB qızı QURBANOVA –** Sosial və pedaqoji psixologiya kafedrasının metodisti.

Ş.R.Qurbanova 1986-cı ildə Bakıda anadan olmuşdur. 2008-ci ildə Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin psixologiya ixtisasını, 2010-cu ildə hüquq psixologiyası ixtisaslaşması üzrə magistratura pilləsini fərqlənmə diplomu ilə bitirmişdir.

2011-ci ildən etibarən Sosial və pedaqoji psixologiya kafedrasının metodist vəzifəsində çalışır. Təhsil aldığı illər ərzində valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün nəzərdə tutulmuş uşaq evlərində könüllü olaraq psixoloji xidmət göstərmiş və treninqlər keçirmişdir. Ş.R.Qurbanova 2005-2007-ci illərdə müxtəlif konfrans və layihələrdə fəal iştirak etmişdir. Müxtəlif elmi jurnallarda dərc olunmuş bir neçə elmi məqalənin müəllifidir.

# GENDER VƏ TƏTBİQİ PSİXOLOGİYA KAFEDRASI




Gender və tətbiqi psixologiya kafedrası 2002-ci ildə yaradılmışdır. Kafedranın yaradılması üçün əsas müasir dövrdə tətbiqi psixologiyanın inkişaf etdirilməsinin zəruriliyi və Azərbaycan hökümətinin, habelə BMT-nin İnkişaf Proqramının respublikamızda 1997-2000-ci illərdə həyata keçirilmiş "Azərbaycanda gender İnkişafda" birgə layihəsi olmuşdur. Bu layihənin dəstəyi ilə 2000-ci ildə Bakı Dövlət Universitetində "Gender tədqiqatları mərkəzi" yaradılmış, sonra həmin mərkəz əsasında Sosial elmlər və psixologiya fakültəsinin nəzdində "Gender və tətbiqi psixologiya" kafedrası təşkil edilmişdir. Yarandığı gündən bu kafedraya psixologiya elmlər namizədi, dosent Rəna Fuad qızı İbrahimbəyova rəhbərlik edir.

Hazırda kafedrada iki nəfər dosent (Rəna Fuad qızı İbrahimbəyova, Rövşən Əli oğlu Cavadov), bir nəfər professor (Svetlana

Məcid qızı Məcidova), bir nəfər baş müəllim (Elmina Mobil qızı Kazımzadə), 2 nəfər müəllim (Vəfa Qeysər qızı Nağıyeva, Məlahət Rafiq qızı Nuriyeva ) vəzifəsində çalışır.

## KAFEDRANIN ƏMƏKDAŞLARI HAQQINDA QISA BIBLIOQRAFIK MƏLUMAT

**RƏNA FUAD qızı İBRAHİMBƏYOVA** – psixologiya elmləri namizədi, dosent, kafedranın müdiri.

R.F.İbrahimbəyova 1944-cü ildə Bakı şəhərində ailəsində anadan olmuşdur. 1967-ci ildə Azərbaycan Politexnik İnstitutunun (indiki Texniki Universitet) inşaat fakültəsinin memarlıq şöbəsini bitirmişdir. 1974-cü ildə Kirov adına Azərbaycan Dövlət Universitetinin (ADU) psixologiya üzrə aspiranturasına daxil olubdur. Aspiranturada R.İbrahimbəyova memarlığın psixologiyası üzrə tədqiqatlar aparmış və dissertasiyasını vaxtından əvvəl təqdim etməsi ilə əlaqədar ADU-nun pedaqogika və psixologiya kafedrasında assistent vəzifəsinə təyin olunmuşdur. 1977-ci ildə Moskvada, SSRİ Elmlər Akademiyasının Psixologiya İnstitutunda namizədlik dissertasiyasını uğurla müdafiə etmişdir. 1983-cü ildə işlədiyi kafedrada dosent vəzifəsinə seçilmişdir. O, 1991-ci ilə qədər hazırladığı "Memarlıq psixologiyası" kursunu İnşaat İnstitutunda memarlar üçün tədris etmişdir. 90-cı illərdə təhsil sistemində islahatların aparılması tələbi ilə bağlı Rəna İbrahimbəyova istedadlı uşaqların axtarışı və təhsilinin təşkil edilməsi işinə dəvət olunmuşdur. O, respublikada ilk təhsil qeyri-hökumət təşkillatı olan "İstedad" Assosiasiyasının sədr müavini seçilir və Bakı Dövlət Universitetində "Yaradıcı istedad" Mərkəzinin direktoru təyin olunur. Qısa müddətdə Mərkəzdə istedad probleminin metodologiyası işlənir və onun zəminində istedadlı uşaqların erkən yaşlarından aşkar edilməsinin və ən müasir pedaqoji texnologiyalar üzərində qurulmuş fərdi tədris prosesinin vahid sistemi formalaşdırılır. Bunun əsasında Respublikada ilk dəfə olaraq, test sisteminin əsasları işlənir, BDU-da 9-aylıq praktik psixoloqlar kursları fəaliyyətə başlayır (onların təşkil edilməsi Mərkəzə tapşırılır). Aşkar edilmiş istedadlı uşaqlar

üçün əvvəlcə xüsusi siniflər, sonradan isə xüsusi məktəb – Bakı Avropa Liseyi yaradılır. Bu gün də həmin liseyin işinə elmi rəhbərlik Mərkəz tərəfindən həyata keçirilir. Mərkəzin apardığı işlərin əhatə dairəsi genişlənir və burada psixodiaqnostik prosedurlardan əlavə psixoloji reabilitasiya və korreksiya, psixoloji məsləhətləşmə işləri də təşkil olunur. 1992-ci ildə bu işlər Xocalı faciəsinin qurbanları olan uşaqlar və yeniyetmələrlə aparılır. 1993-cü ildə R.İbrahimbəyova Mərkəzin direktoru vəzifəsini ictimai əsaslarla icra edərək, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin elm, mədəniyyət, xalq təhsili və sosial problemlər şöbəsinin müdir müavini vəzifəsinə təyin olunur. 1994-cü ildə Prezident Heydər Əliyev tərəfindən 4-cü Ümumdünya qadınlar konfransına (Pekin) hazırlıq məqsədi ilə Milli Komitənin yaradılması haqqında sərəncam verilir. Onun tərkibinə R.İbrahimbəyova da daxil edilmişdir. O, 1995-ci ildə, Pekin konfransı ərəfəsində BMT-nin Qadınların statusu üzrə Komissiyasında “Hərbi münaqişələr zonalarında girov götürümüş qadınların və uşaqların azad olunması” haqqında Qətnamənin qəbul olunmasında, Azərbaycan tərəfindən təkidlə təklif olunan qadınların girov götürülməsi haqqında düzəlişin Pekin Fəaliyyət Platformasına (116-cı bəndinə) əlavə olunmasında fəal iştirak edir. 1997-ci ildə R. İbrahimbəyova BMT İnkişaf Proqramının və Azərbaycan Hökumətinin üç il davam edən “Azərbaycanda gender inkişafda” layihəsinin milli koordinatoru təyin olunur. Məhz bu dövrdə o, Oksford Universitetində (Böyük Britaniya) xüsusi gender treninq kursları keçir. 2000-ci ildə R.İbrahimbəyova YUNİFEM-in 11 olkədə həyata keçirilən “Zorakılıqsız həyat – bizim hüququmuzdur” regional layihəsinin Azərbaycan üzrə koordinatoru təyin edilir. R.İbrahimbəyovanın bilavasitə iştirakı ilə adı çəkilən və bir sıra digər layihələr çərçivəsində gender metodologiyasının əsasları işlənib hazırlanmış və artıq Dövlət Statistika Komitəsi sistemində tətbiq olunmuşdur. Qanunvericiliyin gender ekspertizası, qadınlara qarşı zorakılıq, qadın əməyi və s. bu kimi aktual gender problemləri üzrə tədqiqatlar aparılmış, respublika üzrə ilk gender şəbəkəsi yaradılmış (20 rayon və şəhədə), MDB ölkələri üzrə ilk dəfə gender probleminə həsr olunmuş bədii film çəkilmiş (“Etimad telefonu”),

çoxsaylı konfranslar, seminarlar, treninqlər keçirilmiş, o dövrdə yenicə yaranmış Qadın Problemləri üzrə Dövlət Komitəsinə, eləcə də qadın problemləri üzrə fəaliyyət göstərən QHT-lərə operasional və texniki yardım göstərilmiş, AMEA sistemində gender şöbəsi, televiziya və radioda daimi verilişlərin translasiyası təşkil olunmuş, qadınların seçki fəallığını artırmaq məqsədi ilə böyük tirajlı təbliğat vərəqələri hazırlanmış və seçicilərə paylanmışdır.

2003-cü ildə o, "Azərbaycanda yoxsulluğun azaldılması və iqtisadi İnkişaf üzrə Dövlət Proqramının" hazırlanmasında gender eksperti kimi yaxından iştirak etmiş və aparılmış iş nəticəsində bu sənəd digər MDB ölkələri arasında gender komponentinin tətbiqinə görə Dünya Bankının qiymətləndirilməsinə əsasən 1-ci yerə çıxmışdır. R.İbrahimbəyova "Azərbaycanda gender münasibətləri: tendensiyalar və problemlər" BMT İnkişaf Proqramı tərəfindən hazırlanmış Azərbaycanda İnsan İnkişafı haqqında Hesabat-2007 (MDB ölkələri arasında ilk dəfə) üzrə Milli məsləhətəçi olmuşdur. O, Azərbaycan Psixoloqlar Cəmiyyətinin (1974) və Azərbaycan Memarlar İttifaqının (2001) üzvü, gender məslələri üzrə beynəlxalq ekspertdir.

R.İbrahimbəyova 30-dan artıq beynəlxalq konfrans, seminar və forumun iştirakçısıdır. Onun 70-dən artıq elmi məqaləsi, kitabı, broşurası çap olunmuşdur. Onun rəhbərliyi ilə müvafiq ixtisaslar üzrə tədris proqramları hazırlanıb və nəşr olunmuşdur.

**SVETLANA MƏCİD qızı MƏCİDOVA** – psixologiya elmləri doktoru, professor.

S.M.Məcidova 1957-ci ildə Bakı şəhərində anadan olmuşdur. O, 1979-cu ildə Leninqrad Dövlət Universitetinin psixologiya fakültəsini bitirmişdir. O, 1983-1987-ci illərdə LDU-nun əyani aspirantı olmuşdur. 1985-ci ildə "Yeniyetmələrin-ittiham edilmişlərin ictimai cəhətdən-psixoloji tipləri" mövzusu üzrə sosial psixologiya sahəsində namizədlik dissertasiyasını müdafiə edibdir. 1992-ci ildən Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakütəsində işləyir, cender və tətbiqi psixologiya kafedrasının professoru vəzifəsini icra edir. İki monoqrafiyanın müəllifidir: "Psixoloji tiplər.

Tipologiya 69" və "Küçə uşaqları: sosioloji və psixoloji portret". Bir neçə tədris proqramı, kitabça və 80-dən çox elmi nəşrlərin müəllifidir. 2007-ci ildə "İctimai cəhətdən-psixoloji tiplər 69" mövzusunda psixologiya elmləri doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir.1999-cu ildən "Psixoloji Mərkəz" ictimai təşkilatına başçılıq edir. Fərdi və qrup şəklində məsləhət verilməsi, kadrların seçilməsi və attestasiyası işinin peşəkar səviyyədə həyata keçirilməsi və ictimai əhəmiyyət kəsb edən müxtəlif tədqiqatların aparılması S.Məcidovanın elmi maraq dairəsini təşkil edir. Elmi adların verilməsi ilə bağlı Beynəlxalq Sokrat Komitəsi S.Məcidovanı Beynəlxalq mükafat laureatı adını almağa təqdim etmiş və 2011-ci ildə o həmin mükafata layiq görülmüşdür.

**RÖVŞƏN ƏLİ oğlu CAVADOV** – psixologiya elmləri namizədi, dosent.

R.Ə.Cavadov 1949-cu ildə Ağdam rayonunun Əliağalı kəndində anadan olmuşdur. 1971-ci ildə APİ-nin riyaziyyat fakültəsini bitirmişdir. 1971-1975-ci illərdə Əliağalı kənd orta məktəbində riyaziyyat müəllimi işləmişdir. 1975-1978-ci illərdə ADU-nun psixologiya kafedrasının əyani aspirantı olmuşdur. Psixologiya kafedrasında müəllim (1979-1982), baş müəllim (1982-1991), dosent (1992-2009) işləmişdir. 2009-cu ildən Gender və tətbiqi psixologiya kafedrasının dosentidir. O, 1990-cı ildə "Tələbələrin qrup halında məsələ həlli prosesində təfəkkür müstəqilliyinin təzahür xüsusiyyətləri və səmərəli təşkili yolları" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.

R.Ə.Cavadov BMT-nin və Azərbaycan hökumətinin birgə həyata keçirdikləri "Xüsusi qayğıya ehtiyacı olan uşaqlara yardım" Proqramının sektorlararası şurasının üzvüdür. YUNİSEF– xətti ilə "Köçkün düşərgələrində yaşayan məktəbəqədər yaşlı uşaqların sosial-psixoloji reablitasiyası" üzrə xüsusi proqram hazırlayan və onu həyata keçirən mütəxəssislərdən biri (1996– 2004) olmuşdur. BTM ilə birlikdə 2002-2005-ci illərdə BDU-nun Sosial elmlər və psixologiya fakültəsində Sosial iş ixtisası üzrə magistr kadrların hazırlanması ilə bağlı layihənin həmmüəllifi və BDU

üzrə koordinatoru olmuşdur. “Ekstremal şəraitlərdə psixoloji yardım” layihəsinin müəllifi və rəhbəri, “Gəncə və Sumqayıt Dövlət Universitetlərində Sosial iş proqramlarının hazırlanması və həyata keçirilməsi” layihəsinin müəlliflərindən biri və rəhbəri olmuşdur. 1992-2006-ci illərdə Sosial elmlər və psixologiya fakültəsinin dekan müavini vəzifəsində çalışmışdır. R.Cavadov 60-a yaxın elmi məqalə, dərslik, dərs vəsaiti və məruzə tezislərinin müəllifidir.

**ELMİNA MOBİL qızı KAZIMZADƏ –** psixologiya elmlər namizədi, dosent.

E.M.Kazimzadə 1957-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1979-ci ildə Moskva Dövlət Universitetinin Psixologiya fakültəsini bitirdikdən sonra BDU-nun pedaqogika və psixologiya kafedrasında əmək fəaliyyətinə başlamışdır. 1990-ci ildə “Etnopsixoloji kontekstlərdə özünüqiymətləndirmə faktorunun müqayisəli təhlili”nə həsr olunmuş dissertasiya işini Kiyevdə (Ukraynada) Elmi-Tədqiqat İnstitutunda müdafiə etmişdir. 1992-ci ildən Gender və tətbiqi psixologiya kafedrasının müəllimidir. E.M.Kazimzadə 1998-ci ildən indiyədək müxtəlif beynəlxalq layihələrdə tədqiqatçı və əlagələndirici vəzifələrində calışır. Birləşmiş Millətlər Təşkilatının, Dünya bankının və digər milli və beynəlxalq təlim-tədris müəssisələrində aparıcı ekspert statusunu qazanmışdır. Son on ildə 4 beynəlxalq nəşrdə həmmüəllif olmuşdur. Xarici jurnallarda 15-dən çox məqaləsi cap olunmuşdur. 2007-2009-ci illərdə Ali Təhsilə Dəstək Proqramının Məsləhət şurasının uzvü kimi fəaliyyət göstərmişdir. Tənqidi təfəkkür və reflektiv pedaqogika mövzusunda Azərbaycan və beynəlxalq layihələrin təşəbbüskarı olubdur. 2008-ci ildən ictimai əsaslarla Dərnəklərin Qiymətləndirmə Şurasının sədri vəzifəsində fəaliyyət göstərir. Təhsil Siyasəti Üzrə Beynəlxalq Şəbəkənin İdarə heyətinin üzvüdür.

**VƏFA QEYSƏR qızı NAĞIYEVA** – baş müəllim.

V.Q.Nağıyeva 1970-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1987-1992-ci illərdə ADU-nun Tətbiqi riyaziyyat fakültəsində təhsil almışdır. 2002-2005-ci illərdə Ukraynada DCTİ-nin psixologiya

kafedrasında əvvəlcə laborant, sonra isə kafedranın baş müəllimi vəzifəsində, 2005-ci ildən BDU-nun Gender və tətbiqi psixologiya kafedrasında çalışır. 2006-ci ildən həmin kafedranın dissertantıdır.10-a yaxın məqalənin müəllifidir. Eyni zamanda o, praktik psixologiyanın aktual məsələləri (ailədaxili münasibətlər, depressiv vəziyyətlər, intihar və s.) üzrə Respublika Televiziya və Radio verilişlərinin müxtəlif kanallarında (AzTv, ANS, Xəzər, ATV, İctimai) təşkil olunmuş verilişlərdə ekspert kimi çıxış etmişdir. Ailə, Uşaq və Qadın Komitəsinin kecirdiyi dövlət layihələrində psixoloq-ekspert kimi iştirak etmişdir.

**MƏLAHƏT RAFİQ qızı NURİYEVA** – baş müəllim

M.R.Nuriyeva 1965-cı ildə Bakı şəhərində anadan olmuşdur. 1983-1987-ci illərdə Azərbaycan Dövlət Pedagoji Universitetini, “Pedaqogika və psixologiya” ixtisası üzrə bitirmişdir. 1987-ci ildən göndərişlə Cəlilabad rayonunda orta məktəbdə müəllim vəzifəsində, 1990-cı ildən Binəqədi rayonunun məktəbəqədər tədris müəssisələrində tərbiyəçi vəzifəsində, 2004-cü ildən “Təfəkkür” Universitetində baş müəllim vəzifəsində çalışıbdır. 2005-ci ildən Bakı Dövlət Universitetinin dissertantıdır. 2007-ci ildən Bakı Dövlət Universitetinin Gender və Tətbiqi psixologiya kafedrasında müəllim vəzifəsində çalışır. 6 məqalənin və 2 tezisin müəllifidir. 6 məqalənin və 2 tezisin müəllifidir.

# PEDAQOGİKA KAFEDRASI




Pedaqogika kafedrası 1940-ci ildə yaradılmışdır. 1960-cı ilin oktyabr ayında iki müstəqil kafedranın:-“Məntiq və psixologiya” və “Pedaqogika” kafedralarının bazasında “Pedaqogika və psixologiya” kafedrası formalaşmışdır. 1960-1970-ci illər ərzində kafedraya professor Məmmədəli Cavad oğlu Məhərrəmov rəhbərlik etmişdir. 1971-ci ildən 1991-ci ilə kimi kafedranın müdiri professor Əkbər Salman oğlu Bayramov olmuşdur.1991-ci ildən pedaqogika kafedrası psixologiya kafedrasından ayrılmış, müstəqil kafedra kimi fəaliyyətə başlamışdır. Həmin vaxtdan kafedraya pedaqoji elmləri doktoru, professor Nübar Muxtar qızı Muxtarova rəhbərlik edir.

Kafedranın müəllimləri Universitetin bütün fakültələrində həm bakalavr, həm də magistr pillələrində “Məktəb pedaqogikası”, “Ali məktəb pedaqogikası”, “Sosial pedaqogika” və “Məktəbin idarə olunması” fənlərini tədris edir, respublika üzrə müəllim kadrları-

nın hazırlanmasında mühüm rol oynayırlar. Hazırda pedaqogika kafedrasında dörd nəfər professor (Nübar Muxtarova, Hikmət Əlizadə, Ləzifə Qasımova; Məcid İsmixanov), doqquz nəfər dosent (Rəhimə Mahmudova, Fəridə Həsənova, Mehparə Quliyeva, Nəzakət İmamverdiyeva, Səfurə Allahverdiyeva, Rəfiqə Bəxtiyarova, Qəmər Tağıyeva, Kəmalə Qəhrəmanova, Fərhad Məmmədov), iki nəfər baş müəllim (Afət Bayramova, Fövziyə İbrahimova), iki nəfər baş metodist (Şəhla Hüseynova və Vəfa Çıraqova) vəzifəsində çalışır.

Bu illər ərzində kafedranın müəllimlərindən N.M.Muxtarova, H.Ə.Əlizadə, L.N.Qasımova müvəffəqiyyətlə doktorluq dissertasiyası və 11 nəfər namizədlik dissertasiyası müdafiə etmişdir. Kafedranın alimləri N.M.Muxtarova, R.M.Mahmudova, H.Ə.Əlizadə, L.N.Qasımova elmi axtarışlarının nəticələri ilə Rusiya, Çin, Türkiyə, Malayziya, Almaniya və Gürcüstanda keçirilən beynəlxalq elmi konfranslarda çıxış etmişlər. Kafedrada 1991-ci ildən bu qədər aparıcı müəssisə kimi çoxlu sayda doktorluq və namizədlik dissertasiyasına rəy verilmişdir.

Kafedra əməkdaşları tərəfindən bakalavr və magistratura pilləsi üçün, o cümlədən aspiranturaya qəbul üzrə proqramlar tərtib edilmiş və vaxtaşırı yenidən işlənilərək çap edilmişdir.

Müstəqil fəaliyyət göstərdiyi illər ərzində kafedra əməkdaşları özlərinin elmi-metodik fəaliyyətində də bir sıra diqqət çəkən göstəricilər əldə etmiş, universitetin və eləcə də respublikanın elmi-pedaqoji həyatında yüksək fəallıq göstərmişlər. Kafedra üzvləri dərslik, dərs vəsaitləri, proqram və metodik göstərişlərin hazırlanması sahəsində müəyyən iş görmüş, elmi jurnallarda və elmi konfranslarda məqalə və tezislərlə çıxış etmişlər. Bu illər ərzində pedaqogika kafedrası 10 elmi-praktik konfrans keçirmişdir.

Pedaqogika kafedrası tədris-elmi fəaliyyəti ilə yanaşı ictimai işlərdə və xeyriyyə tədbirlərinin keçirilməsində də yaxından iştirak edir.Kafedranın müəllimləri xalqımızın ağır 1989-1993-cü illərində BDU-da yaralı əsgərlərə, şəhid olmuş tələbələrin ailəsinə, Beynəlxalq uşaq ili ilə əlaqədar olaraq Xocalı uşaqların xeyriyyə konserti keçirilməsinə rəhbərlik etmişlər. Kafedra əməkdaşları tə-

ləbələrlə birlikdə respublika Travmatologiya institutunun 7 saylı palatasının yaralı əsgərlərini hamiliyə götürmüşlər.

Kafedra əməkdaşları bu gün də öz elmi-pedaqoji fəaliyyətlərini inamla davam etdirir, müstəqil, azad və suveren respublikamızın gələcəyi naminə gənc nəslin təlim– tərbiyəsi işini günün tələbləri səviyyəsində qururlar.

Əfsuslar olsun ki, son illərdə kafedranın müəllimlərindən Sima Sadıxova, Amaliya Ələsgərova, Fatma Ələsgərova və Aydın Fərrux vaxtsız dünyalarını dəyişmişlər. Onların xatirəsi həmişə hörmətlə yad edilir.

**NÜBAR MUXTAR qızı MUXTAROVA –** pedaqoji elmlər doktoru, professor, kafedranın müdiri.

N.M.Muxtarova 1948-ci ildə Litvanın Şaulay şəhərində anadan olmuşdur. 1972-ci ildə V.İ.Lenin adına APİ-ni (indiki ADPU) bitirmişdir. 1986-cı ildən pedaqogika və psixologiya kafedrasında müəllim, dosent, 1991-ci Idən kafedra müdiri vəzifəsində çalışır. 1997-ci ildən professordur. 1988-ci ildə "Yuxarı sinif şagirdlərində burjuaziya ideologiyasına barışmazlığın yolları" mövzusunda namizədlik dissertasiyası, 1996-cı ildə "Yuxarı sinif şagirdlərinin milli şüur və milli ləyaqət tərbiyəsinin yol və vasitələri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 10 elmi-praktik konfransın (bunlardan 4-ü Beynəlxalq elmi-praktik konfrans) təşkilatçısı və rəhbəri olmuşdur. Bütün konfrans materialları çap olunmuşdur.

Professor N.M.Muxtarovanın rəhbərliyi altında 8 (Azərbaycan, Nigeriya, İran) aspirant və dissertantdan 7 nəfəri müdafiə etmiş və pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. O öz elmi axtarışları ilə Rusiya, Türkiyə, Çin, Malayziyada Beynəlxalq konfranslarda çıxış etmişdir. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının əmri ilə professor N.M.Muxtarova pedaqogika elmləri üzrə yeddi birdəfəlik müdafiə şurasının sədri olunmuşdur (1998-2003-cü ildə). Hal-hazırda Psixologiya elmləri üzrə Dissertasiya Şurasının üzvüdür.

N.Muxtarovanın rəhbərliyi ilə kafedra əməkdaşları bir sıra xeyriyyəçilik tədbirləri həyata keçirilmişlər. Bu xeyriyyəçilik

tədbirlərinin həyata keçirilməsində xüsusi xidməti olan kafedra müdiri, professor Nübar Muxtarovanın əməyi rektorluq tərəfindən qiymətləndirilmiş, rektorluğun 2/158 saylı əmri ilə ona yazılı təşəkkür elan edilmişdir

1999-cu ildən Bakı şəhər YAP Səbail rayon Qadınlar Məclisinin sədridir. "Heydər Əliyev-Milli "Mən"-in oriyentiri" adlı kitabın müəllifidir. Professor N.M.Muxtarova BDU-nun Böyük Elmi Şurasının və fakültə elmi şurasının üzvüdür.1999-cü ildən BDU-nun Böyük Elmi şurasının qərarı ilə nəşr olunan "Pedaqoji aləm" adlı jurnalın təsisçisi və baş redaktorudur.

Professor Muxtarova N.M. Müstəqil Azərbaycan Qadınlarının üç qurultayının və müəllimlərin iki qurultayının nümayəndəsi olmuşdur. 2007-ci ildə BDU-da "İlin müəllimi" adına layiq görülmüş, Təhsi Nazirliyi tərəfindən üç Fəxri Fərman ilə, "Zərdabi" adına diplomla, 2008-ci ildə Təhsil Nazirliyinin "Qabaqcıl Təhsil İşçisi" döş nişanı ilə mükafatlandırılmış, 2009-cu ildə BDU-nun 90 illik yubileyi ilə əlaqədar "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. İki kitab, iki monoqrafiya, 100-dən artıq məqalənin müəllifidir.

**HİKMƏT ƏBDÜL oğlu ƏLİZADƏ** – Pedaqoji elmləri doktoru, professor, fakültənin dekanı (haqqında bax: səh. 20)

**LƏZİFƏ NAĞI qızı QASIMOVA –** pedaqoji elmlər doktoru, professor.

L.N.Qasımova 1948-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. 1971-ci ildə V.İ.Lenin adına APİ-nin (indiki ADPU) filologiya fakültəsini bitirmişdir. 1975-1983-cü illərdə Naxçıvan Dövlət Universitetində müəllim, baş müəllim vəzifəsində işləmişdir. 1977-1981-ci illərdə aspiranturada təhsil almışdır. 1984-cü ildə BDU-nun Pedaqogika kafedrasında baş müəllim vəzifəsində işləməyə başlamışdı. 1987-ci ildə "Doğma diyarın öyrənilməsi ibtidai sinif şagirdlərinin vətənpərvərlik tərbiyəsinin vasitəsi kimi" mövzusunda namizədlik dissertasiyası, 2006-cı ildə "Orta ümumtəhsil məktəbləri şagirdlərinin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin nə-

zəriyyə və təcrübəsi" (V-IX siniflərin "Ədəbiyyat" və "Azərbaycan tarixi" fənləri üzrə) mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Hal-hazırda pedaqogika kafedrasının professorudur. Beş nəfər doktoranta elmi rəhbərlik edir. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasında pedaqogika üzrə ekspertdir. 2009-cu ildə BDU-nun 90 illik yubileyi ilə əlaqədar "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Respublikamızda keçirilən Beynəlxalq konfransların iştirakçısı olmuşdur. 3 monoqrafiyanın, bir dərsliyin, 90-ə yaxın məqalənin, bir neçə metodik vəsaitin müəllifidir.

**MƏCİD ABDULLA oğlu İSMİXANOV –** pedaqoji elmlər namizədi, professor.

M.A.İsmixanov 1940-cı ildə Quba rayonunda anadan olmuşdur. 1958-1962-cı illlərdə APİ-nin ibtidai təhsil pedaqoqikası və metodikası fakültəsini fərqlənmə diplomu ilə bitirib. İnstitutda assistent-müəllim kimi saxlanılmışdır. 1964-1982-ci illərdə APİ-də İbtidai təhsil pedaqogikası kafedrasında baş müəllim, dosent vəzifələrində işləmişdir.

1982-1987-ci illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı olan "Azərbaycan məktəbi" jurnalında işləmişdir. 1987-ci ildə BDU-da Pedaqogika kafedrasında dosent vəzifəsində işləməyə başlamışdı. Hal-hazırda professor vəzifəsini icra edir. Rusiya, Ukrayna, Belorusiya və başqa MDB respublikalarında elmi-praktik konfraslarda məruzə və tezislərlə çıxış etmişdir. Təhsil Nazirliyinin "Qabaqcıl maarif xadimi" döş nişanı, müxtəlif səviyyəli Fəxri Fərmanlarla təltif edilmişdir. Respublika Jurnalistlər Birliyinin üzvüdür. 15 kitabın (o cümlədən 5 dərslik və dərs vəsaitinin), 150-dən çox elmi məqalənin müəllifidir.

**RƏHİMƏ MAHMUD qızı MAHMUDOVA –** pedaqoji elmlər namizədi, dosent.

R.M.Mahmudova 1952-ci ildə Abşeron rayonunda anadan olmuşdur. 1970-1976-cı illərdə BDU-nun kimya fakültəsində təhsil almışdır. 1969-cu ildən BDU-da əmək fəaliyyətinə başlamışdır:

laborant, baş laborant, baş metodist, baş müəllim vəzifələrində çalışmışdır. Hal-hazırda pedaqogika kafedrasının dosentidir. 2003-cü ildə "Ali məktəbdə tələbə müstəqil işinin imkanları və yolları" mövzusunda namizədlik dissertasiyasını mudafiə etmişdir. "Ali məktəbdə tələbə müstəqil işinin beynəlxalq standartlara uyğun müqayisəli tətbiqi" mövzusunda doktorluq dissertasiyası üzərində işləyir. Respublikamızın bir çox ali məktəblərində tələbə müstəqil işinin təşkili onun apardığı tədqiqatların nəticələrinə əsaslanır. Son dövrlərdə Rusiyanın bir çox jurnallarında onun tələbə müstəqil işinin təşkili ilə bağlı məqalələri çap olunmuşdur. R.M.Mahmudovanın tədqiqatları geniş oxucu kütləsinin diqqətini cəlb etmişdir. Onun rəhbərliyi ilə iki aspirant dissertasiya işini tamamlamış və müdafiəyə təqdim etmişdir. 2009-cu ildə BDU-nun 90 illik yubileyi ilə əlaqədar Təhsil Nazirliyi tərəfindən "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunmuşdur.

Respublikamızda və xarici ölkələrdə keçirilən Beynəlxalq elmi-nəzəri konfranslarda iştirak etmişdir. Bir dərslik, bir dərs vəsaiti, iki monoqrafiya və 30-dan artıq məqalənin müəllifidir.

**FƏRİDƏ ABBAS qızı HƏSƏNOVA –** kimya elmləri namizədi, dosent.

F.A.Həsənova 1932-ci ildə Ordubad şəhərində anadan olmuşdur. 1954-cü ildə AzTU-nu bitirmişdir.1958-1966-ci illərdə Neft-Kimya Prosesləri Institutunda işləmişdir. 1966-1987-ci illərdə İqtisadiyyat Universitetində işləmişdir. 1987-ci ildən hal-hazıra kimi Bakı Dövlət Universitetnin Pedaqogika kafedrasında işləyir.5 Ümumrespublika və bir neçə beynəlxalq elmi konfransda iştirak etmişdir. Pedaqogika tarixi sahəsində elmi-tədqiqat işi aparır. 35 məqalənin və 1 patentin müəllifidir.

**MEHPARƏ ALIŞ qızı QULİYEVA –** filologiya elmləri namizədi, dosent.

M.A.Quliyeva 1949-cu ildə Füzuli rayonunda anadan olubdur. 1976-cı ildə V.İ.Lenin adına APİ-nin (indiki ADPU) filologiya fakültəsini bitirmişdir. 1977-ci ildən Bakı Dövlət Universitetinin

Pedaqogika kafedrasında baş laborant, müəllim, baş müəllim, dosent vəzifələrində çalışır. 1987-ci ildə "1970-1980-cı illərin Azərbaycan Sovet bədii nəsrində işlənmiş leksik dialekt sözləri" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 2002-ci ildən kafedranın dosentidir. Təhsil Nazirliyi tərəfindən "Qabaqcıl təhsil işçisi" döş nişanı və müxtəlif səviyyəli Fəxri Fərmanlarla təltif edilmişdir. Müasir gənclik və onların ailə həyatına hazırlanması yolları istiqamətində tədqiqatlar aparır. Respublikamızda və xarici ölkələrdə keçirilən Beynəlxalq elmi-nəzəri konfranslarda iştirak etmişdir.1 monoqrafiyanın, 2 dərs vəsaitinin, 50-dən çox məqalənin müəllifidir.

**NƏZAKƏT BƏYLƏR qızı İMAMVERDİYEVA –** filologiya elmlər namizədi, dosent.

N.B.İmamverdiyeva 1952-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1970-ci ildə BDU-nun filologiya fakültəsinə daxil olmuş, 1975-ci ildə həmin fakültəni bitirmişdir. 1975-1979-cu illərdə orta məktəbdə müəllim, 1980-cı ildən isə Bakı Dövlət Universitetinində kitabxanaçı, laborant, baş laborant, müəllim, baş müəllim, dosent vəzifələrində çalışmışdır. 1992-ci ildə "XIX əsr Azərbaycan ədəbiyyatında mənzum hekayə" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 3 kitabın, metodik vəsaitin, 50-dən artıq elmi məqalənin müəllifidir və 2 proqramın tərtibində iştirak etmişdir. Respublikada keçirilən Beynəlxalq elmi-praktik konfransın iştirakçısı olmuşdur. BDU – nun 90 illik yubileyi ilə əlaqədar Təhsil Nazirliyinin mükafatına layiq görül müşdür.

**SAFURA BAYRAM qızı ALLAHVERDİYEVA –** pedaqoji elmlər namizədi, dosent.

S.B.Allahverdiyeva 1948-ci ildə Qazax rayonunda anadan olmuşdur. 1970-ci ildə ADU-nun Filologiya fakültəsini bitirmişdir. Həmin ildən BDU-nun Pedaqogika kafedrasında baş laborant, müəllim, baş müəllim, dosent vəzifələrində işləyir. "Xan qızı Natavan" mükafatına layiq görülmüşdür, BDU-nun fəxri fərmanını almışdır. Respublikada keçirilən Beynəlxalq elmi-praktik konfransların iştirakçısı olmuşdur. 1 monoqrafiyanın və 17 məqalənin müəllifidir.

**RƏFİQƏ ƏLƏKBƏR qızı BƏXTİYAROVA –** tarix elmləri namizədi, dosent.

R.Ə.Bəxtiyarova 1950-ci ildə Gəncə şəhərində anadan olmuşdur. 1969-1973-cü illərdə N.Tusi adına Pedaqoji İnstitutun Tarix fakültəsində təhsil almışdır. 1976-1983-cü illərdə Bakı Yeyinti Sənayesi Texnikumunda müəllim işləmişdir.1985-ci ildən hal-hazıra kimi Bakı Dövlət Universitetinin Pedaqogika kafedrasında müəllim işləyir. 2004-cü ildə "Azərbaycanda ağac mərasimi" adlı namizədlik dissertasiyasını müdafiə etmişdir. Respublikada keçirilən Beynəlxalq elmi-praktik konfransların iştirakçısı olmuşdur. 2 monoqrafiyanın, 20-dən artıq məqalənin müəllifidir.

**QƏMƏR HÜSEYNƏLİ qızı TAĞIYEVA** – pedaqoji elmlər namizədi, dosent.

Q.H.Tağıyeva 1956-cı ildə Bakı şəhərində anadan olmuşdur. 1975-1980-ci ildə Azərbaycan Pedagoji Universitetinin pedaqogika və psixologiya fakültəsində təhsil almışdır. 1980-1994-cü illərdə M.Əzizbəyov adına Neft və Kimya İnstitutunda işləmişdir. 1994-cü ildən BDU-da laborant, müəllim, baş müəllim vəzifələrində çalışmışdır. Hazırda dosent vəzifəsini icra edir. 1999-cu ildə "Məktəblilərin şəxsi ləyaqət hissinin tərbiyəsində milli və ümumbəşəri dəyərlərin rolu " mövzusunda dissertasiya işi müdafiə etmişdir. Respublikada keçirilən Beynəlxalq elmi-praktik konfransların iştirakçısı olmuşdur. 1 kitibın, 8 elmi məqalənin, 1 metodik vəsaitin müəllifidir.

**KƏMALƏ KAMAL qızı QƏHRƏMANOVA –** psixologiya elmləri namizədi, dosent.

K.K.Qəhrəmanova 1967-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1989-cu ildə Azərbaycan Pedaqoji İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir. 1991-1994-cü illərdə Bakı Dövlət Universitetinin pedaqogika kafedrasının əyani aspirantı olmuşdur. Müstəqil Azərbaycan Qadınlarının 3 qurultayının nümayəndəsi olmuşdur. 2000-ci ildə "Yeniyetmələrin mənəvi keyfiyyətlərinin təşəkkülündə inam və dini etiqadın rolu" mövzusunda namizədlik dissertasiyası

müdafiə etmişdir. Respublikada keçirilən Beynəlxalq konfransların iştirakçısı olmuşdur. 1 monoqrafiyanın, 1 tədris vəsaitinin, 1 proqramın və 20-dən artıq məqalə və tezisin müəllifidir.

**FƏRHAD MANSUR oğlu MƏMMƏDOV** – dosent.

F.M.Məmmədov 1935-ci ildə Tovuz rayonunda anadan olmuşdur. 1962-ci ildə ADU-nun Filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1962-1968-ci illərdə Əli-Bayramlı şəhər məktəbində müəllim işləmişdir. 1969-cu ildən hal-hazıradək BDU-da Pedaqogika kafedrasında baş laborant, müəllim və baş müəllim vəzifələrində çalışmışdır. Hazırda dosent vəzifəsini icra edir. Beynəlxalq və Ümumrespublika elmi konfranslarında məruzə və tezislərlə çıxış etmişdir. Üç metodik vəsaitin, 50-dən çox elmi məqalənin müəllifi, 2 proqramın tərtibatçısıdır.

**AFƏT ABAN qızı BAYRAMOVA –** baş müəllim.

A.A.Bayramova 1949-cu ildə Bakı şəhərində anadan olmuşdur. 1966-1970-ci illərdə Azərbaycan Pedagoji Universitetinin “ Təbiətşünaslıq, kimya və coğrafiya” fakültəsində təhsil almışdır. 1970-1971-ci illər ərzində Saatlı rayonunda məktəb müəllimi işləmişdir. 1971-1986-ci illər ərzində BDU-da “Psixologiya və pedaqoqika” kafedrasında baş laborant işləmişdir. 1986-1990-ci illər ərzində müəllim, 1990-cı ildən indiyə kimi baş müəllim işləyir. Respublikada keçirilən Beynəlxalq elmi-praktik konfransların iştirakçısı olmuşdur. 30-dan artıq məqalə və tezisin müəllifidir.

**FÖVZIYYƏ HƏSƏN qızı İBRAHIMOVA –** baş müəllim.

F.H.İbrahimova 1932-ci ildə Ordubad şəhərində anadan olmuşdur. 1956-cı ildə APİ-ni bitirmişdır. 1956-1963-cü illərdə rayonda müəllim və məktəb direktoru vəzifəsində işləmişdir. 1963-1971-ci illərdə BDU-nun kimya fakültəsində laborant, 1971-2000-ci illərdə isə baş müəllim vəzifəsində çalışmışdır. 2001-ci ildən Pedaqogika kafedrasında baş müəllim vəzifəsində işləyir. Respublikada keçirilən Beynəlxalq elmi– praktik konfransların iştirakçısı olmuşdur. 20-ə qədər məqalənin müəllifidir.

**ŞƏHLA VAQİF qızı HÜSEYNOVA –** pedaqoji elmlər namizədi, baş metodist.

Ş.V.Hüveynova 1969-cu ildə Bakıda anadan olmuşdur. Bakı Dövlət Universitetində təhsil almışdır. 1995-ci ildən Bakı Dövlət Universitetinin pedaqogika kafedrasında baş metodistt vəzifəsində çalışır. Respublikada keçirilən Beynəlxalq elmi-praktik konfransların iştirakçısı olmuşdur. 2010-cu ildə "Təbiət fakültələrində tələbələrinin ekoloji tərbiyəsi üzrə işin sistemi" (ali məktəb materialları əsasında) mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 16 məqalənin müəllifidir.

**VƏFA MƏSİM qızı ÇIRAQOVA** – Pedagogika kafedrasının baş metodisti.

V.M.Çıraqova 1971-ci ildə Mingəçevir şəhərində anadan olmuşdur. 1989-1995-ci illərdə BDU-nun filologiya fakültəsində təhsil almışdır. 2005-ci ildən BDU-da kitabxanaçı, 2009-cu ildən pedaqogika kafedrasında baş metodist vəzifəsində çalışır. 2008-ci ildən Pedaqogika kafedrasının dissertantıdır. Respublikada keçirilən Beynəlxalq elmi-praktik konfransların iştirakçısı olmuşdur. 7 məqalə və tezisin müəllifidir.

# SOSİOLOGİYA KAFEDRASI



1991-ci ildə "Fəlsəfə və sosiologiya" adı altında fakültənin ilk ixtisas kafedrası kimi yaradılmışdır. Yarandığı gündən ona fəlsəfə elmləri doktoru, əməkdar elm xadimi, professor Cəmil Teymur oğlu Əhmədli rəhbərlik etmişdir.



C.T.Əhmədli 1931-ci ildə Gədəbəy rayonunun Söyüdlü kəndində anadan olmuşdur. 1948-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakultəsinin fəlsəfə şöbəsinə daxil olmuş, 1953-cü ildə oranı Stalin təqaüdü ilə bitirmişdir. Həmin ildə SSRİ Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun aspiranturasına daxil olmuşdur. 1956-cı ilin dekabr ayında "Azadlıq və zərurət" mövzusunda dissertasiya müdafiə etmiş və fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almışdır. 1957-ci ildə Azərbaycan SSR EA Fəlsəfə İnstitutuna elmi

katib vəzifəsinə qəbul edilmişdir. 1965-ci ildə “Materialist dialektikanın qanun kateqoriyası” mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, fəlsəfə elmləri doktoru elmi dərəcəsi adını almışdır. 1966-cı ildə professor adına layiq görülmüşdür.

1966-cı ilin sentyabr ayında bərpa edilən Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun fəlsəfə kafedrasına müdir vəzifəsinə dəvət edilmişdir. 1969-cu ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutu nəzdində sosioloji tədqiqatlar laboratoriyası yaratmışdır.

1990-cı ildə Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakultəsinin fəlsəfə və sosiologiya kafedrasının müdiri vəzifəsinə seçilmişdir.

Onun elmi rəhbərliyi ilə 100-ə qədər namizədlik, 12 doktorluq dissertasiya işi müdafiə edilmişdir. 30-dan çox beynəlxalq, ümumittifaq, zona və respublika konfranslarında aktual mövzularda məruzələrlə çıxış etmişdir. 1990-cı ildə əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. 1997-ci ilin fevral ayında Rusiya Pyotr Elmlər və İncəsənət Akademiyasının müxbir üzvü, 2000-ci ildə isə həmin Akademiyanın akademiki seçilmişdir. 2000-ci ilin dekabrında KİV həmkarlar ittifaqının təsis etdiyi “İman, izzət və iltifat” diplomunu almışdır. 2009-cu ildə BDU-nun 90 illik yubileyi ilə əlaqədar “Şöhrət” ordeninə layiq görülmüşdür. 400-ə qədər elmi monoqrafiyanın, dərslik və dərs vəsaitinin, məqalənin müəllifi olmuşdur.

2004-cü ildə fakültədə “Sosiologiya” ixtisası üzrə həm bakalavr, həm də magistratura təhsil pillələri üzrə kadr hazırlığının həyata keçirilməsi və “Fəlsəfə” istiqaməti üzrə digər ixtisas kafedralarının mövcudluğu nəzərə alınaraq bu kafedranın bazası əsasında “Sosiologiya” kafedrası yaradılmışdır. 2004-cü ildə Fəlsəfə elmləri doktoru, professor İzzət Əşrəf oğlu Rüstəmov “Sosiologi ya” kafedrasının müdiri seçilmişdir.

Hazırda kafedrada üç professor– (İzzət Əşrəf oğlu Rüstəmov, Kazım Ağamirzə oğlu Əzimov, Rəfail Musa oğlu Həsənov), səkkiz dosent (Fazil Qulammirzə oğlu Vahidov, Qızılgül Yasin qızı Abbasova, Tahir Bayram oğlu Ağayev, Hörmət Qənbərəli qızı Cavadova, Aygün Namiq qızı Məmmədova, Üzeyir Atamalı oğlu Şəfiyev, Sevil Aydın qızı İsmayılova, Rəna Okteadr qızı Məmmədova), dörd

müəllim (Yaqut Nadir qızı Əliyeva, Arzuman İsrafil oğlu Kosayev, Südabə Söhrab qızı Haşımova, Fərəh Rəhman qızı Xəlilova), bir kabinet müdiri (Kubra Əjdər qızı Ağayeva), iki metodist (Natəvan Xeyrulla qızı Nəcəfova, Rəna Hüseynəli qızı Qafarova) çalışır.

Sosioloji araşdırmalar sahəsində uğurlu elmi tədqiqatlar aparan Sosiologiya kafedrası fakültənin ixtisas kafedrası olub, sosiologiyanın bütün sahələrinin fakültədə tədrisini həyata keçirir.

## KAFEDRA ƏMƏKDAŞLARI HAQQINDA QISA BİBLİOQRAFİK MƏLUMAT

**İZZƏT ƏŞRƏF oğlu RÜSTƏMOV –** fəlsəfə elmləri doktoru, professor, kafedra müdiri.

İ.Ə.Rüstəmov 1932-ci ildə Gədəbəy rayonu Şınıx mahalının Düz-Rəsullu kəndində anadan olmuşdur. 1949-cu ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) Tarix fakültəsi nəzdindəki Fəlsəfə şöbəsinə daxil olub, 1954-cü ildə Universiteti fərqlənmə diplomu ilə bitiribdir. 1961-ci ildə “Həsən bəy Zərdabinin ictimai-siyasi və fəlsəfi görüş ləri” mövzusunda namizədlik dissertasiyasını, 1972-ci ildə “Azərbaycanda təbii-elmi biliyin inkişafının fəlsəfi problemləri (XIX və XX əsrin əvvəli)” mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1965-ci ildə dosent və 1977-ci ildə professor elmi adını alıbdır. Həmin ilin iyul ayında Azərbaycan KP MK-nın nümayəndə heyətinin tərkibində Sov.İKP Mk-nın “Tərbiyəyə kompleks yanaşma” mövzusunda təşkil etdiyi Ümumittifaq nəzəri konfransda iştirak etmişdir. Əmək fəaliyyətinə Bakı Dövlət Universitetinin Fəlsəfə kafedrasında başlamış, 1984-cü ilə qədər burada çalışmış, laborant, baş laborant, müəllim, baş müəllim, dosent, professor seçilmiş, Universitet azad partiya komitəsinin katibi olmuşdur. 1984-1987-ci illərdə Azərbaycan Dövlət Neft Akademiyası Fəlsəfə kafedrasının müdiri, 1987-1988-ci illərdə Azərbaycan KP yanında Partiya Tarixi İnstitutu direktorunun elmi işlər üzrə müavini, 1988-1994-cü illərdə Azərbaycan Dövlət Neft Akademiyası Fəlsəfə kafedrasının müdiri, 1994-1999-cu illərdə Azərbaycan Respublikası Baş Nazirinin müavini, 1999–2004-

cü illərdə Bakı Dövlət Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, 2004-cü ildən indiyədək Bakı Dövlət Universitetinin "Sosiologiya" kafedrasının müdiri vəzifəsində çalışır.

1991-ci ildə akademik S.İ.Vavilov adına medalla, 2007-ci ildə "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunmuşdur, Lütfi Zadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının xarici həqiqi üzvü (akademiki) seçilmişdir. 2009-cu ildə BDU-nun 90 illik yubileyi ilə əlaqədar "Şöhrət" ordeninə layiq görülmüşdür. 20 elmlər namizədi və 5 elmlər doktoru yetişdirmişdir. 10 kitabın, 120-yə yaxın məqalənin müəllifidir.

İ.Rüstəmov Azərbaycan Respublikasının Prezidenti yanında AAK-da Fəlsəfə elmləri üzrə Ekspert Şurasının ilk sədri, AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunda və Bakı Dövlət Universitetində Müdafiə Şuralarının üzvü, həmsədri, həmçinin BDU-da hüquq, beynəlxalq münasibətlər, siyasi elmlər üzrə Birdəfəlik Müdafiə Şuralarının üzvü, Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunda və BDU-da Müdafiə Şuraları nəzdində Elmi seminarların rəhbəri olmuşdur. Hazırda İzzət Rüstəmov Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunda fəlsəfə və sosiologiya elmləri üzrə Dissertasiya Şurasının, AMEA Rəyasət Heyəti nəzdində Problem Şurasının, BDU-da Böyük Elmi Şurasının, dekanların və kafedra müdirlərinin seçkisi üzrə Ümumuniversitet Komissiyasının, BDU-nun Nəşriyyat Şurasının üzvüdür.

**KAZIM AĞAMİRZƏ oğlu ƏZİMOV** – fəlsəfə elmləri doktoru, professor.

K.A.Əzimov 1951-ci ildə Bakıda anadan olubdur. 1973-cü ildə Xarici Dillər Institutunun ingilis dili fakültəsini bitirmişdir. 1974-1976-cı illərdə hərbi xidmətdə olmuşdur. 1975-1978-ci illərdə Moskva Dövlət Universitetinin fəlsəfə fakütləsinin əyani aspirantı olmuşdur. 1985-1988-ci illərdə Moskva Dövlət Universitetinin fəlsəfə fakütləsinin əyani doktorantı olubdur.

1979-cu ildə "Orta əsr Azərbaycanda etnik fikir və onun müasir Qərb şərhlərinin tənqidi" mövzusunda namizədlik, 1989-cu ildə "Qədim və orta əsr Azərbaycan fəlsəfəsində insan prob lemi" möv-

zusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1994-1996-cı illərdə Xəzər Universitetində kafedra müdiri və dekan vəzifələrində işləmişdir. 1996-2000-ci illərdə AMEA-nın Sosial fəlsəfə şöbəsinin aparıcı elmi işçisi olmuşdur. 2000-ci ildən BDU-da çalışır. K.A.Əzimov ABŞ, İngiltərə, Almaniya, Yunanıstan, Macarıstan, Türkiyə və digər xarici ölkə Universitetlərində çalışmışdır.

20-yə yaxın Beynəlxalq seminar, simpozium və konfranslarda iştirak etmişdir. 9 kitabın, 100-dən artıq məqalənin müəllifidir. Professor K.A.Əzimov 3 nəfər fəlsəfə üzrə doktor yetişdirmişdir.

**RƏFAİL MUSA oğlu HƏSƏNOV** – sosiologiya elmləri doktoru, professor.

R.M.Həsənov 1962-ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1980-1985-ci illərdə Kazan Dövlət Pedagoji İnstitutunun tarix-filologiya fakültəsinin tarix-ictimaiyyat və ingilis dili şöbəsində təhsil almış, 1985-1986-cı illərdə Kazanda əvvəlcə texniki peşə məktəbində, sonra isə Kazan energetika texnikumunda komsomol komitəsinin azad katibi vəzifəsində işləmişdir. 1989-cu ildən Azərbaycan Respublikası Sosioloji Tədqiqatlar Mərkəzində mühəndis-sosioloq kimi çalışmış, Azərbaycan Dövlət Neft Akademiyasında və Xəzər Universitetində pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 1998-ci ilin yanvar ayından Bakı Dövlət Universitetinin sosial elmlər və psixologiya fakültəsinin "Sosiologiya" kafedrasında (o vaxt "Fəlsəfə və sosiologiya" kafedrası) dosent vəzifəsinə qəbul edilmişdir. 2004-cü ildə doktorluq dissertasiyası müdafiə etmişdir. "Keçid dövründə vətəndaş cəmiyyəti quruculuğu, dövlətlə cəmiyyət arasında münasibətlərin tənzimlənməsi" və "Azərbaycanda demokratikləşmə problemləri" mövzusunda elmi-tədqiqat işi üzərində çalışır. 10-dan çox yerli və beynəlxalq proqram və layihələrin iştirakçısıdır. Çoxlu sayda beynəlxalq konfrans, forum və simpoziumlarda iştirak etmişdir. 3 kitabın, 2 dərs vəsaitinin və 60 məqalənin müəllifidir.

**FAZİL QULAMMİRZƏ oğlu VAHİDOV –** Fəlsəfə elmləri namizədi, dosent.

F.Q.Vahidov 1941-ci ildə Ağsu rayonunda anadan olmuşdur. 1958-1963-cü illərdə Bakı Dövlət Universitetinin Filologiya fakültəsində təhsil almış, Universiteti fərqlənmə diplomu ilə bitirmişdir. 1963-1965-ci illərdə Kürdəmir rayonundakı "Bolşevik" sovxozunda 8-illik məktəbdə müəllim işləmişdir. 1965-1967-ci illərdə Kürdəmir rayonundakı Böyük Kəngərli 8-illik məktəbinin direktoru olmuşdur. 1967-1970-ci illərdə BDU-nun Fəlsəfə kafedrasının əyani aspirantı olmuşdur. 1970-1974-ci illərdə BDU-nun Elmi kommunizm kafedrasının müəllimi və baş müəllim, 1974-1991-ci illərdə həmin kafedranın dosenti, 1992-2006-cı illərdə Sosial elmlər və psixologiya fakültəsinin dekanı işləmişdir. Hal-hazırda Sosiologiya kafedrasının dosentidir. 1971-ci ildə namizədlik dissertasiyası müdafiə etmişdir.

Bir neçə Beynəlxalq seminar, simpozium və konfranslarda iştirak etmişdir.

Dos. V.Q.Vahidov Təhsil Nazirliyinin elmi-metodik şurasının sosial-siyasi elmlər bölməsinin elmi katibidir. 2009-cu ildə Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi" fəxri adına layiq görülmüşdür. Onun rəhbərliyi altında ona qədər aspirat və dissertant namizədlik dissertasiyası müdafiə etmişdir. 1 broşuranın, 5 kitabın, 80-ə qədər elmi məqalənin müəllifidir.

**QIZILGÜL YASIN qızı ABBASOVA –** fəlsəfə elmlər namizədi, dosent, dekan müavini. (haqqında, bax: səh. 21)

**TAHİR BAYRAM oğlu AĞAYEV –** fəlsəfə elmlər namizədi, dosent.

T.B.Ağayev 1956-ci ildə Beyləqan rayonunda anadan olmuşdur. 1980-ci ildə BDU-nun tarix, 2000-ci ildə hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1987-1991-ci illərdə BDU-nun Elmi kommunizm kafedrasında baş laborant, 1991-ci ildə isə fəlsəfə və sosiologiya kafedrasında müəllim, baş müəllim işləmişdir. 1993-2003-cü illərdə Azərbaycan Respublikası Prezidenti yanında

xüsusi İdarədə məsul vəzifədə çalışmışdır. 2003-cü ildən sosiologiya kafedrasında baş müəllim, 2006-cı ildən dosent vəzifəsində işləyir. 1987-ci ildə "Elmi-texniki tərəqqi və kolxozçu kəndlilərin sosial strukturunun dəyişilməsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.

"Müasir Azərbaycan cəmiyyətinin sosial strukturunun inkişaf dinamikası" mövzusu üzrə elmi-tədqiqat işi aparır. 2 dərsliyin, 2 dərs vəsaitinin, 2 metodik vəsaitin, 4 proqramın, 50-yə yaxın məqalənin müəllifidir.

**HÖRMƏT QƏNBƏRƏLİ qızı CAVADOVA –** fəlsəfə elmləri namizədi, dosent.

H.Q.Cavadova 1953-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1971-1977-ci illərdə Bakı Dövlət Universitetinin tarix fakultəsində təhsil almışdır. 1982-86-cı illərdə BDU-nun qiyabi aspirantı olmuşdur. 1887-ci ildə namizədlik dissertasiya işini müdafiə etmiş və fəlsəfə elmləri namizədi elmi dərəcəsini almışdır. 1992-ci ildən BDU-nun sosiologiya kafedrasında kabinet müdiri, baş müəllim, dosent vəzifəsində çalışır. Mənəvi həyatın sosiologiyası mövzusunda elmi-tədqiqat işi aparır. 2 metodik vəsaitin, 5 proqram, 20-ə yaxın məqalənin müəllifidir. Fakültə həmkarlar təşkilatının sədridir.

**AYGÜN NAMIQ qızı MƏMMƏDOVA –** fəlsəfə elmləri namizədi, dosent.

A.N.Məmmədova 1963-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1985-ci ildə BDU-nun Biologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1989-1993-cü illərdə BDU-nun Sosioloji tədqiqatlar ETL-da baş laborant, 1993-1995-ci illərdə BDU-nun aspirantı, 1996-2004-cü illərdə BDU-nun Fəlsəfə və sosiologiya kafedrasında müəllim, 2004-2006-cı illərdə Sosiologiya kafedrasında baş müəllim işləmişdir. 2006-cı ildən etibarən həmin kafedranın dosenti vəzifəsində çalışır. 2001-ci ildə "Sosial münasibətlərin ekolojiləşməsi problemi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. "Müasir dövrdə Azərbaycan dövlətinin ekoloji siyasəti" mövzusunda elmi-tədqiqat işi aparır.

1 dərs vəsaitinin, 1 metodik vəsaitin, 12 məqalənin müəllifi və 6 proqram tərtibatçısıdır.

**ÜZEYİR ATAMALI oğlu ŞƏFİYEV –** sosiologiya elmləri namizədi, dosent, dekan müavini. (haqqında bax: səh. 22-23)

**SEVİL AYDIN qızı İSMAYILOVA –** fəlsəfə elmləri namizədi, dosent.

S.A.İsmayılova 1967-ci ildə Bakı şəhərində anadan olubdur. Orta məktəbi 1984-ci ildə müvəffəqiyyətlə bitirdikdən sonra Bakı Dövlət Universitetinin Tarix fakültəsinə daxil olubdur. 1989-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitiribdir. Fəlsəfə və sosiologiya kafedrasının qiyabi aspirantı olmuşdur. 1996-ci ildən fəlsəfə elmləri namizədidir. S.A.İsmayılova 1989-cı ildə Bakı Dövlət Universitetinin Fəlsəfə (humanitar elmlər üzrə) kafedrasına baş laborant vəzifəsinə qəbul olunubdur, 1996-ci ildən Sosiologiya kafedrasında baş müəllim vəzifəsində çalışmışdır, 2008-ci ildən isə həmin kafedranın dosentidir.

S.A İsmayilova 3 metodik vəsaitin, 9 proqramın, 9 tezisin və 30-dan çox elmi məqalənin müəllifidir. O, respublikamızda keçirilən bir sıra elmi konfranslarda məruzələrlə çıxış etmişdir. S.A.İsmayilova həmçinin beynəlxalq elmi tədbirlərdə də iştirak edibdir. Məsələn, Türkiyədə, Istanbul Universitetində keçirilən sosioloqların elmi konfransında, Kocaelində keçirilən Türk Dünyası Sosioloqların Qurultayında, Istanbulda keçirilən Beynəlxalq Ailə Simpoziumunda uğurla çıxış edib, İngiltərə və Ukraynada keçirilən qiyabi elmi konfransda bürünc diplom ilə təltif olunubdur. Eləcə də, Bakı Dövlət Universitetinin Fəxri Fərmanı ilə mükafatlandırılıbdır.

**RƏNA OKTEADR qızı MƏMMƏDOVA –** fəlsəfə elmləri namizədi, dosent.

R.O.Məmmədova 1973-cü ildə Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1990-cu ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Sosiologiya bölməsinə daxil olmuşdur. 1995-ci ildə Sosial elmlər və psixologiya fakültəsinin Sosiologiya ixtisasını

fərqlənmə diplomu ilə bitirmişdir. 1995-ci ildən Fəlsəfə və sosiologiya (indiki Sosiologiya) kafedrasında çalışır. 1995-2003-cü illərdə müəllim, 2003-2008-ci illərdə baş müəllim, 2008-2010-ci illərdə dosent əvəzi, 2011-cu ildən indiyə kimi dosent vəzifəsində çalışır. 2000-ci ildə "Azərbaycan Respublikasının sosial strukturunun dəyişilməsinin başlıca meylləri (1980-90-cı illər)" mövzusunda fəlsəfə elmləri namizədi elmi dərəcəsi almaq üçün dissertasiyanı müdafiə etmişdir. Beynəlxalq konfranslarda iştirak edir. Hazırda "Azərbaycanda yeni ictimai münasibətlər sisteminin formalaşması amilləri" mövzusunda doktorluq dissertasiyası mövzusu üzərində çalışır. 1 metodik vəsaitin, bakalavr və magistratura pillələri üçün 10-dan çox proqramın, 30-a yaxın məqalə və tezisin müəllifidir.

**YAQUT NADİR qızı ƏLİYEVA –** sosiologiya elmləri namizədi, müəllim.

Y.N. Əliyeva 1973-cü ildə  Ermənistan Respublikasının Noyemberyan rayonunda anadan olmuşdur. 1992-1998-ci illərdə BDU-nun Sosial elmlər və psixologiya fakültəsini "Sosio logiya" ixtisasında (əyani) və Azərbaycan Dövlət İqtisad Universitetinin İqtisadiyyatın tənzimlənməsi fakültəsində (qiyabi) təhsil almışdır. 1997-2001-ci illərdə BDU-nun Fəlsəfə və sosiologiya kafedrasında "Sosiologiyanın nəzəriyyəsi, metodologiyası və tarixi" ixtisası üzrə qiyabi aspirant olmuşdur.  2007-ci ildə "Azərbaycan cəmiyyətinin sosial strukturunun dəyişilməsi meylləri" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 2000-ci ildən BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin Sosio logiya kafedrasında müəllim vəzifəsində işləyir. Ailənin sosiologiyası, sosial strukturun sosiologiyası, sosial siyasət sahəsində elmi-tədqiqat işi aparır. Bir neçə beynəlxalq seminar, simpozium və konfranslarda iştirak etmişdir. 14 proqram və 30-a yaxın məqalə və tezisin müəllifidir.

**ARZUMAN İSRAFİL oğlu KOSAYEV –** sosiologiya kafedrasının müəllimi.

A.İ.Kosayev 1981-ci ildə Ermənistan Respublikasının Spitak rayonunda anadan olmuşdur. 2001-ci ildə Bakı Dövlət Universite-

tinin Sosial elmlər və psixologiya fakültəsini bitirmişdir. 2003-cü ildə həmin fakültənin magistraturasını bitirmişdir. 2004-cü ildən BDU-nun Sosial elmlər və psixologiya fakultəsində metodist kimi əmək fəaliyyətinə başlamışdIr. 2006-cI ildən həmin fakultənin sosiologiya kafedrasının müəllimidir. 2006-cı ildən 2008-ci ilə qədərki dövrdə BDU-nun sosial elmlər və psixologiya fakultəsində dekan müavini işləmişdir. 2008-ci ildən BDU-nun qiyabi və əlavə təhsil üzrə prorektorluğunda çalışır. 2010-cu ildə “Qloballaşma və milli təhlükəsizlik” mövzusunda sosiologiya üzrə fəlsəfə doktorluğu dissertasiyası müdafiə etmişdir. 15-ə qədər məqalənin müəllifidir.

**SÜDABƏ SÖHRAB qızı HAŞIMOVA –** müəllim.

S.S.Haşımova 1973-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1990-cı ildə Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakultəsinin Sosiologiya ixtisasına qəbul olunmuşdur. 1995-ci ildə həmin fakultəni fərqlənmə diplomu ilə bitirmişdir.

“Şəxsiyyətin formalaşmasının sosial-psixoloji parametrləri” mövzusunda sosiologiya elmləri üzrə fəlsəfə doktorluğu dissertasiyası üzərində işləyir. Şəxsiyyətin sosiologiyası mövzusu üzərində elmi-tədqiqat işi aparır. 6 məqalə və 13 tezisin, 6 proqramın müəllifidir.

**FƏRƏH RƏHMAN qızı XƏLİLOVA –** müəllim.

F.R.Xəlilova 1976-cı ildə Bakı şəhərində anadan olmuşdur. 1993-cü ildə Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin Sosiologiya ixtisasına daxil olmuşdur. 1997-ci ildə bakalavr pilləsini, 1999-cu ildə magistratura pilləsini fərqlənmə diplomu ilə bitirmişdir. 1999-cu ilin dekabr ayından Bakı Dövlət Universitetinin Fəlsəfə və Sosiologiya (indiki Sosiologiya) kafedrasının müəllimidir. “Cinayətkarlığın sosioloji təhlili” mövzusunda elmi-tədqiqat işi aparır. 2009-cu ilin dekabrında sosiologiya üzrə fəlsəfə doktorluğu dissertasiyası müdafiə etmişdir. 9 elmi məqalənin müəllifi, 3 proqramın tərtibatçısıdır.

**KÜBRA ƏJDƏR qızı AĞAYEVA –** kabinet müdiri.

K.Ə.Ağayeva 1942-ci ildə Xaçmaz rayonunda anadan olmuşdur. 1960-cı ildə Bakıdakı 199 saylı orta məktəbi bitirdikdən sonra, Bakı Statistika Texnikumuna daxil olmuş, 1962-ci ildə oranı bitirmişdir. Həmin ildə Azərbaycan Dövlət İncəsənət Universitetinin (ADİU) mədəni maarif fakültəsinə daxil olmuş, 1967-ci ildə oranı bitirdikdən sonra, ADİU-da əmək fəaliyyətinə başlamışdır. 1969-cu ildən BDU-nun kimya fakültəsində katibə, 1970-ci ildən isə Hazırlıq şöbəsində laborant işləmişdir. 1979-cu ildə Psixologiya və Pedaqogika kafedrasında baş laborant vəzifəsində çalışmışdır. 1994-cü ildən Sosial elmlər və psixologiya fakültəsinin "Sosiologiya" kafedrasında kabinet müdiri işləyir. 7 məqalənin və metodik vəsaitin müəllifidir.

**NATƏVAN XEYRULLA qızı NƏCƏFOVA –** baş metodist.

N.X.Nəcəfova 1972-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1989-cu ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutuna qəbul olunmuş, 1994-cü ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1995-ci ildə BDU-nun Fəlsəfə və sosiologiya (hazırda Sosiologiya) kafedrasında baş metodist vəzifəsində çalışır. 2 məqalənin müəllifidir.

**RƏNA HÜSEYNƏLİ qızı QAFAROVA –** baş metodist

R.H.Qafarova 1971-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1997-ci ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin axşam şöbəsini bitirmişdir. 1994-cü ildən BDU-nun Fəlsəfə və sosiologiya kafedrasında (hazırda Sosiologiya) baş metodist vəzifəsində işləyir. 1998-ci ildən bu kafedrada "sosial fəlsəfə" ixtisası üzrə dissertantdır. 5 məqalənin və bir neçə tezisin müəllifidir.

# POLİTOLOGİYA VƏ SOSİOLOGİYA KAFEDRASI



Politologiya və sosiologiya kafedrası 1967-ci ildə yaradılmış "Elmi kommunizm" kafedrasının bazası əsasında formalaşıb və 1991-ci ildən bu günə kimi bu adla fəaliyyət göstərir. Vaxtılə Elmi kommunizm kafedrasında görkəmli filosoflar – akademik Ramiz Mehdiyev, professor Əlikram Abdullayev, dosent Nadir Şıxlı və başqaları çalışmış, Universitetin müxtəlif fakültələrində dərs demişlər.

Kafedraya 1967-ci ildən 1997-ci ilə qədər fəlsəfə elmləri doktoru, professor Həsən İsmayıl oğlu Şirəliyev rəhbərlik etmişdir.

XX əsrin II yarısında Azərbaycan elminin və təhsilinin ən görkəmli nümayəndələrindən biri kimi tanınmış fəlsəfə elmləri doktoru, professor, əməkdar elm xadimi Həsən İsmayıl oğlu Şirəliyev 1929-cu ildə Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Düdəngə kəndində anadan olmuşdur.



1946-cı ildə Yengicə kəndindəki orta məktəbi gümüş medalla bitirmişdir. 1947-ci ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinin fəlsəfə şöbəsinə daxil olmuş, 1952-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirmişdir. 1952-1953-cü illərdə Naxçıvanın Şərur rayonundakı Yengicə kənd orta məktəbində direktor işləmişdir. 1953-1956-cı illərdə Bakı Dövlət Universitetində fəlsəfə ixtisası üzrə aspiranturada təhsil almış, 1957-1958-ci illərdə AMEA-nın Fəlsəfə bölməsinin elmi katibi işləmişdir.

1958-ci ilin sentyabrından BDU-nun "Fəlsəfə" kafedrasında elmi-pedaqoji fəaliyyətə başlamışdır. Həmin ildə fəlsəfə elmləri üzrə namizədlik dissertasiyasını işi müdafiə etmişdir. 1967-ci ildə BDU-nun "Elmi kommunizm" kafedrasının müdiri seçilmiş, sonradan isə həmin kafedranın bazasında yaradılmış politologiya və sosiologiya kafedrasının müdiri olmuşdur. H.Şirəliyev 1975-ci ildə doktorluq dissretasiyası müdafiə etmiş, 1978-ci ildən isə BDU-nun professoru olmuşdur. Onun elmi-pedaqoji və ictimai-siyasi fəaliyyəti çoxşaxəli olmuşdur. O, fəlsəfənin müxtəlif sahələri üzrə 10-dan çox monoqrafiya, dərslik, politologiya və sosiologiya elminə aid dərslik yazmışdır. H.İ.Şirəliyev 100-dən çox elmi məqalənin müəllifi olmuşdur. O bir sıra siyasi əsərləri rus dilindən Azərbaycan dilinə tərcümə etmişdir.

H.İ.Şirəliyev yüksək ixtisaslı kadrların hazırlanması sahəsində çox iş görmüşdür. O, Azərbaycan, habelə keçmiş SSRİ-nin digər respublikaları üçün 75 nəfərdən çox elmlər doktoru və elmlər namizədi hazırlamışdır. H.İ.Şirəliyev həmçinin ADR, Bolqarıstan, Polşa, Çexoslovakiya, Vyetnam, Monqolustan üçün elmi-pedaqoji kadrların hazırlanması işinə layiqli töhfə vermiş, bu ölkələrdən gələn dissertant və aspirantların elmi rəhbəri olmuşdur. Elmin inkişafı və yüksək ixtisaslı kadrların hazırlanması sahəsində mühüm xidmətlərinə görə o, 1980-ci ildə "Əməkdar elm xadimi" adına, 1985-ci ildə isə "SSRİ ali məktəb əlaçısı" döş nişanına layiq görülmüşdür.

Professor H.Şirəliyevin hazırladığı “Politologiya” dərsliyindən bu gün də ali məktəblərin tələbələri geniş istifadə edirlər. O, 30 il ərzində BDU-da əvvəlcə Elmi kommunizm, sonra isə Politologiya və sosiologiya kafedrasının müdiri olmuş, bir sıra məsul vəzifələrdə də çalışmışdır.

Hazırda Universitetdə Həsən müəllimin adı xüsusi rəğbətlə yad edilir.O, rəhbərlik etdiyi müddətdə kafedranın bütün üzvlərinə, o cümlədən tələbələrə xüsusi həssaslıqla yanaşmış, onların elmi-intellektual və mənəvi inkişafı üçün əlindən gələni əsirgəməmişdir. Prof. H.İ.Şirəliyev haqqında redaktoru dosent F.Q.Vahidov, tərtibçisi dosent İ.Ə.Eyyubovun olduğu “Ölüm sevinməsin qoy” adlı xatirə kitabı nəşr olunmuşdur.

1997-ci ildən Politologiya və sosiologiya kafedrasına prof. H.İ.Şirəliyevin yetirməsi, fəlsəfə elmləri namizədi, professor Əli Cavad oğlu Əhmədov rəhbərlik edir.

Politologiya və sosiologiya kafedrasının müəllimləri həm universitetin, həm də ölkənin ictimai-siyasi həyatında fəal iştirak edirlər. Kafedranın dosenti V.M. Cəfərova Almaniyada keçirilən beynəlxalq müsabiqənin diplomuna, 2007-ci ilin aprelində keçirilən “Nəsillərlə üz-üzə” beynəlxalq layihəsinin eksperti olaraq, Təhsil Nazirliyinin diplomuna layiq görülmüşdür. Kafedranın dosenti H.B.Məmmədov Qazaxıstanda keçirilən “Türkdilli dövlətlərin inkişafında liderlərin rolu” beynəlxalq konfransında fəxri professor adına layiq görülmüşdür və s.

Politologiya və sosiologiya kafedrasının əməkdaşları respublikamızın ictimai-siyasi həyatında fəal iştirak etməklə yanaşı, aktual elmi-siyasi problemlər üzrə tədqiqatlar aparırlar. Kafedra bütün fakültələrdə politologiya və sosiologiya, Sosial elmlər və psixologiya fakültəsinin ixtisas qruplarında siyasi elmin xüsusi kurslarını tədris edirlər.

Kafedra 1994-2011-ci illərdə özünün məqsədyönlü fəaliyyəti ilə xüsusilə seçilir. Bu dövrdə “Politologiya” elminin öyrənilməsində əsas diqqət Azərbaycan Respublikasında dövlətçilik ənənələrinin möhkəmləndirilməsinə və vətəndaşların siyasi şüurunun daha da artırılmasına yönəlmişdir.

Hal-hazırda kafedrada bir professor (Əli Cavad oğlu Əhmədov), 13 dosent (Azər Mehdi oğlu Şirinov, Arif Sədi oğlu Rustəmov, Məcid Əhməd oğlu Əfəndiyev, Abbas Musa oğlu Piriyev, Vəsxanım Meylaqulu qızı Cəfərova, Zülfəli Heyvəli oğlu İbrahimov, İsmayıl Əhməd oğlu Eyyubov, Hikmət Baba oğlu Məmmədov, Nazim Sadıq oğlu İbadov, Rəhilə İldar qızı Bədəlova, Zemfira Əmrah qızı Əhmədova, Xatirə Bəxtiyar qızı Əfəndiyeva, Tahir Rza oğlu Behbudov), bir nəfər baş müəllim Rafiq Ataş oğlu Rəsulov, beş nəfər müəllim Mehman Zahid oğlu Həsənov, Ülviyyə Əlisahib qızı Quliyeva, Validə Əbdüləziz qızı Mustafayeva, Elşad Mirbəşiroğlu, Sevinc Əli qızı Əliyeva, Gülşən Fazil qızı Məmmədova, iki nəfər baş metodist (Könül Mədət qızı Şıxıyeva, Daşqın Allahverdi oğlu Rəcəbli), 1 nəfər metodist (Məftunə Rəşid qızı Abdullayeva) çalışır.

## KAFEDRA ƏMƏKDAŞLARI HAQQINDA QISA BİBLİOQRAFİK MƏLUMAT

**ƏLİ CAVAD oğlu ƏHMƏDOV –** fəlsəfə elmləri namizədi, professor, kafedranın müdiri.

Ə.C.Əhmədov 1953-ci ildə Ermənistanın Krasnoselski rayonunun Dərəkəndində anadan olmuşdur. 1970-ci ildə BDU-nun Tarix fakültəsinə daxil olmuş, sonradan təhsilini Moskva şəhərində davam etdirmişdir. 1976-1978-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyada işləmişdir. 1978-ci ildən BDU-nun Politologiya və Sosiologiya kafedrasında çalışır. 1997-ci ildən həmin kafedranın müdiridir. Yeni Azərbaycan Partiyasının sədr müavini, partiyanın icra katibi, Milli Məclisin deputatıdır. Professor Ə.C.Əhmədov əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini – İcraçı katibi kimi respublikada geniş ictimai-siyasi fəaliyyət göstərir, dövlət quruculuğu prosesinə, dövlətimizin ərazi bütövlüyünün bərpası uğrunda gedən mübarizəyə ciddi töhvələr verir. Bununla yanaşı, o, yeni cəmiyyət quruculuğu üçün kadr hazırlığına xüsusi diqqət yetirir. 1 dərsliyin (mərhum H.Şirəliyevlə birlikdə), 6 monoqrafiyanın və 60-a yaxın məqalənin müəllifidir.

**AZƏR MEHDİ oğlu ŞİRİNOV** – fəlsəfə elmləri namizədi, dosent.

A.M.Şirinov 1937-ci ildə Ağdaş rayonunda anadan olmuşdur. 1956-cı ildə ADU-nun Tarix fakültəsinə daxil olmuşdur, 1961-cu ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1964-cü ildə ADU-da Elmi kommunizm ixtisası üzrə aspiraturaya daxil olmuşdur. 1961-ci ildə İncəsənət İnstitututunda kabinet müdiri vəzifəsində çalışmışdır. 1969-cü ildə fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almışdır. 1973-cü ildən 1991-cü ilə qədər S.M.Kirov adına ADU-nun Elmi kommunizm kafedrasında işləmişdir. O, 1991-ci ildən hal-hazıradək BDU-nin Politologiya və sosiologiya kafedrasında dosent vəzifəsində çalışır. 2009-cu ildə Azərbaycan Təhsil Nazirliyinin Qabaqcıl təhsil işçisi fəxri adına layiq görülmüşdür. Ümumilikdə 5 kitabın, 80-ə yaxın məqalənin müəllifidir.

**ARİF SƏDİ oğlu RÜSTƏMOV** – fəlsəfə elmləri namizədi dosent, dekan müavini. (haqqında bax: səh. 22)

**MƏCİD ƏHMƏD oğlu ƏFƏNDİYEV** – fəlsəfə elmlər namizədi, dosent.

M.Ə.Əfəndiyev 1938-ci ildə Şamaxı rayonunda anadan olmuşdur. 1960-cı ildə Şamaxı Tibbi Texnikumunu, 1967-ci ildə ADPU-nun Tarix fakültəsini bitirmişdir. 1973-cü ildə “Kənd ziyalıları və kəndin mənəvi həyatında onların rolu” mövzusunuda namizədlik dissertasiyası müdafiə etmişdir. 1975-ci ildən BDU-da çalışır. 2009-cu ildə Azərbaycan Təhsil Nazirliyinin əmri ilə “Qabaqcıl Təhsil işçisi” adına layiq görülmüşdür. Ümumilikdə10 kitabın, 100 məqalənin müəllifidir.

**ABBAS MUSA oğlu PİRİYEV** – fəlsəfə elmlər namizədi, dosent.

A.M.Piriyev 1940-cı ildə Gədəbəy rayonunda anadan olmuşdur. 1965-ci ildə ADU-nun Tarix fakültəsini fərqlənmə dip-lomu ilə bitirmişdir. 1973-1975-ci ildə ADU-nin aspiranturasında təhsil almışdır. 1975-ci ildə “Elmi texniki tərəqqi və mənəvi mədəniyyət”

mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1 monoqrafiyanın, 4 kitabın, 60 məqalənin müəllifidir. 3 nəfər elmlər namizədi yetişdirmişdir.

**VƏSXANIM MEYLAQULU qızı CƏFƏROVA –** fəlsəfə elmləri namizədi, dosent

V.M.Cəfərova 1955-ci ildə Sumqayıt şəhərində anadan olmuşdur. 1976-cı ildə BDU-nun filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1976-78-ci illərdə Qusar rayonunun Xuray kənd məktəbində müəllim işləmişdir. 1978-81-ci illərdə BDU-nun aspiranturasında əyani təhsil almışdır. 1981-1996-cı illərdə Azərbaycan Memarlıq və İnşaat Mühəndisləri Universitetində müəllim, baş müəllim və dosent vəzifələrində işləmişdir. 1996-cı ildən BDU-nun politologiya və sosiologiya kafedrasının dosentidir. 1985-ci ildə "Sovet həyat tərzi və şəxsiyyətin əxlaqi inkişafı" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 2005-ci ildə Almaniyada keçirilmiş "Tarix boyu Azərbaycan xalqına qarşı aparılmış soyqırım" mövzusunda beynəlxalq müsabiqənin və "Gələcək nəsillərlə üz-üzə" I və II ümumrespublika müsabiqəsinin diplomlarına və mükafatlarına layiq görülübdür. 2006-ci ildə onun "Azərbaycan həqiqətləri" adlı məqaləsi "Yeni körpü" jurnalında alman dilində çap olunubdur. V.Cəfərova 2007-2011-ci illər üzrə "Minilliyin çağırışı" beynəlxalq layihəsinin münsiflər heyətinin üzvüdür. "Bazar iqtisadiyyatına keçid: ziddiyyətlər və onların həlli yolları", "Dünya dövlətlərinin siyasi sistemi" istiqamətlərində tədqiqat işi aparır. 7 kitabın, 70-dən artıq məqalənin müəllifi və 1 dərsliyin həmmüəllifidir. İşlədiyi müddətdə 4 dəfə rektorluğun təşəkkürünü almışdır. Fakültə Metodik şurasının üzvüdür.

**ZÜLFƏLI HEYVƏLI oğlu İBRAHİMOV –** fəlsəfə elmləri namizədi, dosent.

Z.H.İbrahimov 1946-ci ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda anadan olmuşdur. 1969-cu ildə ADU-nu bitirmişdir. 1986-ci ildə namizədlik dissertasiyası müdafiə etmişdir. Qloballaşma şəraitində Azərbaycan Respublikasının milli

mənafeyi, siyasi münaqişələr və onların həlli yolları problemləri üzrə elmi-tədqiqat işi üzərində çalışır. 3 monoqrafiyanın, 45-ə qədər məqalənin müəllifidir.

**İSMAYIL ƏHMƏD oğlu EYYUBOV –** fəlsəfə elmləri namizədi, dosent.

İ.Ə.Eyyubov 1940-cı ildə Qəbələ rayonunda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1958-ci ildən kolxozda işləmişdir. 1962-ci ildə Bakıda Azərbaycan KP MK – nın nəşriyyatında işləmişdir. 1965-ci ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir. 1965-1969-cı illərdə Universitetin Elmi kitabxanasında baş biblioqraf işləmişdir. 1970-1976 illərdə Universitetin Elmi kommunizm kafedrasında baş laborant, 1976-cı ildən müəllim, 1978-ci ildə isə baş müəllim vəzifələrində çalışmışdır. 1968-ci ildə SSRİ Jurnalistlər İttifaqına üzv qəbul olunmuşdur. Hal-hazırda Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

1981-cı ildə fəlsəfə elmləri üzrə namizədlik dissertasiyası müdafiə etmişdir. 1988-ci ildə Elmi kommunizm kafedrasının dosenti seçilmişdir. Hal-hazırda BDU-nun Politologiya və sosiologiya kafedrasının dosentidir. 200-ə yaxın elmi-kütəvi və siyasi-analitik məqalənin müəllifidir. 2009-cu ildə Azərbaycan İnformasiya Vasitələri İşçilərinin Həmkarlar İttifaqı Rəyasət Heyətinin qərarı ilə "Qızıl Qələm" Media mükafatına layiq görülmüşdür. 2011-ci ildə "Xalqın nüfuzlu ziyalısı" fəxri diplomuna layiq görülmüşdür.

**HİKMƏT BABA oğlu MƏMMƏDOV –** siyasi elmlər namizədi, dosent.

H.B.Məmmədov 1966-cı ildə anadan olmuşdur. 1997-ci ildə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun Politologiya fakültəsini fərqlənmə diplomu ilə bitiribdir. 1997-2007-ci illərdə Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi Mətbuat Xidməti və Analitik İnformasiya Mərkəzinin rəhbəri olmuşdur. 2005-ci ildə namizədlik dissertasiyası müdafiə edərək siyasi elmlər namizədi elmi dərəcəsini almışdır.2007-ci ildən Politologiya və sosiologiya kafedrasında çalışır. 2007-ci ildə "Türkdilli dövlətlərin siyasətinə dəstək Fondu"nun

Fəxri Fərmanı ilə təltif edilmişdir. 2008-ci ildə Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçiləri Həmkarlar İttifaqı Rəyasət Heyətinin qərarı ilə "Qızıl Qələm" Media mükafatına layiq görülmüşdür. 2007-ci ildən Qazaxıstan Respublikasının "Ekonomika və Konsaltinq" Universitetinin humanitar fənlər üzrə fəxri professorudur. Hazırda "Yeni Azərbaycan" qəzetinin baş redaktorudur. 230-dan çox məqalənin, 2 monoqrafiyanın, 2 kitabın müəllifidir.

**NAZİM SADİQ oğlu İBADOV –** fəlsəfə elmləri namizədi, dosent.

N.S.İbadov 1955-ci ildə Ucar rayonunda anadan olmuşdur. 1977-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu (indiki Azərbaycan Dövlət İqtisad Universitetini) bitirmişdir. 1984-cü ildə "Şəhər və kəndin sosial yaxınlaşmasında aqrar-sənaye inteqrasiyasının rolu" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.

1977-ci ildən BDU-nun indiki politologiya və sosiologiya kafedrasında çalışır. 3 tədris vəsaitinin, 5 proqramın, 50-ə qədər məqalənin müəllifidir.

**RƏHİLƏ İLDAR qızı BƏDƏLOVA –** fəlsəfə elmləri namizədi, dosent.

İ.B.Bədəlova 1947-cı ildə Bakı şəhərində anadan olmuşdur. 1969-cu ildə ADU-nun Filologiya fakültəsinə daxil olmuş, 1974-cü ildə oranı bitirmişdir. 1974-cü ildə Şamaxı rayonu Ərəbşalbaş kəndində Azərbaycan dili və ədəbiyyatı müəllimi vəzifəsində işləmişdir. 1975-ci ildə BDU-nun Elmi kommunizm kafedrasında laborant vəzifəsində, daha sonra baş laborant və kabinet müdiri vəzifələrində çalışmışdır. 1986-cı fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almışdır. 1995-ci ildən BDU-nin Politologiya və sosiologiya kafedrasında müəllim vəzifəsində çalışır. Hal-hazırda həmin kafedranın dosentidir. 30 məqalənin, 1 metodik vəsaitin müəllifi, 2 proqramın tərtibatçısıdır.

**ZEMFİRA ƏMRAH qızı ƏHMƏDOVA** – fəlsəfə elmləri namizədi, dosent.

Z.Ə.Əhmədova 1963-cü ildə Ağstafa şəhərində anadan olmuşdur. 1986-cı ildə Leninqrad Dövlət Universitetinin fəlsəfə fakültəsini bitirmişdir. 1986-1999-cu illərdə Sumqayıt Dövlət Universitetində,1999-cu ildən BDU-nun Politologiya və sosiologiya kafedrasında çalışır. 1987-ci ildə namizədlik dissertasiyası müdafiə etmiş, 2008-ci ildə dosent vəzifəsinə seçilmişdir. 25 məqalə, 5 tezis, 3 proqram, 2 metodik ğöştəriş, 1 metodik vəsait və 1 monoqrafiyanın müəllifidir.

**XATİRƏ BƏXTİYAR qızı ƏFƏNDİYEVA** – fəlsəfə elmləri namizədi, dosent.

X.B.Əfəndiyeva 1967-ci ildə Gürcüstan Respublikasının Qardabani rayonunda anadan olmuşdur. 1984-cü ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsinin əyani şöbəsinə qəbul olunmuş, 1986-cı ildə təhsilini qiyabi şöbədə davam etdirərək, həmin ildən "Politologiya və sosiologiya" kafedrasında laborant, baş laborant və kabinet müdiri işləmişdir. 1997-ci ildə "Azərbaycanın dövlət müstəqilliyinin bərpası və möhkəmləndirilməsi dövründə şəxsiyyətinin siyasi fəallığı" mövzusunda dissertasiya işini müdafiə etmişdir. 1999-cu ildən müəllim vəzifəsində çalışır. Hal-hazırda kafedranın dosentidir. 2 kitabın, 30-dan çox məqalənin müəllifidir.

**TAHİR RZA oğlu BEHBUDOV –** tarix elmləri namizədi, dosent.

T.R.Behbudov 1955-ci ildə Bakıda anadan olmuşdur. 1978-ci ildə APİ-nin Tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1984-cü ildən 2011-ci ilin sentyabr ayına qədər Polis Akademiyasının "Ictimai elmlər" kafedrasında müəllim, baş müəllim və dosent vəzifəsində çalışmişdır. 1996-cı ildə namizədlik dissertasiyasını müdafıə edərək tarix elmləri namizədi elmi dərəcəsini almışdır. 2011-ci ilin sentyabr ayından DİO-da xidmətdən təqaüdə buraxılmışdır. 50-dən çox elmi məqalənin, 15 proqramın, bir neçə metodik vəsaitin, 6 monoqrafiyanın müəllifidir. Respublikanın əməkdar müəllimi adına layiq görülmüşdür. 2011-ci ildən politologiya və sosiologiya kafedrasının dosentidir.

**RAFİQ ATƏŞ oğlu RƏSULOV** – baş müəllim.

R.A.Rəsulov 1946-cı ildə Bakı şəhərində anadan olmuşdur. 1964-cu ildə ADU-nun Filologiya fakültəsinə daxil olmuş, 1969-cu ildə oranı bitirmişdir. 1969-1971-ci illərdə Sovet Ordusu sıralarında xidmət etmişdir. 1972-ci ildən ADU-nun Elmi kommunizm ixtasası üzrə aspiraturasına daxil olmuşdur. 1974-cü ildən Elmi kommunizm kafedrasmda çalışır.1991-cü ildən bu günədək BDU-nin Poiltologiya və sosiologiya kafedrasının baş müəllimidir. 2009-cu ildə fakültədə "İlin müəllimi" adına layiq görülmüşdür. 15 elmi məqalənin müəllifidir.

**MEHMAN ZAHİD oğlu HƏSƏNOV –** siyasi elmlər namizədi, müəllim.

M.Z.Həsənov 1973-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1991-ci ildə Qərb Universitetinə qəbul olunmuş və oranı 1995-ci ildə "Politologiya" ixtisası üzrə bitirmişdir. 1995-ci ildə Bakı Dövlət Universitetinin "Politologiya və sosiologiya" kafedrasında baş laborant vəzifəsində işləməyə başlamişdır. 2001-ci ildə kabinet müdiri vəzifəsinə keçirilmişdir. 2005-ci ildə "Siyasi institutlar, etnosiyasi konfliktologiya, milli və siyasi proseslər" mövzusunda dissertasiya müdafiə edərək siyasi elmlər namizədi alimlik dərəcəsi almışdır. 2007-ci ildən bu kafedrada müəllim kimi fəaliyyət göstərir. 12 məqalənin müəllifi, 2 proqramın tərtibatçısıdır, 1 dərsliyin həmmüəlliflərindən biridir.

**ÜLVIYYƏ ƏLİSAHİB qızı QULIYEVA –** müəllim.

Ü.Ə.Quliyeva 1970-ci ildə Şirvan şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1993-cü ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin fəlsəfə fakültəsini, 1995-ci ildə sosial-siyasi münasibətlərin nəzəriyyəsi (politologiya) ixtisası üzrə həmin universitetin magistraturasını bitirmişdir. Hazırda AMEA-nın dissertantıdır. 2000-ci ildən BDU-nun təbiət fakültələri üzrə fəlsəfə kafedrasında, 2005-ci ildən isə politologiya və sosiologiya kafedrasında çalışır. 15 məqalənin müəllifidir.

**VALİDƏ ƏBDÜLƏZİM qızı MUSTAFAYEVA –** tarix elmləri namizədi, müəllim.

V.Ə.Mustafayeva 1956-cı ildə Moskva şəhərində anadan olmuşdur. 1974-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsinə qəbul olmuşdur. 1979-cu ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirərək, Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutuna təyinat almışdır. 1979-ci ildən 2008-ci ilədək orada çaışmışdır. 1996-cı ildə namizədlik dissertasiyası müdafiə edərək, tarix elmləri namizədi adını almışdır. 2008-ci ildən BDU-da müəllim vəzifəsində çalışır. 1 monoqrafiyanın, 16 məqalənin müəllifiidir.

**ELŞAD MİRBƏŞİR oğlu** – siyasi elmlər namizədi, müəllim.

E.Mirbəşiroğlu 1977-ci ildə Göygöl rayonunda anadan olmuşdur. 1994-cü ildə Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin politologiya ixtisasına qəbul olunmuş, 1998-ci ildə bakalavr, 2000-ci ildə magistratura pilləsini fərqlənmə diplomu ilə bitirmişdir. 2002-ci ildə Politologiya və sosiologiya kafedrasına dissertant qəbul olunmuşdur. 2005-ci ildə “Siyasi münaqişələrin həllində üçüncü tərəfin iştirakı” mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş və siyasi elmlər namizədi alimlik dərəcəsini almışdır. 2008-ci ilin sentyabrında Politologiya və sosiologiya kafedrasında müəllim təyin olunmuşdur.

2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının “Politologiya və siyasi idarəetmə” kafedrasına doktorant qəbul olunmuşdur. 4 namizədlik dissertasiyasının müdafiəsində rəsmi opponentlik etmişdir. 30 elmi məqalənin, 1 monoqrafiyanın müəllifidir.

**SEVİNC ƏLİ qızı ƏLİYEVA –** fəlsəfə elmləri namizədi, müəllim.

S.Ə.Əliyeva 1966-cı ildə Bakı şəhərində anadan olubdur. 1984-cü ildə BDU-nun Tarix fakültəsini fərqlənmə diplomu ilə bitiribdir. 2002-ci ildə “Gənc mütəxəssisin həyat yolu sosial-fəlsəfi təhlilin obyekti kimi” mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1991-ci ildən 2009-cu ilə qədər Sosioloji tədqi-

qatlar laboratoriyasında baş laborant vəzifəsində çalışmışdır. 2009-cu ildən Politologiya və sosiologiya kafedrasının müəllimidir. 14 məqalə və 1 tezisin müəllifidir.

**GÜLŞƏN FAZİL qızı MƏMMƏDOVA –** müəllim.

G.F.Əliyeva 1978-ci ildə Kürdəmir rayonunda anadan olmuşdur. 1995-ci ildə Sosial elmlər və psixologiya fakültəsinin fəlsəfə ixtisasına daxil olmuş və 1999-cu ildə bakalavr pilləsini, 2001-ci ildə isə magistratura pilləsini fərqlənmə diplomu ilə bitirmişdir. 2002-2006-cı illlər ərzində Fəlsəfə kafedrasının aspirantı olmuşdur. Hazırda müdafiə ərəfəsindədir. 2009-ci ildən Politologiya və sosiologiya kafedrasının müəllimi vəzifəsində çalışır.10-dan çox elmi məqalənin və 2 proqramın müəllifidir.

**KÖNÜL MƏDƏT qızı ŞIXIYEVA –** baş metodist

K.M.Şıxıyeva 1982-ci il Bakı şəhərində anadan olmuşdur. 1999-cu ildə BDU-nin Sosial elmlər və psixologiya fakültəsinin Politologiya ixtisasına daxil olmuş, 2003-cü ildə bakalavr pilləsini, 2005-ci ildə magistratura pilləsini fərqlənmə diplomu ilə bitirimişdir. 2005-ci ildən Politologiya və sosiologiya kafedrasında baş metodist vəzifəsində çalışır. 2007-ci ildən Siyasətin nəzəriyəsi, siyasi elmin tarixi, metodologiyası ixtisası üzrə dissertantdır. 2010-cu ildə siyasi elmlər üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün "Seçki sisteminin təkmilləşdirilməsi cəmiyyətdə demokratikləşmə prosesinin mühüm şərti kimi" mövzusunda dissertasiya işi uğurla müzakirədən keçmiş və müdafiəyə buraxılmışdır. Hazırda dissertasiya işi Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında müdafiə ərəfəsindədir. Politologiya ixtisası üzrə bir sıra xüsusi kursları tədris edir. 15 elmi məqalənin, 4 tezisin və 3 proqramın müəllifidir.

**DAŞQIN ALLAHVERDİ oğlu RƏCƏBLİ –** baş metodist.

D.A.Rəcəbli 1981-ci ildə Ağsu rayonunun Qaraqaşlı kəndində anadan olmuşdur. 1998-ci ildə Sosial elmlər və psixologiya fakültəsinin sosiologiya ixtisasına daxil olmuş, 2002-cü ildə bakalavr

pilləsini, 2004-cü ildə isə magistratura pilləsini fərqlənmə dip lomu ilə bitirmişdir. 2004-cü ildə Siyasətin nəzəriyəsi, siyasi elmin tarixi və metodologiyası ixtisası üzrə aspiraturaya daxil olmuşdur. 2004-2009-cü illərdə BDU-nun Tələbə-gənclər təşkilatının sədri vəzifəsində çalışmış və bir çox layihələrin, tədbirlərin həyata keçirilməsində fəal iştirakçılardan biri olmuşdur. 2009-2010-cu illərdə hərbi xidmətdə olmuşdur. 2010-cu ildən Politologiya və sosiologiya kafedrasında baş metodist vəzifəsində işləyir. 16 məqalənin, 4 tezisin müəllifidir.

**MƏFTUNƏ RƏŞİD qızı ABDULLAYEVA** – metodist

M.R.Abdullayeva 1984-ci il Naxçıvan Muxtar Respublikasının Babək rayonunda anadan olmuşdur. 2002-ci ildə BDU-nin Sosial elmlər və psixologiya fakültəsinin Politologiya ixtisasına daxil olmuş, 2006-cü ildə bakalavr pilləsini, 2008-ci ildə magistratura pilləsini fərqlənmə diplomu ilə bitirmişdir. 2008-ci ildən Politologiya və sosiologiya kafedrasında metodist vəzifəsində çalışır. 2009-cu ildən həmin kafedranın saathesabı müəllimi kimi dərslər aparır. 8 məqalənin müəllifidir.

# EKSPERİMENTAL PSİXOLOGİYA ELMİ-TƏDQİQAT LABORATORİYASI



"Eksperimental psixologiya" ETL AMEA-nın müxbir üzvü, psixologiya elmləri doktoru, professor Bəxtiyar Həmzə oğlu Əliyevin təşəbbüsü, Azərbaycan Respublikası Təhsil Nazirliyinin 09.03.2000-ci il tarixli 23 saylı əmri, BDU-nun Elmi şurasının 26 mart 1999-cu il tarixli iclasının qərarı və BDU-nun rektorunun 03.04.2000-ci il 29 saylı əmri əsasında yaradılmışdır. "Eksperimental psixologiya" Elmi-Tədqiqat Laboratoriyası yaradılan gündən onun elmi rəhbəri AMEA-nın müxbir üzvü, professor Bəxtiyar Həmzə oğlu Əliyev olmuşdur.

"Eksperimental psixologiya" ETL-in yaradılmasında başlıca məqsəd psixologiya elminin qarşısında duran mühüm nəzəri-praktiki məsələlərin həllı, tədris prosesi ilə praktik biliklərin qarşılıqlı əlaqəsinin təşkili, respublikada milli şüurun və milli xarakterin psixoloji mexanizmlərinin öyrənilməsi, yüksək ixtisaslı kadr hazırlığının səviyyəsinin yüksəldilməsi və s. olmuşdur. "Eksperimental psixologiya" ETL aşağıdakı elmi istiqamətlərdə tədqiqatlar aparır:

Milli şüur və xarakterin inkişaf və təşəkkülünün öyrənilməsi;
Şəxsiyyətin öyrənilməsinin psixoloji məsələləri;
Uşaqların psixi inkişafının diaqnostikası və korreksiyası;
Tibbi psixologiyanın aktual məsələləri.

"Eksperimental psixologiya" elmi-tədqiqat laboratoriyasında 8 əməkdaş fəaliyyət göstərir: ETL-in rəhbəri AMEA-nın müxbir üzvü, professor B.H.Əliyev, böyük elmi işçi Rəşid Vəkil oğlu Cabbarov, elmi işçi Müşfiq Hüseyn oğlu Mustafayev, üç nəfər kiçik elmi işçi (Elnarə Əhməd qızı Əhmədova, Zülfiyyə İsa qızı Sadıqova, Sevər Sərvət qızı Mirzəyeva), iki nəfər baş laborant (Səbinə Fərrux qızı Dünyamalıyeva və Firuzə İsmayıl qızı Əliyeva).

Hal-hazırda "Eksperimental psixologiya" ETL-in əməkdaşları şəxsiyyətin inkişafının aktual psixoloji problemləri istiqamətində tədqiqatlar aparırlar.

**RƏŞİD VƏKİL oğlu CABBAROV –** psixologiya elmləri namizədi, böyük elmi işçi.

R.V.Cabbarov 1970-ci ildə Zəngilan rayonunda anadan olmuşdur. 1997-ci ildə BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin psixologiya ixtisası üzrə bavalavr pilləsini, 1999-cu ildə isə magistratura pilləsini fərqləmə diplomu ilə birimişdir. 2004-cü ildə "Yeniyetmələrdə özünüdərketmə prosesinin psixoloji təhlili" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.2000-ci ildən BDU-nun "Eksperimental psixologiya" elmi-tədqiqat laboratoriyasında elmi işçi, 2008-ci ildən isə böyük elmi işçi vəzifəsində çalışır.

Təhsil və şəxsiyyət, şəxsiyyətin özünüdərketməsi və özünügercəkləşdirməsi mövzusunda elmi-tədqiqat işi üzərində çalışır. Müxtəlif beynəlxalq elmi-praktiki konfranslarda iştirak etmişdir. 3 kitabın və 53 elmi məqalənin müəllifidir. 2006-cı ildən hal-hazıra kimi psixologiya elmləri üzrə Dissertasiya Şurasının elmi katibidir. 2008-ci ildən BDU-nun Psixologiya kafedrasının doktorantıdır.

**MÜŞVİQ HÜSEYN oğlu MUSTAFAYEV –** psixologiya elmləri namizədi, elmi işçi.

M.H.Mustafayev 1976-cı ildə Ağdam rayonunda anadan olmuşdur. 1993-cü ildə orta məktəbi bitirmişdir. 1997-ci ildə BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin psixologiya ixtisası üzrə bakalavr pilləsini, 1999-cu isə magistratura pilləsini bitirmişdir. 2000-ci ildən BDU-nun "Eksperimental psixologiya" elmi-tədqiqat laboratoriyasında elmi işçi vəzifəsində çalışır. 2005-ci ildə "Gənclərin mənəvi inkişafının bəzi sosial-psixoloji cəhətlərinin təhlili" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş və psixologiya elmləri namizədi alimlik dərəcəsi adını almışdır. 2005-ci ildən BDU-da fəaliyyət göstərən psixologiya elmləri üzrə Dissertasiya Şurasının nəzdindəki Elmi seminarın elmi katibi vəzifəsində çalışır. 2007-ci ildən "Psixologiya" jurnalının məsul katibidir. Sosial psixologiya problemləri üzrə elmi-tədqiqat işi üzərində çalışır. Bir neçə dövlət və beynəlxalq proqram və qrantlarda iştirak etmişdir. 30 məqalənin müəllifidir.

**ELNARƏ ƏHMƏD qızı ƏHMƏDOVA –** psixologiya elmləri namizədi, kiçik elmi işçi.

E.Ə.Əhmədova 1973-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1995-ci ildə BDU-nun "Sosial elmlər və psixologiya" fakültəsini psixologiya ixtisası üzrə bitirmişdir. 2000-ci ildən BDU-nun psixologiya kafedrasında çalışır. 2004-cü ildə "Yeniyetmələrin cinayət işləri üzrə məhkəmə-psixoloji ekspertizası problemləri" mövzusunda dissertasiyasını müdafiə etmiş, psixologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. Sosial psixologiya problemləri üzrə elmi-tədqiqat işi aparır. 15 məqalənin müəllifidir.

**ZÜLFİYYƏ İSA qızı SADIQOVA –** kiçik elmi işçi.

Z.İ.Sadıqova 1975-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1992-1997-ci illərdə Azərbaycan Universitetinin Beynəlxalq hüquq fakültəsində (qiyabi), 1993-1997-ci illərdə BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin psixologiya ixtisası üzrə bakalavr pilləsində,1997-1999-cu illərdə magistratura pilləsində təhsil almışdır. 2000-ci ildən BDU-nun "Eksperimental psixologiya" elmi-tədqiqat laboratoriyasında kiçik elmi işçi vəzifəsində işləyir. 2004-

cü ildən psixologiya kafedrasının dissertantıdır. Sosial psixologiya problemləri üzrə elmi-tədqiqat işi aparır. 14 məqalənin müəllifidir

**SEVƏR SƏRVƏT qızı MİRZƏYEVA** – kiçik elmi işçi.

S.S.Mirzəyeva 1977-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1993-1997-ci illərdə BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin psixologiya ixtisası üzrə bakalavr pilləsində, 1997-1999-cu illərdə magistratura pilləsində təhsil almışdır. 2000-ci ildən BDU-nun "Eksperimental psixologiya" elmi-tədqiqat laboratoriyasında kiçik elmi işçi vəzifəsində çalışır. 2006-ci ildən psixologiya kafedrasının dissertantıdır. Sosial psixologiya problemləri üzrə elmi-tədqiqat işi aparır. 15 məqalənin müəllifidir.

**SƏBİNƏ FƏRRUX qızı SALMANOVA** – baş laborant.

S.F.Salmanova 1975-ci ildə Ermənistan Respublikasının Sisiyan rayonunun Urud kəndində anadan olmuşdur.1993-1997-ci illərdə BDU-nun biologiya fakültəsinin bakalavr pilləsində, 1997-1999-cu illərdə magistratura pilləsində təhsil almışdır. 2000-ci ildən BDU-nun "Eksperimental psixologiya" elmi-tədqiqat laboratoriyasında baş laborant vəzifəsində çalışır.

**FİRUZƏ İSMAYIL qızı ƏLİYEVA** – baş laborant.

F.İ.Əliyeva 1981-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1998-2002-ci illərdə BDU-nun filologiya fakültəsinin bakalavr pilləsində, 2002-2004-cü illərdə magistratura pilləsində təhsil almışdır. 2007-ci ildən BDU-nun Psixologiya kafedrasının doktorantıdır. 2005-ci ildən BDU-nun "Eksperimental psixologiya" elmi-tədqiqat laboratoriyasında baş laborant vəzifəsində çalışır. 7 elmi məqalənin müəllifidir.

# SOSİOLOJİ TƏDQİQATLAR LABORATORİYASI



Azərbaycan Respublikası Təhsil Nazirliyinin 1989 saylı əmri, BDU-nun 06 mart 1989-cu il tarixli 1/64 saylı əmri əsasında yaradılmışdır. Laboratoriyaya ilk gündən professor H.R.İmanov rəhbərlik etmişdir. Sosioloji tədqiqatlar laboratoriyası yarandığı gündən ali təhsilin aktual sosioloji problemləri ilə məşğuldur. Burada aşağıdakı mövzular üzrə tədqiqatlar aparılır: gənc mütəxəssisin sosial siması və onun əməyinin səmərəliliyi; gənclər mühitində sosial gərginlik; mövcud vəziyyət və gələcəyə proqnozlar; tələbə gənclərin sosial orientasiyası, əhval-ruhiyyəsi və ümidləri; tələbə gənclər mühitində yaranan problem situasiyaların təhlili. On əməkdaşı əhatə edən bu laboratoriyada altı nəfər baş elmi işçi (Rəcəbəli Hacıağa oğlu Əliyev, Zeynəddin Camal oğlu Hacıyev, Yəhya Məhəmməd oğlu Əliyev, Bilal Əhəd oğlu Yusifov, Rəcəb Məqsəd oğlu Səttarov, Hafiz Səlim oğlu Xanlarov), iki nəfər

kiçik elmi işçi (Mətanət Məmməd qızı Abdullayeva, Səadət Məcid qızı Əfəndiyeva), iki nəfər baş laborant (Nərgiz Həmid qızı Məcidova, Aygün Xəlil qızı İsmayılova) çalışır.

## LABORATORİYA ƏMƏKDAŞLARI HAQQINDA QISA BİBLİOQRAFİK MƏLUMAT

**RƏCƏBƏLİ HACIAĞA oğlu ƏLİYEV –** fəlsəfə elmləri namizədi, böyük elmi işçi.

R.H.Əliyev 1949-cu ildə Bakı şəhərində anadan olmuşdur. 1965-1967-ci illərdə – 2 saylı şəhər texniki peşə məktəbində təhsil almışdır. 1967-1968-ci illərdə Bakı Metropoliteninin deposunda çilingər, daha sonra maşinist köməkçisi işləmişdir. 1969-1970-ci illərdə – hərbi xidmətdə olmuşdur. 1972-1978-ci illərdə ADU-nun Geologiya-coğrafiya fakültəsində təhsil almışdır. 1974-1976-ci illərdə ADU-nun Tələbə Gənclər təşkilatı katibinin müavini olmuşdur. 1976-1989-ci illərdə ADU-nun Tələbə Həmkarlar Ittifaqı komitəsinin sədri olmuşdur. 1989-cu ildən hal-hazıradək Sosial elmlər və psixologiya fakültəsinin nəzdindəki Sosioloji tədqiqatlar laboratoriyasında böyük elmi işçidir. 1986-ci ildə "Həmkarlar ittifaqları sosializm cəmiyyətinin siyasi sistemində" mövzusunda dissertasiyası işini müdafiə edərək, fəlsəfə elmləri namizədi alimlik dərəcəsini almışdır. Siyasətin fəlsəfəsi problemi üzrə elmi-tədqiqat işi aparır. 17 elmi məqalənin, 1 kitabın müəllifidir.

**ZEYNƏDDİN CAMAL oğlu HACIYEV** – fəlsəfə elmləri doktoru, böyük elmi işçi, (haqqında bax: səh. 35)

**YƏHYA MƏHƏMMƏD oğlu ƏLİYEV –** fəlsəfə elmləri namizədi, dosent, böyük elmi işçi.

Y.M.Əliyev 1931-cü ildə Ermənistan Respublikası Mehri rayonunun Nüvədi kəndində anadan olmuşdur. 1937-1944-ci illərdə Mehri rayonunun Nüvədi kənd orta məktəbində təhsil alıbdır.1946-1950-ci illərdə Ordubad Pedaqoji Texnikumunda təhsilini davam etdiribdir. 1950-1955-cı illərdə BDU-nun Tarix fakültəsinin Fəl-

səfə şöbəsində təhsil almışdır. 1956-cü ildən BDU-da çalışır. 1976-1987-ci illərdə BDU-da Hazırlıq şöbəsinin dekanı olmuşdur. 1962-ci ildə “Cəlil Məmmədquluzadənin ateizmi” mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir, fəlsəfə elmləri namizədidir. 1988-ci ildən Humanitar fakültələr üzrə fəlsəfə kafedrasında dosent vəzifəsində çalışmışdır.2004-cü ildən hal-hazıra kimi Sosioloji tədqiqatlar ETL-də böyük elmi işçidir. 1 monoqrafiyanın, 3 kitabçanın, 15 məqalənin müəllifidir.

**BİLAL ƏHMƏD oğlu YUSİFOV –** fəlsəfə elmləri namizədi, böyük elmi işçi.

Bilal Əhməd oğlu Yusifov 1929-cu il Şəki şəhərində anadan olmuşdur. 1948-ci ildə BDU-nun (ADU) Tarix fakültəsinin Fəlsəfə şöbəsinə daxil olub. 1949-cu ildən təhsilini MDU-nun Fəlsəfə fakültəsində davam etdirmişdir. 1954-cü ildə həmin fakültəni bitirərək, ADPU-nun Fəlsəfə kafedrasında laborant vəzifəsində işə başlamışdır. 1955-ci ildən Şəki şəhərində orta ixtisas məktəblərində ictimai elmlər ixtisasından dərs demişdir. 1959-cu ildə ADU-da fəlsəfə kafedrasında baş laborant vəzifəsində işə başlayıb. 1962-ci ildə həmin kafedrada müəllim vəzifəsində çalışmışdır. 1964-1968-ci illərdə Azərbaycan neft və kimya Institutunda fəlsəfə kafedrasında müəllim vəzifəsində çalışmışdır. 1963-cü ildə namizədlik dissertasiyası müdafiə edib, fəlsəfə elmlər namizədi adını almışdır. 1968-1973-cü illərdə ADPU-da fəlsəfə kafedrasında baş müəllim, 1973-2005-ci illərdə BDU-da təbiət elmləri üzrə fəlsəfə kafedrasında baş müəllim, sonra isə (1981-ci ildə) dosent vəzifəsində çalışmışdır. 2005-ci ildən isə fəlsəfə kafedrası nəzdində fəaliyyət göstərən Sosioloji tədqiqatlar ETL-də böyük elmi işçi vəzifəsində çalışır. Yusifov B.Ə. 14 elmi əsər müəllifidir.

**RƏCƏB MƏQSƏD oğlu SƏTTAROV –** fəlsəfə elmləri namizədi, böyük elmi işçi, (haqqında bax: səh. 37)

**HAFİZ SƏLİM oğlu XANLAROV –** fəlsəfə elmləri namizədi, dosent, böyük elmi işçi.

H.S.Xanlarov orta məktəbi bitirdikdən sonra 1965-ci ildə Azərbaycan Respublikasının hidrometroloji xidmət idarəsində və "Azərbaycan-film kinostudiyasında" işləmişdir. 1967-69-cu illərdə hərbi xidmətdə olmuşdur. 1970-ci ildə Rostov Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuşdur. 1975-ci ildə Azərbaycan Dövlət Universitetini bitirmişdır. Elə həmin ildən 1978-ci ilə qədər orta məktəbdə tarix müəllimi işləmişdir. 1978-ci ildən 1980-ci ilə qədər M.Əliyev adına İncəsənət institutunda elm hissəsinin müdiri vəzifəsində çalışmışdır. 1980-83-cü illərdə Azərbaycan Dövlət Universitetinin aspiranturasında təhsilini davam etdirmişdir. 1983-cü ildə fəlsəfə elmləri namizədi elmi dərəcəsi almışdır. 1984-cü ildən fəlsəfə kafedrasında müəllim, baş müəllim və dosent vəzifələrində işləyir. 2010-cu ildən isə fəlsəfə kafedrası nəzdində fəaliyyət göstərən Sosioloji tədqiqatlar ETL-də böyük elmi işçi vəzifəsində çalışır. Sosial fəlsəfə problemləri üzrə elmi-tədqiqat işi aparır. 10-a yaxın məqalənin müəllifidir.

**MƏTANƏT MƏMMƏD qızı ABBASOVA –** fəlsəfə elmləri namizədi, kiçik elmi işçi.

M.M.Abbasova 1966-cı ildə Tərtər rayonunda anadan olmuşdur. 1995-ci ildə filologiya fakültəsini bitirmişdir. 1993-1996-cı illərdə Azərbaycan Beynəlxalq Universitetində müəllim işləmişdir. 1996-2000-ci illərdə BDU-nun Humanitar fakültələr üzrə fəlsəfə kafedrasının əyani aspirantı olmuşdur. 2000-ci ildən Sosioloji tədqiqatlar ETL-nın elmi işçisidir. 2006-cı ildə "Siyasi milli şüur sosial fəlsəfənin obyektidir" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Siyasi milli şüur problemləri üzrə elmi-tədqiqat işi aparır. 10 məqalənin və 1 kitabın müəllifidir.

**SƏADƏT MƏCİD qızı ƏFƏNDİYEVA –** fəlsəfə elmləri namizədi, kiçik elmi işçi.

S.M.Əfəndiyeva 1973-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1995-ci ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "tarixçi-şərqşünas" ixtisasını fərqlənmə diplomu ilə bitirmişdir. 2007-ci ildə "Şəxsiyyət mədəniyyət və sivilizasiya sistemində" adlı namizədlik

dissertasiyasını müdafiə etmişdir. 1995-ci ildən 2003-cü ilədək Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Azərbaycanşünaslıq" ETL "Arxeoloji və etnoqrafik tədqiqatlar" bölməsində laborant, 2003-cü ildən həmin laboratoriyada kiçik elmi işçi işləmişdir. 2008-ci ildən Sosioloji tədqiqatlar laboratoriyasında kiçik elmi işçi işləyir. Şəxsiyyət-mədəniyyət problemləri üzrə elmi-tədqiqat işi aparır. 1 monoqrafiyanın, 17 elmi məqalənin, müəllifidir.

**NƏRGİZ HƏMİD qızı MƏCİDOVA –** baş laborant.

N.H.Məcidova 1968-cı ildə Bakı şəhərində anadan olmuşdur. 1990-cı ildə Bakı Dövlət Universitetinin biologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 2003-ci ildən Sosioloji tədqiqatlar laboratoriyasında baş laborant vəzifəsində çalışır. 2003 ildən BDU-nun Humanitar fakültələr üzrə fəlsəfə kafedrasının dissertantı olmuşdur. 2010-cu ildə "Qocalma fəlsəfi problem kimi" mövzusunda fəlsəfə doktorluğu dissertasiyasını müdafiə etmişdir. 7-dən artıq məqalənin müəllifidir.

**AYGÜN XƏLİL qızı KƏRİMOVA –** baş laborant.

A.X.Kərimova 1976-ci ildə Bakı şəhərində qulluqçu ailəsində anadan olmuşdur. 1992-ci ildə Bakı şəhər 278 saylı orta məktəbi, 1998-ci ildə isə Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsini bitirmişdir. 2000-ci ildən BDU-nun ilahiyyat fakültəsində baş laborant vəzifəsinə təyin olunmuşdur. 2002-ci ilin iyun ayından Sosioloji tədqiqatlar ETL-da baş laborant vəzifəsinə keçirilmişdir. 2010-cu ildə "Dini şüurun strukturu və funksiyaları" adlı namizədlik dissertasiyasını müdafiə etmişdir. 10-a qədər məqalənin müəllifidir.

# “İNKİŞAF” ELMİ-PRAKTİK MƏRKƏZİ



“İnkişaf” Elmi-Praktik Mərkəzi 1990-ci ildən Təhsil Nazirliyinin əmrinə əsasən “Yaradıcı istedad” adı ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmışdır. Mərkəzdə inkişaf və istedad problemlərinin psixoloji və pedagoji aspektləri, istedadlı uşaqların axtarışı və təhsilinin təşkil edilməsinin metodoloji əsasları tədqiq olunur. Son illər fəal (interaktiv) təlimin əsasları, erkən yaşda uşaqların təlimi problemlərinə ciddi diqqət yetirilir. Mərkəzin mütəxəssisləri beynəlxalq təşkilatlarla əlaqədə işləyir, beynəlxalq elmi forumlarda iştirak edirlər. Mərkəz iki bölmədən ibarətdir: 1. Psixoloji tədqiqatlar bölməsi 2.Metodiki pedaqoji və informasiya təminatı bölməsi.

“İnkişaf” Elmi-Praktik Mərkəzində aparıcı elmi işçi Zülfiyyə Altay qızı Veysova ,elmi işçi Vəfa Bəhram qızı Məmmədova, kiçik elmi işçi Bahar Əşrəf qızı Kərimova, kiçik elmi işçi İradə Xəlil qızı Məmmədova, kiçik elmi işçi Həbib Firudin oğlu Kərimov və kiçik elmi işçi İradə Xəlil qızı Zamanova işləyirlər. ”İnkişaf” Elmi– Praktik

Mərkəzi yarandığı gündən dosent Rəna Fuad qızı İbrahimbəyova ona rəhbərlik edir.

**ZÜLFİYYƏ ALTAY qızı VEYSOVA –** psixologiya elmləri namizədi, aparıcı elmi işçi.

Z.A.Veysova 1958-ci ildə Bakı şəhərində doğulub. Moskva Dövlət Universitetinin psixologiya fakultəsinin məzmunudur, psixologiya elmləri namizədidir. 1980-1990 ci illərdə Bakı Dövlət Universitetində psixologiya və pedaqogika kafedrasında, 1989-cu ildən bu vaxta qədər Bakı Dövlət Universiteti nəzdində "İnkişaf" Elmi-Praktik Mərkəzinin aparıcı elmi işçisi, 1993-cü ildən Bakı Avropa Liseyinin elmi rəhbəri, 2005-ci ildən bu vaxta qədər isə Liseyin direktorudur. Z.Veysova 1989-cu ildən istedadlı uşaq və gənclərin seçilməsi, təhsili və inkişafı sahəsində elmi araşdırmalar həyata keçirir. Eyni zamanda o fəal-interaktiv təlim üzrə 1991-cü ildən təqiqatlar aparır. Uşaq inkişafı və təhsildə şəxsiyyətə yönəlmiş yanaşma üzrə tədqiqatların nəticəsində təlim prosesi üzrə xüsusi model və "Fəal-interaktiv təlim" konsepsiyasını və metodologiyasını hazırlayıb. 1999-2001-ci illərdə Z.Veysova Təhsil Nazirliyi və Dünya Bankı tərəfindən həyata keçirilən Azərbaycan Təhsil İslahatı Layihəsində Layihəni İdarəetmə Qrupun təhsil üzrə mütəxəssisi kimi çalışıb. 2002-ci ildən bu vaxta gədər müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması, kurikulumun hazırlanması sahələrində və erkən yaşı dövründə üşaqların inkişafı üzrə UNİCEF-in, Dünya Bankının milli məsləhətçisi, Asiya İnkişaf Bankının və Avropa Komissiyasının beynəlxalq eksperti kimi Azərbaycanda və digər ölkələrdə müxtəlif təhsil layihələrdə fəaliyyət göstərib, yerli məsləhətçilər grupunun rəhbəri olub. Z.Veysova Azərbaycanda ilk dəfə Bakı Avropa Liseyində fəal-interaktiv təlim metodologiyasının tətbiqinə başlamışdır. O, fəal-interaktiv təlim üzrə bütün təhsil təbəqələrində işləyən müəllim heyəti üçün onlarla treninqlər keçirib və fəal-interaktiv təlim üzrə ölkədə aparıcı olan, səriştəli təlimçilər hazırlayıb. "Fəal-interaktiv təlim" müəllimlər üçün vəsait ilə yanaşı çoxlu sayda fəal-interaktiv təlim üzrə metodik materiallar, dərs vəsaiti və topluları, treninq proqramları, treninq vəsaitləri və materialları hazırlamış və onlar UNİCEF-in, Dünya

Bankının, Norvec Qaçqınlar Şurası tərəfindən dərc olunmuş və treninqlərdə istifadə olunmuşdur. Z.Veysovanın fəal-interaktiv təlim üzrə yanaşması yeni fənn kurikulumlarında təlim strategiyalarının əsasını təşkil etmişdir. Z.Veysova həmçinin ibtidai siniflər üçün "Ana dili" dərsliklərinin və müəllimlər üçün metodiki vəsaitlərin müəllifidir.

Zülfiyyə Veysovanın xüsusi peşə maraqlarından biri istedadlı uşaq və gənclərin inkişafı və təhsilidir. O, Bakı Avropa Liseyinin "İstedadlı uşaq" təhsil modelinin və Liseydə həyata keçirilən bir sıra təhsil üzrə innovasiyaların müəllifidir. 1993-cü ildən Z.Veysova Bakı Avropa Liseyində Azərbaycanda yeganə olaraq istedadlı uşaqlar üçün fənlərarası təlim innovativ inkişafedici proqramını tətbiq edir. O, həmçinin ümumi təhsil məktəbləri üçün 2 orijinal qiymətləndirmə sistemlərinin müəllifidir. Zülfiyyə Veysova 2005-ci ildə "Tərəqqi" medal ıilə təltif olunmuş , 2008-ci ildə isə Azərbaycan Respublikasının Əməkdar Müəllimi adına layiq görülmüşdür.

**VƏFA BƏHRAM qızı MƏMMƏDOVA** – elmi işçi.

V.B.Məmmədova 1951-ci ildə Gəncə şəhərində anadan olmuşdur. 1971-1976-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun pedaqogika və psixologiya fakültəsində təhsil almışdır. 1980-1993-cü illərdə Bakı Dövlət Universitetinin "Psixologiya" kafedrasının saathesabı müəllim vəzifəsində işləmişdir.1990-cı ildən bu günə kimi BDU-nun "İnkişaf" Elmi-Praktik Mərkəzinin elmi işçisidir. 1997-ci ildən 2003-cü ilə kimi Bakı Avropa Liseyində direktor vəzifəsində işləmişdir. Eyni zamanda UNİCEF və Dünya Bankının milli məsləhətçisidir. "İnkluziv Təhsil" proqramının təlimçisi və valideyn-müəllim assosasiyasının yaradıcısıdır. 2003-ci ildən "XXI Əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzi"nin direktoru təyin edilmişdir. 2005-ci ildə Əməkdar müəllim adına layiq görülmüşdür. 3 metodik vəsaitin və 15 məqalənin müəllifidir. Bir neçə Beynəlxalq seminarlarda, konfranslarda iştirak etmişdir.

**BAHAR ƏŞRƏF qızı KƏRİMOVA** – kiçik elmi işçi

B.Ə.Kərimova 1971-ci ildə Xaçmaz rayonunda anadan olmuşdur. 1990-1995-ci illərdə Bakı Dövlət Universitetinin "Sosial elmlər

və psixologiya" fakültəsində psixologiya ixtisası üzrə təhsil almışdır. 1988-1990-cı illərdə Gənc tədqiqatçılar mərkəzində dərnək rəhbəri olmuşdur.1995-1996-ci illərdə Xaçmaz rayonunun təhsil şöbəsində metodist-psixoloq işləmişdir.1996-ci ildən bu günədək Bakı Dövlət Universitetinin "İnkişaf" Elmi-Praktik Mərkəzinin kiçik elmi işçisi vəzifəsində işləyir. 5 metodik vəsaitin, 2 dərsliyin, 10 məqalənin müəllifidir. 2011-ci ildə Azərbaycan Respublikasında təhsilin inkişafında xüsusi xidmətlərinə görə "Qabacıl təhsil işçisi" fəxri adına layiq görülmüşdü. 2009-cu ildən Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elektron Tədris Resurslarının Qiymətləndirilməsi Şurasının üzvüdür. Bir neçə Beynəlxalq seminar və konfransın nümayəndəsi olmuşdur.

**İRADƏ FAZIL qızı MƏMMƏDOVA** – kiçik elmi işçi

İ.F.Məmmədova 1975-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1992-1997-ci illərdə Bakı Dövlət Universitetinin "Sosial elmlər və psixologiya" fakültəsində psixologiya ixtisası üzrə təhsil almışdır. 1997-ci ildən bu günədək Bakı Dövlət Universitetinin "İnkişaf" Elmi-Praktik Mərkəzində kiçik elmi işçi vəzifəsində işləyir. 2007-ci ildə ali məktəblərin müəllimləri üçün JFDP proqramı üzrə ABŞ-ın Cənubi İllinoys Universitetində 1 semestr dərslərdə iştirak etmişdir. Bir neçə Beynəlxalq seminar və konfransın nümayəndəsi, Bakıda bir neçə seminar və konfransın təşkilatçısı olmuşdur. "Save the Children" təşkilatında psixoloq-məsləhətçi kimi fəaliyyət göstərmişdir. 2 kitabın,10 məqalənin müəllifidir.

**HƏBİB FİRUDDİN oğlu KƏRİMOV –** kiçik elmi işçi

1973-cü ildə Ermənistan Respublikasının Ararat rayonunda anadan olmuşdur. 1993-1997-ci illərdə Bakı Dövlət Universitetinin "Sosial elmlər və psixologiya" fakültəsinin psixologiya ixtisası üzrə bakalavr pilləsində,1998-2000-ci illərdə isə magistr pilləsində təhsil almışdır.1999-cu ildən Bakı Dövlət Universitetinin "İnkişaf" Elmi-Praktik Mərkəzində kiçik elmi işçi vəzifəsində işləyir. 5 məqalənin, 2 proqramın müəllifidir. Eyni zamanda UNİCEF və Dünya Bankının milli məsləhətçisidir. Respulikada aparılan təhsil islahatlarının həyata keçirilməsi, bir sıra dövlət proqramları və qanunlarının hazırlaması

üzrə işçi qrupunun üzvü olmuşdur: O, milli qiymətləndirmənin həyata keçiriliməsi üzrə layihənin rəhbəri, Texnologiya fənni üzrə qiymətləndirmə standartlarının hazırlanması üzrə milli məsləhətçi, "İnkluziv Təhsilin inkişafı üzrə Dövlət proqramının hazırlanması", "Məktəbəqədər Təhsil haqqında qanunun hazırlanması", "Sosial iş üzrə kurrikulumun və standartların hazırlanması", "Məktəbəqəqər təhsil standartlarının" hazırlanması", "Azərbaycan Respublikasında Dövlət Uşaq Müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramının idarə olunması üzrə işçi qrupunun üzvüdür. Gender və tətbiqi psixologiya kafedrasında saathesabı müəllimdir. Təhsil Nazirliyi nəzdində təsərrüfat hesablı "De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsinin Dövlət Uşaq Müəssisələri və Alternativ Xidmətlər üzrə şöbəsinin müdiri vəzifəsində çalışır. Eyni zamanda şagird nailiyyətlərinin qiymətləndirilməsi, kurikulumun və qiymətləndirmə standartlarının hazırlanması, erkən uşaqlıq dövrünün inkişafı, məktəbdə uşaqların sağlamlığının qorunmasının təşkili üzrə işçi qrupunun üzvüdür.

**İRADƏ XƏLİL qızı ZAMANOVA** – kiçik elmi işçi

İ.X.Zamanova 1963-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1981-1986-ci illərdə Azərbaycan pedaqoji Xarici dillər İnstitutunun ingilis dili fakültəsində təhsil almışdır. 1986-1990-cı illərdə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında kitabxanaçı vəzifəsində işləmişdir. 1990-cı ildə Bakı Dövlət Universitetinin nəzdindəki "İnkişaf" Elmi-Praktik Mərkəzinin kişik elmi işçi vəzifəsində işləyir. 10-ə qədər məqalənin müəllifidir. 1991-1993-ci illərdə H.Z.Tağıyev adına Uşaqların Təsviri Yaradıcılığı üzrə Xalq Universitetində direktor müavini, 1992-1993-cü illərdə "İstedad" jurnalında redaksiya heyətinin üzvü, 2007-2009-cu illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyi və "Madad" Humanitar Təşkilatı İctimai Birliyinin İKT-nin təhsildə tətbiqi üzrə müəllimlərin peşəkarlıq səviyyəsinin təkmilləşdirilməsi və təhsil resursları kurslarında təlimçi, 2011-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi və "İnkişaf" Elmi Mərkəzinin "yeni fənn kurikulumlarının tətbiqi və fəal (İnteraktiv) təlim" kursunda (ibtidai siniflər üçün) təlimçi işləmişdir.

# FAKÜLTƏNİN TANINMIŞ MƏZUNLARI



**Ceyhun Yunis oğlu Osmanlı** 1982–ci ildə Bakı şəhərində anadan olmuşdur. 2003–də Sosial elmlər və psixologiya fakültəsini politologiya ixtisası üzrə bakalavr pilləsini, 2005–ci ildə magistr pilləsini fərqlənmə diplomu ilə bitirmişdir.

2007–ci ildə Varşava Universiteti və Polşa Təhlükəsizlik Akademiyası tərəfindən təşkil edilən "SENSE" Proqramının, 2008-ci ildə Harvard Universiteti (Boston, ABŞ) "Liderlər İnkişafda Proqramı"nın məzunudur. 1999-cu ildə Azərbaycan Könüllülər İctimai Birliyini yaratmışdır.

2005-ci ildə Avropa Şurasının Baş katibi Terri Devis tərəfindən Avropada ən yaxşı birliklərdən biri kimi Azərbaycan Könüllülər İctimai Birliyi xüsusi sertifikatla mükafatlandırılmışdır.

2010-cu ildə 63 saylı Sabirabad birinci seçki dairəsindən dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. Parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvüdür.

2005-də "İRƏLİ" gənclər hərəkatını təsis edənlərdən biri olmuşdur. 2009-cu ildə "İRƏLİ"-nin fəaliyyəti Azərbaycanın 56 şəhər və rayonu üzrə 100.000-dən çox insanı əhatə etmiş, eyni zamanda Avropanın 13 şəhərində nümayəndəliklər yaradılmışdır. 2008-

ci ildə hərəkat ictimai birliyə çevrilmiş və o birliyin sədri seçilmişdir. Universitet illərindən ictimai fəaliyyətə başlayan Ceyhun Osmanlı Azərbaycan Könüllülər İctimai Birliyinin prezidenti, (2000-2006); Avropa Şurası Gənclər Məsələləri Üzrə Məsləhət Şurası və Proqram Komitəsinin üzvü, (2002 -2005); Azərbaycan Respublikası Gənclər Təşkilatlarının Milli Şurasının Baş Katibi (2004-2006) olmuşdur.



**Rafət Abış oğlu Nərimanov** 1969-cu ildə Neftçala rayonu Qaçaqkənd kəndində anadan olmuşdur. 1991-1996-cı illərdə Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakultəsində psixologiya ixtisası üzrə təhsil almışdır. Şərq əlbəyaxa doyüş növü üzrə idman ustasıdır. Fakültədə təhsi aldığı illərdə yəni, 1994-96-cı illərdə kinqboksinq üzrə Azərbaycan yığma komandasının üzvü olmuşdur. 2008-ci ildən Fövqəladə Hallar Nazirliyinin əməkdaşı kimi fəaliyyət göstərir. İşlədiyi müddətdə FHN tərəfindən işdə fərqləndiyinə görə fəxri fərmanla təltif olunmuşdur.



**Murad Əli oğlu Dadaşov** 1978-ci ildə Bakıda anadan olub. BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin məzunudur. İxtisasca psixoloqdur. “Bakılı oğlanlar” şən və hazırcavablar klubunun üzvü olub. “Yeriniz məlum”, “Mərc-şou”, “Bir cənub şəhərində”, ”Maşın” şoularının aparıcısı və ideya müəllifi kimi çıxış edib. Bir neçə filmə çəkilib. Чoxsaylı mükafatlar laureatıdır.



**Amil Məmmədəli oğlu Məhərrəmov** 1974-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1991-1996-cu illərdə Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin "İqtisadi nəzəriyyə" ixtisasını fərqlənmə diplomu ilə bitirmişdir. 1999 – cu ildən Bakı Dövlət Universitetində müəllim vəzifəsində çalışır. 2001-ci ildə "Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı (xidmət və ticarət sahələrində)" mövzusunda namizədlik dissertasiyası, 2010-cu ildə "Qloballaşma şəraitində Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyasında gömrük siyasətinin formalaşması və inkişaf perspektivləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Hal-hazırda Beynəlxalq münasibətlər və dünya iqtisadiyyatı fakültəsində "İqtisadiyyat və idarəetmə" kafedrasının müdiri vəzifəsində çalışır. İqtisad elmləri doktorudur, professor vəzifəsini icra edir.

BDU-da nəşr olunan "Beynəlxalq hüquq və inteqrasiya problemləri" adlı elmi-analitik və praktiki jurnalın baş redaktor müavinidir. "Bakı Universitetinin xəbərləri" jurnalında sosial-siyasi elmlər seriyası redaksiya heyətinin, habelə BDU-nun Nəşriyyat Şurasının üzvüdür.



**Suğra Akif qızı Allahyarova** 1990-cı ildə Bakı şəhərində anadan olmuşdur. 2005-ci ildə Bakı Dövlət Universitetinin Sosial elmlər və Psixologiya fakultəsinin Politologiya ixtisasına qəbul olmuş, 2011-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirmişdir. Hazırda Azərbaycan Milli Elmlər Akademiyasında, Politologiya və Siyasi sosiologiya şöbəsində çalışır.

**Arzuman İsrafil oğlu Kosayev** 1981-ci ildə Ermənistan Respublikası Spitak rayonu Qursalı kəndində anadan olmuşdur. Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin Sosiologiya ixtisasının məzunudur. Universiteti bitirdikdən sonra Sosial elmlər və psixologiya fakültəsində metodist, Sosiologiya kafedrasında müəllim, fakültənin dekan müavini vəzifələrində çalıvşmışdır. Sosiologiya üzər fəlsəfə doktorudur. Hal-hazırda Bakı Dövlət Universitetinin Qiyabi və əlavə təhsil üzrə inspektordur və Sosiologiya kafedrasının müəllimidir.



**Nazim Şahin oğlu Mahmudov** 1986-ci ildə anadan olmuşdur. 2008-ci ildə Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsini politologiya ixtisası üzrə bitirmişdir. 2011-ci ildə isə Milli Təhlükəsizlik və Milli Strategiya üzrə magistr dərəcəsi almışdır. Azərbaycan Respublikası Daxili siyasət üzrə məsləhətçi işləyir.



**Sarvan Elxan oğlu Cəfərov** 28 Oktyabr 1985-ci ildə Ermənistanın Vardenis rayonunda anadan olmuşdur. Bakı Dövlət Universitetinin sosial elmlər və psixologiya fakültəsinin Politologiya ixtisasının məzunudur. Əmlak Məsələləri Dövlət Komitəsinin 3 saylı ərazi şöbəsində məsləhətçi işləyir.





**Ülkər Azad qızı İsazadə** 1984-cü ildə anadan olmuşdur. Bakı Dövlət Universitetinin Sosial Elmlər və Psixologiya fakültəsinin psixologiya ixtisasının məzunudur. Çexiya Respublikasının Bakıdakı Səfirliyində Səfirin assistenti vəzifəsində çalışır.



**Sahib Nazim oğlu Cəfərov** 1985-ci ildə Ermənistanda anadan olmuşdur. Bakı Dövlət Universiteti Sosial Elmlər və Psixologiya fakültəsinin Politologiya ixtisasını bitirib. Milli təhlükəsizlik və milli strategiya üzrə magistr təhsili alıb. Azərbaycan Respublikası Prezidenti Yanında Strateji Araşdırmalar Mərkəzində baş menecer vəzifəsində işləyir.



**Yaqut Tahir qızı Məhərrəmova** 1985-ci ildə Ağdam rayonunun Quzanlı kəndində anadan olmuşdur. Bakı Dövlət Universitetininin Sosial elmlər və psixologiya fakültəsini psixologiya ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir. 2007-ci ildə isə BDU-nun "Ümumi psixologiya" ixtisaslaşması üzrə magistr dərəcəsini almışdır. 2007-2009-cu illərdə Azəbaycan Müəllimlər İnstitutunun Psixologiya kafedrasında baş laborant vəzifəsində çalışmışdır. 2009-cu ildən İnstitutda müəllim kimi fəaliyyət göstərir.

**Zülfiyyə Rüfət qızı Əhmədxanova** 1985-ci ildə Bakı şəhərində anadan olmuşdur. Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin psixologiya ixtisası üzrə bitirmişdir. Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Ümumi psixologiya" fakültəsinin magistraturasına daxil olmuş, 2009-cu ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. 2010-cu ilin sentyabr ayından Azərbaycan Müəllimlər İnstitutunda Psixologiya kafedrasında baş laborant vəzifəsində işləyir.



**Əsli Xanmirzə qızı Zeynabdinova** 1974-ci ildə Xirdalan şəhərinldə anadan olmuşdur. 1991-ci ildə Bakı Dövlət Universitetinin Sosial Elmlər və psixologiya fakültəsinin Psixologiya ixtisasını bitirmişdir. Bakı SOS Uşaq Kəndində psixoloq vəzifəsində çalışır.



**Tural Rauf oğlu Əliyev** 1985-ci ildə Ağdam rayonunda anadan olmuşdur. 2003-cü ildə Sosial elmlər və psixologiya fakültəsinin politologiya ixtisasına daxil olmuşdur və 2007-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. 2009-ci ildən 2011-ci illərdə magistraturada təhsil almışdır. Jurnalistika sahəsində fəaliyyət göstərərək "Spase", "ANS", "Yurd TV" kanallarında çalışmışdır. Hazırda Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin əməkdaşıdır. 5 məqalənin müəllifidir.



# SON SÖZ

Təqdim olunan kitab 1991-2011-ci illərdə Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin əldə etdiyi uğurlardan bəhs edir. Kitabla tanış olan hər kəs ölkəmizin həyatında mühüm xidməti olan Sosial elmlər və psixologiya fakültəsinin keçmişi və bu günü haqqında məlumat toplaya bilər. Kitabda fakültənin yaradılması, tələbə və müəllim heyəti, tədris və elm sahələrində qazanılan uğurlar, görkəmli məzunlar, ictimai-siyasi həyatı barədə müfəssəl məlumat verilmişdir. 20 il ərzində fakültə universitetin və deməli, ölkəmizin təhsil, elm, mədəniyyət tarixinə öz töhvələrini vermiş, bu gün də belə şərəfli missiyanı uğurla yerinə yetirir. Fəaliyyət göstərdiyi müddət ərzində fakültə öz üzərində böyük təhsil islahatçısı, maarifpərvər ziyalı, universitetimizin həyatında kardinal uğurlara imza atmış Bakı Dövlət Universitetinin rektoru, akademik A.M.Məhərrəmovun diqqət və qayğısını həmişə hiss etmişdir.

Tam əminliklə demək olar ki, kitab təkcə univerisitet çərçivəsi ilə məhdudlaşmayacaq, ölkəmizin elm, təhsil və kadr potensialı ilə maraqlanan hər kəs üçün dəyərli bir mənbə olacaqdır.

Ümidvarıq ki, universitet yaşadıqca onun həyatında özünəməxsus yer tutan Sosial elmlər və psixologiya fakültəsi təhsildə, elmdə, ictimai-siyasi həyatda uğurları ilə yeni, parlaq səhifələr yazacaq, xalqımızın inkişafına, dövlətimizin çiçəklənməsinə öz layiqli töhvəsini verəcəkdir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilən siyasi kurs universitetin, o cümlədən fakültənin zəngin fəaliyyətinin əsasını təşkil edir. Çalışacağıq ki, bundan sonra da gənclərimiz ulu öndər H.Əliyev ideyaları ruhunda vətənpərvər, xalqa, dövlətə sədaqətli formalaşsınlar, elm və təhsil sahəsində ümüdlərimizi daha dolğun reallaşdırsınlar.

*Müəlliflər*



BDU-nun rektoru, millət vəkili, akademik A.M.Məhərrəmov və Türkiyə Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri Hülüsi Kılıc fakültədə kompüter mərkəzinin açılışında



Dekanlığın iclası



Politologiya və sosiologiya kafedrasının müdiri
professor Əli Əhmədov kafedra iclasında



Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının müdiri
professor Rəbiyət Aslanova kafedrada



AMEA-nın müxbir üzvü, profesor Bəxtiyar Əliyev kafedrada



Fakültənin ilk dekanı olmuş professor Əkbər Bayramov
dosent Cəmilə Təhmasiblə kafedra iclasında



Sosial və pedaqoji psixologiya kafedrasının müdiri
professor Kamilə Əliyeva iclasda




1992-2006-cı illərdə fakültənin dekanı olmuş dosent Fazil Vahidov və
dosent Tahir Ağayev elmi mübahisə zamanı



Sosiologiya kafedrasının müdiri
professor İzzət Rüstəmov kafedrada



Fəlsəfə kafedrasının müdiri professor Həmid İmanov
kafedra əməkdaşlarına tapşırıq verərkən
(solda G.Qasımova, sağda G.Yusifova).



Pedaqogika kafedrasının əməkdaşları müzakirə zamanı
(soldan dosent Kəmalə Qəhrəmanova, dosent Rəhimə Mahmudova,
dosent Qəmər Tağıyeva və professor Ləzifə Qasımova)



Professor Nadir İsmayılov məşğələ zamanı
(sağda tələbə S.Əliyeva)



Fakültə dekanı, professor Hikmət Əlizadə fəal tələblələrlə



Dosent Qızılgül Abbasova magistr tələbələrlə



Fakültənin dekan müavini, dosent Arif Rüstəmov tələbələrlə



Gender və tətbiqi psixologiya kafedrasının müdiri, dosent
R.İbrahimbəyova dosent E.Kazımzadə ilə müzakirə zamanı



Pedaqogika kafedrasının müdiri, professor Nübar Muxtarova
dosent Fəridə Həsənova ilə diskussiya zamanı



Fakültənin dekan müavini, dosent Üzeyir Şəfiyev
qiyabi tələbələrə tapşırıq verərkən


Professor Zeynəddin Hacıyev dərsdə


Baş müəllim Azər Allahverdiyev Məntiq dərsində



Fakültə tələbələri dərs zamanı



Professor Rəfael Həsənov dərsdə



Dosent Rəna Məmmədova dərsdə



Magistr tələbələr İnformatika dərsində



Fakültə tələbələri ümummilli leder Heydər Əliyevin
həyat və fəaliyyətini əks etdirən guşədə



Fakültə tələbələri dərsdə




Fakültənin tələbələri Novruz şənliyində



Fakültənin tələbəsi Nəzrin Kərimli Universitet
ansamblında rəqs edərkən



Fakültənin tələbəsi Gülnar Məmmədovanın
rəsm əsərləri sərgidə nümayiş etdirilərkən



Fakültə tələbələri müzakirə zamanı



Dosent Arif Tağıyev dərs zamanı



Fakültə tələbələri müzakirə zamanı

# MÜNDƏRİCAT

Ön söz ........ 5
Tarixi zərurətdən yaranan fakültə ........ 9
Sosial elmlər və psixologiya fakültəsinin dekanlığı ........ 20

**Fakültənin kafedraları**

Fəlsəfə kafedrası ........ 30
Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrası ........ 44
Psixologiya kafedrası ........ 51
Sosial və pedaqoji psixologiya kafedrası ........ 66
Gender və tətbiqi psixologiya kafedrası ........ 73
Pedaqogika kafedrası ........ 80
Sosiologiya kafedrası ........ 90
Politologiya və sosiologiya kafedrası ........ 101
Eksperimental psixologiya elmi-tədqiqat laboratoriyası ........ 114
Sosioloji tədqiqatlar laboratoriyası ........ 118
"İnkişaf" Elmi-Praktik Mərkəzi ........ 123
Fakültənin tanınmış məzunları ........ 128
Son soz ........ 134
Fakültə həyatını əks etdirən şəkillər ........ 135

# SOSİAL ELMLƏR VƏ PSİXOLOGİYA FAKÜLTƏSİ

20

Nəşriyyat redaktoru: Suğra OSMANOVA
Texniki redaktor: Rauf KƏRİMOV
Bədii redaktor: Elnur ƏHMƏDOV
Səhifələyici: Fəxri VƏLİYEV

Yığılmağa verilmişdir: 12.11.2011
Çapa imzalanmışdır: 22.11.2011
Nəşrin ölçüsü: 60x90 1/16
Fiziki çap vərəqi: 9,5
Sifariş: 205/11. Sayı: 500 ədəd.

Bakı Universitetinin Nəşriyyatı
Bakı şəh., AZ1148, Z.Xəlilov küç., 23